RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 99 (9844) 15 may 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan dünyada daha bir strateji sahə üzrə mərkəzə çevrilir




## Gələn ildən "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri "AgriWeek" brendi altında keçiriləcək

Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri davam edir. Mayın 13-də Prezident İlham Əliyevin sərgilərlə tanış olması bu tədbirlərin önəminə bir daha diqqət çəkir.

Vurğulayaq ki, "InterFood Azerbaijan" və "Caspian Agro" sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir. Son illər bu sərgilərdə Azərbaycanla yanaşı, onlarla ölkə aqrar sahədəki nailiyyətlərini nümayiş etdirir. Bu dəfə sərgilərdə 31 ölkədən 450 şirkət iştirak edir və Bakı Ekspo Mərkəzinin bütün pavilyonları, həmçinin açıq sahəsi əhatə olunub.

Bir sıra ölkələr tədbirdə milli qrupları ilə iştirak edir. Elə dövlətimizin başçısının tanış olduğu "İtaliya Respublikasının Milli Qrupu" 7 şirkətdən ibarətdir. Ümumiyyətlə, İtaliya bu sərgilərə böyük maraq göstərən ölkələrdəndir və 10 ildən çoxdur onların iştirakçısıdır. İtaliya şirkətləri bu dəfə də müxtəlif kənd təsərrüfatı məhsullarını təqdim edirlər.

Prezident İlham Əliyev Gürcüstanın stendi ilə də tanış olub. Qonşu ölkə onuncu dəfədir bu sərgilərə gəlir. Bu il "Gürcüstan Milli Qrupu"nda 8 şirkət var. Onlar əsasən qida məhsullarını təqdim edirlər.

Belarus da 10 ildən çoxdur bu sərgilərin iştirakçısıdır. Ölkənin milli stendində qida məhsulları istehsal edən 15 şirkət təmsil olunur. Onlar pendirin, ətin qablaşdırılması və emalı, süd sənayesi kimi sahələrdə ixtisaslaşmış şirkətlərdir. Bundan başqa, Belarusun kənd təsərrüfatı texnikası da sərgidə geniş nümayiş olunur.

→ 9

## Ölkəmizlə hesablaşmayanlara regionda yer yoxdur



Cənubi Qafqazı əhatə etməklə, qitələri birləşdirən bütün aparıcı kommunikasiyaların reallaşmasının mərkəzində dayanan məhz Azərbaycandır. Başqa cür desək, bu kommunikasiyalar respublikamızın təşəbbüsləri və Bakının moderatorluğu ilə həyata vəsiqə alıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng infrastrukturların ərsəyə gətirilməsinin əsas səbəbi Azərbaycan dövlətinin iradəsi və qətiyyətidir.

Bunlardan yararlananlar isə yalnız Azərbaycan deyil, həm də Gürcüstandır, Türkiyədir, Avropa və Orta Asiya dövlətləridir. Respublikamızdan keçən nəqliyyat dəhlizləri Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə daha yaxın edir, dövlətlərarası iqtisadi əməkdaşlığı dərinləşdirir. Azərbaycanın enerji siyasəti isə dost dövlətlərin, habelə Avropa İttifaqına üzv ölkələrin milli maraqlarını da qoruyur.

→ 8

## Azərbaycan bölgədə söz sahibidir

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işlərini daim diqqətdə saxlayaraq, mütəmadi şəkildə bu bölgəyə səfərləri və yeni-yeni infrastruktur layihələrinin açılışında iştirak etməsi öz evlərindən didərgin düşmüş həmvətənlərimizə ata-baba yurdlarına, dilbər Qarabağa qayıtmaq sevinci yaşadır. "Azərbaycanın mədəniyyət beşiyi sayılan, 2020-ci il noyabrın 8-də işğaldan azad edilmiş Şuşada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq prosesi çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin, Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında, həmçinin yeni inşa olunacaq dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Müasir standartlara cavab verən Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin və planlaşdırma, habelə bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunan Daşaltı kənd məscidinin təməlləri 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

→ 8

## Azərbaycanın xarici siyasəti qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq kimi prinsiplər əsasında qurulub

Mayın 14-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin genişləndirilmiş iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, gündəlikdə yer alan "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusunda müzakirəni açaraq bildirib ki, hazırda beynəlxalq münasibətlər sistemi dərin böhran içərisindədir. Dövlətlər arasındakı qarşılıqlı münasibət qaydaları və ənənəvi institutların sarsılması xaosa, müharibələrə və qeyri-müəyyənliyə yol açıb. Beynəlxalq münasibətlərdəki bu böhran fonunda Azərbaycan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl, proqnozlaşdırıla bilən, adekvat, sülhpərvər və milli maraqlara xidmət edən xarici siyasət aparmaq qabiliyyətini nümayiş etdirir. Bu, regionda formalaşmış yeni reallıqlar sayəsində mümkün olub. Bu yanaşma, Azərbaycana ərazi bütövlüyünü və suverenliyini bərpa etməyə imkan verməklə yanaşı, ölkəmizin beynəlxalq münasibətlər sistemindəki rolunu da əhəmiyyətli dərəcədə artırıb.

Komitə sədri bildirib ki, Azərbaycanın xarici siyasəti hər zaman obyektivlik, etibarlılıq, qarşılıqlı hörmət, suverenliyə sayqı və daxili işlərə qarışmamaq kimi prinsiplər əsasında qurulub. Bu gün beynəlxalq münasibətlərin tənzimlənməsinin çətinləşdiyi, "Şimal-Cənub" probleminin daha da mürəkkəbləşdiyi bir dövrdə ölkəmiz öz potensialını əminliklə nümayiş etdirir.

→ 2

## Ölkəmizin qlobal dialoqa növbəti töhfəsi: *BMT-nin antikorrupsiya təşəbbüsləri Bakının evsahibliyində*

Dünya birliyinin bu mütərəqqi təşəbbüslərinə daim xüsusi etina ilə yanaşan Azərbaycan Respublikası beynəlxalq hüququn etibarlı subyekti kimi üzərinə götürdüyü öhdəliklərin yüksəksəviyyəli icrasını təmin etmiş, milli qanunvericilik çərçivəsini bu standartlarla ahəngdar məzmunda müəyyənləşdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin diqqət yetirdiyi ən ümdə məsələlərdən biri kimi əsası qoyulmuş beynəlxalq aləmə inteqrasiya prosesində təşəbbüskarlıq və intensivlik meyilləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi hazırkı dövrdə daha da artmışdır.

2011-ci ildə müxtəlif ölkələrin 110-dan artıq ictimai xadiminin üzvü olduğu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təsis edilməsi və həmin təşkilat tərəfindən mütəmadi keçirilən Qlobal Bakı Forumunun səmərəli fəaliyyəti, cari ildə sosial bərabərsizlik və iqlim dəyişmələri kimi problemlərə qarşı 100-dən artıq ölkənin nüfuzlu qeyri-hökumət təşkilatının, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə Qlobal Cənub QHT Platformasının təsis edilməsi və digər bu kimi aparıcı təşəbbüslərlə ölkəmiz bu sahədə mühüm plasdarm kimi tanınmaqdadır.

Çağdaş Azərbaycan tarixi boyunca əldə edilən çoxsaylı nailiyyətlərin davamı olaraq təkcə ötən 2024-cü il ərzində Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 3-cü komitəsi tərəfindən 15 noyabr 2024-cü il tarixli "İtkin düşmüş şəxslər" adlı qətnamənin qəbul edilməsi, dənizaşırı ərazilərdə müstəmləkəçilik fəaliyyətinə qarşı mübarizə və fundamental insan haqları sırasına daxil olan qayıdış hüququnun təşviqi üzrə beynəlxalq təsisatlarla işin uğurla davam etdirilməsi kimi təşəbbüskarlıq nümunələri ölkəmizin hamılıqla tanınan ali dəyərlərə sadiqliyi ilə yanaşı, bu prinsiplərin fəal təəssübkeşi olmasının aydın təzahürüdür.

→ 5

## Azərbaycanda ailə ənənələri hər zaman yaşayacaq



Azərbaycan xalqı hər zaman ailə dəyərini yüksək tutub. Hər bir ailədə böyüklər kiçiklərə məsləhət, nəsihət verməzdən öncə öz davranışları ilə onlara nümunə olmağa çalışıblar. Azərbaycan ailələrində uşaqlar ağılları kəsməyə başlayandan görüblər ki, böyüklərə ehtiram göstərmək, sözlərinə qulaq asmaq yalnız onlardan tələb olunmur. Bu qaydalara, demək olar ki, yaş ardıcıllığı ilə hər kəs riayət edir.

Azərbaycan ailələrində bineyi-qədimdən ən çox diqqət göstərilən məsələlərdən biri də eyni vaxtda süfrə ətrafında toplaşmaqdır. Adətən, analar ailə başçısı evə gəlməyincə, süfrə açmayıblar. Böyüklərin yeri həmişə süfrənin başında olub. Onlar əl uzatmayınca kiçiklər yeməyə başlamayıblar. Azərbaycan ailələrinin əksəriyyətində bu günədək belədir.

Ailə böyükləri də öz növbələrində kiçiklərə diqqət, qayğı göstərirlər, gecə-gündüz çalışır, ağır zəhmətə qatlaşırlar ki, övladları heç nədən korluq çəkməsinlər, özlərini həyatda arxalı hiss etsinlər, həm maddi, həm də mənəvi baxımdan rahat yaşasınlar. Bu qayğıkeşlik, fədakarlıq uşaqlarda valideynlərinə, nənə-babalarına qarşı bağlılığı, sevgini möhkəmləndirir. Doğmaları yaşa dolub fiziki imkanları məhdudlaşanda da övladlar onlara dayaq olur, qayğısını çəkirlər.

Valideynlər yalnız uşaqlarını boya-başa çatdırmaqla, yaxşı təhsil almalarına, peşə, sənət öyrənmələrinə nail olmaqla vəzifələrini bitmiş hesab etmirlər. Ailə quranda da maddi ehtiyac ucbatından çətinliyə düşməmələri üçün müəyyən hazırlıqlar görürlər. Toy adət-ənənələrimizə çevrilmiş nişanlı qızlara oğlan evi tərəfindən geyim, bəzək əşyaları, yaxud qız tərəfinin ev əşyaları almaları da bu düşüncədən irəli gəlib.

→ 9

# Paraqvay Respublikasının Prezidenti zati-aliləri cənab Santyaqo Penyaya

Hörmətli cənab Prezident,

Paraqvay Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə Azərbaycan-Paraqvay dostluq əlaqələri daha da inkişaf edəcək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost Paraqvay xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 may 2025-ci il*

# T.Q.Piriyevin Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

Tural Qüdrət oğlu Piriyev Əmanətlərin Sığortalanması Fondunun icraçı direktoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2025-ci il*

# Baş prokuror Kamran Əliyev Bəhruz Əhmədovu Hərbi Prokurorluğun kollektivinə təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 may 2025-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edilmiş Bəhruz Əhmədov, baş prokuror Kamran Əliyev tərəfindən Hərbi Prokurorluğun kollektivinə təqdim edilib.**



Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev prokurorluq orqanlarına göstərilən yüksək etimada, daima olan diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını ifadə edərək dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq islahatlarının mütərəqqi nəticələrini qeyd edib, bu islahatların prokurorluq orqanlarında daha da dərinləşdiyini və prokurorluq fəaliyyətinin təkmilləşdiyini vurğulayıb.

Baş prokuror həmçinin Hərbi Prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində zəruri tədbirlərin icrasının davam etdirilməsi, vətəndaş məmnunluğunun artırılması məqsədilə zəruri tədbirlərin görülməsi, Konstitusiya və qanunlarla nəzərdə tutulan vəzifələrin daha məsuliyyətlə yerinə yetirilməsi, eləcə də bu sahədə digər dövlət qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib.

Bundan sonra çıxış edən Hərbi prokuror Bəhruz Əhmədov göstərilən yüksək etimada görə minnətdarlığını ifadə edərək qanunla Hərbi Prokurorluq orqanlarının üzərinə qoyulmuş vəzifələrin layiqli şəkildə icra ediləcəyinə əminliyini bildirib. Hərbi Prokurorluğun bundan sonra da dövlətimiz və xalqımıza sədaqət və məsuliyyətlə xidmət edəcəyini deyib.

# Azərbaycanın xarici siyasəti qarşılıqlı hörmət və daxili işlərə qarışmamaq kimi prinsiplər əsasında qurulub



*Əvvəli 1-ci səh.*

Azərbaycanın Qlobal Cənub və Qərb arasında siyasi və iqtisadi dialoqun gücləndirilməsi istiqamətində mühüm körpü rolu oynamaq potensialından bəhs edən Səməd Seyidov qeyd edib ki, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyi və COP29 kimi beynəlxalq tədbirlərə evsahibliyi etməsi, ölkənin qlobal iqlim gündəliyindəki rolunu və Qlobal Cənub və Qərb arasında iqlim məsələlərində əməkdaşlığın inkişafına verdiyi töhfəni göstərir. Eyni zamanda Azərbaycanın coğrafi mövqeyi və ölkənin inkişaf etmiş nəqliyyat və enerji infrastrukturu, onu regionun əsas tranzit və enerji mərkəzinə çevirib.

Çıxışında parlament diplomatiyasının rolunun artırılmasının vacibliyini də vurğulayan komitə sədri bildirib ki, Milli Məclis hazırda beş beynəlxalq parlament təşkilatına rəhbərlik edir və onlardan bəziləri məhz Azərbaycanın təşəbbüsü ilə yaradılıb. O qeyd edib ki, Azərbaycan Şimal-Cənub və Qərb-Şərq istiqamətində dialoqun gücləndirilməsində mühüm körpü rolunu oynayır və bu strateji mövqe, parlament diplomatiyasının daha da inkişaf etdirilməsini zəruri edir.

Sonra tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Azərbaycanın son illər Qlobal Cənubda getdikcə güclənən və beynəlxalq səviyyədə tanınan mövqeyi barədə danışıb. O bildirib ki, Azərbaycan xarici siyasətdə çoxtərəfliliyə böyük dəstək verən ölkələrdən biridir.

Qeyd olunub ki, qlobal arenada yüksəliş mərhələsinə qədəm qoyan Qlobal Cənubda Azərbaycanın artan nüfuzu onun müstəqil, qərəzsiz, beynəlxalq hüquqa və ədalətə əsaslanan çoxtərəfli siyasəti ilə qlobal qeyri-bərabərliyin azaldılmasına, dialoqun qurulmasına verdiyi töhfələrlə bağlıdır. Ölkəmizin Qlobal Cənub ölkələrinin səsi sayılan Qoşulmama Hərəkatına sədrliyi illərində təşkilat Prezident İlham Əliyevin təşəbbüsləri ilə qlobal siyasətdə kifayət qədər aktiv rol oynayıb, inkişaf etməkdə olan ölkələrin səsini beynəlxalq platformalara çatdırıb, onun institusional inkişafında əməli addımlar atılıb, təşkilatın parlament şəbəkəsi və gənclər təşkilatı yaradılıb. Azərbaycan COP29-a sədrliyi dövründə də Qlobal Cənubda liderliyi rolunu bir daha təsdiqləyib. Bakının uzun illərdir əldə edilməsi mümkün olmayan nailiyyətə imza ataraq inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələrə ayrılacaq iqlim maliyyəsini 300 milyard ABŞ dolları məbləğində razılaşdırılmasına nail olması COP29-un tarixinə yazılıb.

Nazir müavini Afrika qitəsinin, kolonializmdən əziyyət çəkən ölkələrin Azərbaycana artan marağının əsasında da Azərbaycanın Qlobal Cənubla əməkdaşlığının dayandığını diqqətə çatdırıb.

Xarici işlər nazirinin müavini bildirib ki, BMT daxilində hazırda gedən islahatlarla bağlı danışıqlarda Qlobal Cənub xüsusilə güclü mövqeyə malikdir və Azərbaycan BMT Təhlükəsizlik Şurasında islahatları dəstəklədiyini açıqlayıb. Bununla bağlı Prezident İlham Əliyev də BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı ölkələri üçün daimi üzv yerlərinin təmin olunması məsələlərini qaldırıb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qlobal Cənub platformasının gündəliyindən söz açıb, Azərbaycanın bu platformada əməkdaşlıq imkanları barədə fikirlərini bölüşüb.

Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova Qoşulmama Hərəkatının Gənclər Təşkilatının, Parlament Şəbəkəsinin və yeni təsis edilən Qlobal Cənub QHT Platformasının Qlobal Cənubun dünyadakı proseslərdə mövqeyinin çatdırılmasındakı əhəmiyyətindən danışıb, Qlobal Cənub gənclərinin səsinin beynəlxalq müstəvidə eşidilməsi və onların iştirakının dəstəklənməsi tədbirlərindən bəhs edib.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, üzvləri Fariz İsmayılzadə, Asim Mollazadə, Sevinc Fətəliyeva, Zaur Şükürov, Nəsib Məhəməliyev, Pərvanə Vəliyeva, Rizvan Nəbiyev, Sevil Mikayılova, Gülşən Paşayeva və Nigar Məmmədova bugünkü müzakirənin əhəmiyyətini vurğulayıblar, Azərbaycanın Qlobal Cənubla münasibətlərinin perspektivləri barədə fikirlərini bölüşüblər, qeyd və suallarını səsləndiriblər.

Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova deputatların qaldırdıqları məsələlərə münasibət bildiriblər, onların suallarını cavablandırıblar.

Müzakirəyə yekun vuran Səməd Seyidov deyib ki, bu gün ölkəmizin geosiyasi mövqeyi, onun müstəqil xarici siyasəti və həyata keçirdiyi strateji təşəbbüslər Azərbaycana Qlobal Cənub və Qərb arasında mühüm körpü rolunda çıxış etməyə imkan verir. Ölkəmiz bundan sonra da beynəlxalq arenada sülhün və sabitliyin möhkəmləndirilməsinə töhfə verməyə sadiq qalacaq.

İclasda həmçinin "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında və "Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanun layihələrinə baxılıb.

Qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

# Avropa Şurasının sessiyasında Azərbaycanın sülh təşəbbüslərindən danışılıb

**Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Avropa Şurası Nazirlər Komitəsinin mayın 13-14-də Lüksemburq şəhərində keçirilmiş 134-cü sessiyasında iştirak və çıxış edib.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, sessiyada çıxışı zamanı nazir müavini cari ilin mart ayında Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığını diqqətə çatdırıb. Bununla yanaşı, danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməli olduğu, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv edilməsinin zəruriliyi vurğulanıb.

Elnur Məmmədov Azərbaycanın iki ölkə arasında normallaşma prosesi ilə əlaqəli bu və digər məsələlər üzrə ikitərəfli dialoqu davam etdirməyə hazır olduğunu qeyd edib.

Nazir müavini çıxışında 2024-cü ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin Avropa Şurası Parlament Assambleyası tərəfindən təsdiq edilməməsinin hüquqi baxımdan tamamilə əsassız olduğunu və 2019-cu ildə təşkilatın Nazirlər Komitəsinin qəbul etdiyi qərarda əksini tapmış "bütün üzv dövlətlər bərabər əsasda Avropa Şurasının iki nizamnamə orqanında iştirak etməlidir" müddəası ilə ziddiyyət təşkil etdiyini bildirib.

O, parlamentlərarası dialoq və əməkdaşlıq platforması rolunu həyata keçirməli olan assambleyada Azərbaycanın iştirakını qeyd-şərtsiz bərpa etmək məqsədilə vəziyyətin tezliklə həll edilməsinin zəruri olduğunu vurğulayıb.

Mayın 14-də nazir müavini Elnur Məmmədov, eləcə də Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Maykl Oflaherti və təşkilatın İnsan hüquqları və qanunun aliliyi üzrə Baş direktoru Canluka Espozito ilə görüşlər keçirib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıb.

# *Sergey VLASENKO:* "Müharibənin Ukraynanın ətraf mühitinə vurduğu ziyan təxminən 91,6 milyard dollardır"

**Ukraynada üç ildən çoxdur davam edən müharibə ölkənin ətraf mühitinə ciddi ziyan vurub, meşə örtüyü və su ehtiyatları azalıb. Bu və digər məsələlərlə bağlı Ukraynanın Ətraf mühitin mühafizəsi və təbii sərvətlər nazirinin müavini Sergey Vlasenko AZƏRTAC-a müsahibə verib.**

*- Ukraynada davam edən müharibənin ölkənin ekologiyasına vurduğu ziyan haqda nə deyə bilərsiniz?*

- Təəssüf ki, müharibə Ukraynanın ətraf mühitinə son dərəcə mənfi təsir göstərir. Ukraynanın müvafiq nazirliyi ətraf mühitə dəyən zərərin hesablanması üçün xüsusi metodikalar hazırlayıb. Bu metodikalar yeddi sahəni əhatə edir: hava, meşələr, milli parklar, çaylar, dəniz, atmosfer və ümumilikdə təbiətə dəymiş zərərlərin hesablanması. Hazırda bu zərərin ümumi məbləği 3 trilyon 800 milyard qrivnaya (təxminən 91,6 milyard dollar - Red) çatır. Bu göstərici yalnız Ukraynanın azad edilmiş və nəzarətimizdə olan ərazilərinə aiddir. Təəssüf ki, bu rəqəm hər gün artır. Müvəqqəti işğal olunmuş ərazilərdə isə zərərin həcmi daha da böyükdür və bu rəqəm gələcəkdə daha da artacaq.

*- Ukrayna dünyada böyük meşə örtüyü ilə tanınan ölkələrdən biridir. Yəqin ki, hərbi əməliyyatlar meşə örtüyünü də yararsız hala salır?*

- Bu, ölkəmiz üçün çox böyük problemdir. Hazırda meşələrin üçdəbiri müharibədən zərər çəkib. Bu, təxminən üç milyon hektar təşkil edir. Həmçinin Ukrayna dünyada ən çox minalanmış ölkə hesab olunur. Biz davamlı olaraq həm insanların, həm də heyvanların minaya düşməsi, meşə yanğınları və digər faciələrlə qarşılaşırıq.

*- Bəs su ehtiyatları ilə bağlı vəziyyət necədir?*

- 2023-cü ildə "Kaxovka" Su-Elektrik Stansiyasının məhv edilməsi nəticəsində 14 milyard litr içməli su itirildi. Bu həcmdə su bütün bəşəriyyətin iki gün ərzində içə biləcəyi qədər idi. Hadisənin özü də böyükmiqyaslı ekoloji fəlakət oldu.




*- Müharibə dövründə Ukraynada atom elektrik stansiyalarının yarada biləcəyi fəsadlarla bağlı nə deyə bilərsiniz?*

- Hazırda Avropa qitəsinin ən böyük atom elektrik stansiyasında - işğalda olan Zaporojye Atom Elektrik Stansiyasında fövqəladə hadisə baş versə, təkcə Ukrayna deyil, bütün Avropa zərər çəkəcək. Çünki ətraf mühitin sərhədləri yoxdur - təbiət birgə qorunmalıdır. Xatırlatmaq lazımdır ki, daha əvvəl işğal olunmuş, lakin azad edilmiş digər atom elektrik stansiyası da mövcud idi - Çernobıl AES. 1986-cı ildə baş verən fəlakətin nəticələrini bütün Avropa hiss etmişdi. O vaxt İsveçdəki alimlər havada radioaktiv yod aşkar etmişdi.

2024-cü ilin fevralında Çernobıl AES-in təhlükəsiz sığınacağına hücum edilib. Dünyada ilk nüvə fəlakəti olan bu ərazi yenidən təhlükə ilə üzüzə qaldı. Ötən ilin dekabrında isə işğal olunmuş ərazilərdə neft daşıyan iki gəmi Qara dənizdə batdı və nəticədə dənizə neft məhsulları axdı. Bu hadisə dəniz florası və faunasına ağır ziyan vurdu.

Təbiət bu müharibənin görünməyən, lakin ən böyük qurbanlarından biridir.

*- Sonda Azərbaycan dövlətinin, diasporunun Ukraynanın müxtəlif bölgələrində ətraf mühitin inkişafına verdiyi töhfəni necə qiymətləndirirsiniz?*

- Müharibə olmasına baxmayaraq, Kiyev də daxil olmaqla, ölkənin bir çox bölgələrində Azərbaycan icması ətraf mühitin yaşıllaşdırılması işlərində yaxından iştirak edir. Azərbaycan dövlətinin dəstəyi ilə Kiyevdə də ətraf mühitin inkişafı üçün xüsusi layihələr həyata keçirilir. Bu cür aksiyalar gözəl başlanğıcdır, bu cür aksiyaları ancaq dəstəkləmək lazımdır. Son olaraq bütün bu nəcib işdə göstərdikləri dəstəyə görə Azərbaycanın diaspor fəallarına təşəkkür edirəm.

# Pakistanın Baş naziri həmrəylik və dəstəyə görə Azərbaycana minnətdarlıq edib

**Pakistanın Baş naziri Şahbaz Şərif Pakistanla sarsılmaz həmrəyliyə və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, qardaş Azərbaycan xalqına dərin minnətdarlığını bildirib.**



AZƏRTAC xəbər verir ki, Baş nazir Şahbaz Şərif ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadovu qəbul edərkən, Azərbaycanın nümayiş etdirdiyi mövqenin iki xalq arasında möhkəm dostluğun və qardaşlığın təzahürü olduğunu deyib.

Regionda baş verənlər və əldə olunmuş atəşkəs razılaşması barədə danışan Baş nazir ölkəsinin gələcəkdə də hər hansı təcavüz qarşısında öz suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməyə hazır olduğunu bildirib.

Baş nazir strateji xarakter daşıyan Azərbaycan-Pakistan münasibətlərinin inkişafından söz açaraq, ikitərəfli əməkdaşlığın müsbət inkişafından məmnunluğunu ifadə edib. O, Prezident Əliyevin ötən ilin iyulunda Pakistana tarixi səfərinin iqtisadiyyat, ticarət və investisiya sahələrində yeni əməkdaşlıq imkanlarının açılması ilə mühüm mərhələ olduğunu bildirib. Baş nazir fevralda Bakıya səfərini xatırladaraq, Pakistanın ikitərəfli əlaqələri qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa yüksəltmək istəyini bir daha təsdiqləyib. Azərbaycan və Pakistanın dost və qardaş ölkələr kimi hər zaman birlikdə olduğunu bildirən ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadov dövlətimizin başçısı İlham Əliyevin iki ölkə arasındakı qardaşlıq əlaqələrinə böyük önəm verdiyini və son illər ərzində tərəflər arasında əlaqələrin sürətlə inkişaf etdiyini bildirib.

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 157**

**Bakı şəhəri, 12 may 2025-ci il**

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 4 sentyabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti işçilərinin əmək intizamı haqqında Nizamnamə"nin 13-cü hissəsindən "və işçinin əmək kitabçasına qeyd olunur" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 5 dekabr tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 544 (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş "Xroniki alkoqoliklərin və narkomanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamə"nin 7.5-ci bəndinin üçüncü abzası ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 96-cı hissəsinin birinci cümləsində "iş yeri üzrə (əmək kitabçasının olduğu yerdə)" sözləri "əsas iş yeri üzrə" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; 2025, № 2, maddə 180; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 71 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə"nin 2.3-cü bəndinin "b" yarımbəndinə "iş stajını təsdiq edən" sözlərindən sonra "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682 (Cild I) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın 37-ci və 38-ci hissələrinin "a" bəndləri aşağıdakı redaksiyada verilsin:

"a) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində bağlanılmış əmək müqaviləsi", Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə əmək müqaviləsinin əsli;".

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I); 2024, № 7, maddə 930) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.13-cü bəndinin üçüncü abzasında "əmək kitabçasının olduğu işəgötürənin" sözləri "əsas iş yeri üzrə işəgötürənin" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 31 may tarixli 109 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 5, maddə 359 (Cild I) əlavə - "Kənd təsərrüfatı müəssisələrində işçilərin əmək haqqının normativlərinə dair Tövsiyələr"in 2.8.8-ci yarımbəndinin ikinci abzasının birinci cümləsindən "kollektiv" sözü çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 629 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası"nın 2.11-ci bəndinin ikinci abzasından "və əmək kitabçasına" sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 may tarixli 84 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 321 (Cild I) ilə təsdiq edilmiş "Haqqı ödənilən ictimai işlərin təşkili Qaydaları"nın 2.10-cu bəndinin birinci cümləsi çıxarılsın.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 162 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 645 (Cild I); 2024, № 3, maddə 315, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Vəzifəli şəxslərin və vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla işləməyə buraxılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 17-ci hissənin ikinci abzasının birinci cümləsinə "hərbi bilet," sözlərindən sonra "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin;

10.2. həmin Qaydaya əlavə (Forma 2) - "ANKET"in 23-cü hissəsinə "əmək kitabçasına" sözlərindən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651 (Cild I) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - "Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

11.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"İş stajı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

11.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 658 (Cild I); 2024, № 4, maddə 446) ilə təsdiq edilmiş "Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əkskəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası"nın 4-cü hissəsində "müəyyən edilmiş qaydada doldurulmuş" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I); 2024, № 3, maddə 311) ilə təsdiq edilmiş "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1.3-cü bənd üzrə:

13.1.1. üçüncü abzasda "yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər" sözləri "1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqları tərbiyə edən valideynlər" sözləri ilə əvəz edilsin;

13.1.2. dördüncü abzas ləğv edilsin;

13.2. 3.1-ci bəndin ikinci cümləsində "Məşğulluq" altsistemi (bundan sonra - MAS)" sözləri "Əmək və məşğulluq" altsistemi (bundan sonra - ƏMAS)" sözləri ilə və "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446 (Cild I) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

14.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Qulluq illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

14.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 aprel tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 270 (Cild I); 2024, № 1, maddə 111; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 12 mart tarixli 71 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarına daşıyıcıların cəlb olunmasına dair müsabiqənin keçirilməsi Qaydası"na 3 nömrəli əlavə - "İxtisas məlumatlarının nümunəvi forması"nın 4-cü hissəsinə "işçilərinin" sözündən sonra "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışlar, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nın 2.10.4-cü yarımbəndinə "əmək kitabçası" sözlərindən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 695 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 612, № 9, maddə 1058) ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na aşağıdakı dəyişikliklər edilsin:

17.1. 3.3-cü, 4.2-ci və 6.6-cı bəndlərin yeddinci abzasları aşağıdakı redaksiyada verilsin:

"iş stajı olanlar üçün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasından çıxarış;";

17.2. 3.18-ci bənddə "Doktoranturaya" sözü "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda doktoranturaya" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 441 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Fövqəladə hallar orqanları əməkdaşlarının xidmət illərinin və bununla əlaqədar onlara verilən fasiləsiz xidmət illərinə görə haqqın hesablanması Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

18.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Xidmət illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

18.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072 (Cild I); 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nın 9.13-cü və 9.14-cü bəndləri ləğv edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 20 iyun tarixli 133 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 631 (Cild I) ilə təsdiq edilmiş "Gənclərin kadr potensialı barəsində məlumat bankı haqqında Əsasnamə"nin 3.4.6-cı yarımbəndinə "əmək kitabçasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə" sözləri əlavə edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1199 (Cild I); 2024, № 5 (II kitab), maddə 582) ilə təsdiq edilmiş "Miqrasiya orqanları işçilərinin fasiləsiz qulluq illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nın 4.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

21.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Qulluq illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

21.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 dekabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1384 (Cild I) ilə təsdiq edilmiş "Yoxlamaların aparılmasına cəlb edilən şəxslərin anket məlumatlarının toplanması, yoxlanması və onların seçilməsi Qaydası"nın 6.4-cü bəndindən "əmək kitabçasında və digər" sözləri və "həmin" sözü çıxarılsın.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 16 avqust tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1011 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən meliorasiya və su təsərrüfatı işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nin 3.5-ci bəndinə "işçinin" sözündən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən işçinin əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 595 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.11.4-cü yarımbəndində "əmək kitabçasının surəti, əmək kitabçası" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti, qeyd edilən sənədlər" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 893 (Cild I); 2024, № 3, maddə 328, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Limanlarda gəmi agenti tərəfindən xidmətlərin göstərilməsi üçün sertifikatın forması, qüvvədə olma müddəti, verilmə və ləğv edilmə Qaydası"nın 3.3.1-ci yarımbəndinin 5-ci abzasına "əmək kitabçasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 oktyabr tarixli 324 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1238 (Cild I); 2024, № 4, maddə 441, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"nın 3.1.6-cı yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.1.6. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının təsdiq edilmiş surəti;".

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 noyabr tarixli 464 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1952 (Cild I); 2024, № 3, maddə 313) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanın (borcalanların) aylıq məcmu gəlirinin hesablanması Qaydası"nın 3.3-cü bəndinin birinci cümləsində "Əmək müqaviləsi bildirişi" sözləri "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 iyul tarixli 285 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 7, maddə 1482 (Cild I); 2025, № 2, maddə 206) ilə təsdiq edilmiş "Dövlət qulluğuna qəbul üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 2.2-ci və 10.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti.";

"10.5. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;";

28.2. həmin Qaydalara əlavə - "Dövlət qulluğu üzrə müraciət Forması" üzrə:

28.2.1. 6.2-ci və 6.3-cü bəndlərə "əmək kitabçasının" sözlərindən sonra "(olduğu halda)" sözləri əlavə edilsin;

28.2.2. 6.5-ci bənddən "(əmək kitabçası üzrə)" sözləri çıxarılsın.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 619 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2564 (Cild I) ilə təsdiq edilmiş "Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması"nda aşağıdakı dəyişikliklər edilsin:

29.1. 1.1-ci bənddə "işsizlərə" sözü "işsiz, habelə "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 20.2.2-ci, 21.1-ci və 24.1-ci maddələrinə uyğun olaraq aktiv məşğulluq tədbirlərinə cəlb edilən işaxtaran şəxslərə (bundan sonra - işsiz və işaxtaran şəxs)" sözləri ilə əvəz edilsin;

29.2. 1.2-ci, 2.1-ci, 2.2-ci və 2.6-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2. Fərdi məşğulluq proqramı - işsiz və işaxtaran şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədilə məşğulluq imkanlarının qiymətləndirilməsi əsasında hazırlanan, aktiv məşğulluq tədbirlərinin konkret həcmini, növünü, ardıcıllığını və icra müddətini, habelə işsizlikdən sığorta ödənişinin verilməsini və iş axtarışını müəyyən edən elektron sənəddir.";

"2.1. İşsiz və işaxtaran şəxsin işə düzəlməsinə və əmək bazarına qaytarılmasına kömək məqsədilə Agentlik və ya Mərkəz tərəfindən fərdi məşğulluq proqramı tərtib olunur.

2.2. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramının hazırlanması məqsədilə qeydiyyata alındıqdan sonra Agentliyin yerli qurumlarına və ya Mərkəzlərə gəlməli və ya onlayn rejimdə məsləhət xidmətindən keçməlidir.";

"2.6. Bu Qaydanın 2.1-ci bəndinə uyğun olaraq hazırlanmış fərdi məşğulluq proqramı işsiz və işaxtaran şəxsin elektron kabinetində əks olunur, işsiz və işaxtaran şəxs qeydiyyata alındığı tarixdən ən geci 14 gün ərzində onu ƏMAS-da təkmil sertifikatlı gücləndirilmiş elektron imza və ya digər elektron eyniləşdirmə vasitəsilə təsdiqləyir.";

29.3. 1.3-cü və 2.3-cü bəndlərdə "işsizin" sözü "işsiz və işaxtaran şəxsin" sözləri ilə əvəz edilsin;

29.4. 2.5-ci bənddə "Mərkəzləşdirilmiş Elektron İnformasiya Sistemi"nin (bundan sonra - MEİS) "Məşğulluq" altsisteminə (bundan sonra - MAS)" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Əmək və məşğulluq" altsisteminə (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin və həmin bəndə "gücləndirilmiş" sözündən əvvəl "təkmil sertifikatlı" sözləri əlavə edilsin;

29.5. aşağıdakı məzmunda 2.7-ci və 4.4-cü bəndlər əlavə edilsin:

"2.7. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramının tərtib edilməsindən imtina etdikdə və ya onu təsdiq etmədikdə işaxtaran və işsiz kimi qeydiyyatı ləğv edilir.";

"4.4. İşsiz və işaxtaran şəxs fərdi məşğulluq proqramını icra etmədikdə və icrası barədə hesabatı "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 27.2-ci maddəsi ilə müəyyən edilmiş müddətdə təqdim etmədikdə işaxtaran və işsiz kimi qeydiyyatı ləğv edilir.";

29.6. 3.1-ci bəndə "İşsiz" sözündən sonra "və işaxtaran şəxs" sözləri əlavə edilsin;

29.7. 3.2-ci bəndə "işsiz" sözündən sonra "və işaxtaran şəxs" sözləri əlavə edilsin;

29.8. 3.3-cü bəndin birinci cümləsinə "İşsiz" sözündən sonra "və işaxtaran şəxs" sözləri əlavə edilsin və həmin cümlədə "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin;

29.9. 4.1-ci bəndin birinci cümləsində "MAS" akronimi "ƏMAS" akronimi ilə və ikinci cümləsində "İşsiz şəxsi" sözləri "İşsiz və işaxtaran şəxs" sözləri ilə əvəz edilsin;

29.10. 4.2-ci bəndin birinci cümləsində "İşsiz MAS" sözləri "İşsiz və işaxtaran şəxs ƏMAS" sözləri ilə əvəz edilsin və ikinci cümləsinə "işsiz" sözündən sonra "və işaxtaran" sözləri əlavə edilsin;

29.11. həmin Qaydaya 1 nömrəli əlavə - "Fərdi məşğulluq proqramı" üzrə:

29.11.1. "Fərdi məşğulluq proqramını yerinə yetirəcək şəxsin" hissəsində "işsizin" sözü "işsiz və işaxtaran şəxsin" sözləri ilə əvəz edilsin;

29.11.2. "Fərdi məşğulluq proqramının təsdiqi barədə" hissəsi aşağıdakı redaksiyada verilsin:

*Ardı 4-cü səh.*

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında”, “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında”, “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında”, “İşsizlikdən sığorta haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar”ın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 157** **Bakı şəhəri, 12 may 2025-ci il**

*Əvvəli 3-cü səh.*

| | |
|---|---|
| Fərdi məşğulluq proqramının təsdiqi barədə: | |
| Proqramı hazırlayan şəxsin soyadı, adı, atasının adı | |
| Agentliyin yerli qurumu və ya Mərkəzin məsul əməkdaşı | |
| Tərəflərin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası və ya digər elektron eyniləşdirmə vasitəsilə təsdiq edilir | |

29.11.3. "**** Gücləndirilmiş elektron imza ilə təsdiqləndikdə imza və möhür sahələrində məlumat əks olunmur." sözləri çıxarılsın.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 620 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2565 (Cild I); 2024, № 4, maddə 476) ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

30.1. 4.4-cü bənddə "Elektron İnformasiya Sistemində" sözləri "elektron informasiya sistemində" sözləri ilə əvəz edilsin və həmin bəndə "əməkhaqları barədə" sözlərindən sonra "(sığorta haqqı ödənilmiş)" sözləri əlavə edilsin;

30.2. 4.6-cı bənddə "Qanunu ilə işsiz kimi qeydiyyata alındığı" sözləri "Qanununa uyğun olaraq fərdi məşğulluq proqramını təsdiq etdiyi" sözləri ilə əvəz edilsin;

30.3. 5.2-ci bəndin birinci cümləsində "Məşğulluq" altsistemi (bundan sonra - MAS)" sözləri "Əmək və məşğulluq" altsistemi (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

30.4. 5.4-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydanın 4.10-cu bəndində nəzərdə tutulan hal istisna olmaqla, bir sığorta hadisəsi üzrə ilk dəfə sığorta ödənişi təyin olunduğu vaxtdan 24 ay ərzində məşğul şəxs hesab edilməmiş şəxsin bir dəfə təkrar müraciət edərək həmin sığorta hadisəsinə görə yenidən minimum sığorta ödənişi almaq hüququ vardır.";

30.5. 5.7-ci bənddə "qaydada şəxsən" sözləri "formada" sözü ilə əvəz edilsin;

30.6. 6.4-cü bənddə "MAS" akronimi "ƏMAS" akronimi ilə əvəz edilsin;

30.7. həmin Qaydaya 2 nömrəli əlavənin "Qeyd"inin 2-ci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Fərdi məşğulluq proqramının icrasının təmin edilməsi və bu barədə hesabatın təqdim edilməsi məqsədilə işsiz kimi qeydiyyata alındığınız tarixdən ən geci 14 gün ərzində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarına və ya "DOST" mərkəzlərinə gəlməyiniz və ya onlayn rejimdə məsləhət xidmətindən keçməyiniz və hazırlanmış fərdi məşğulluq proqramını şəxsi elektron kabinetinizdə təsdiq etməyiniz tələb olunur.".

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 7 iyun tarixli 261 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1150 (Cild I); 2024, № 9, maddə 1104) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. 1.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.12. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş hallarda peşə hazırlığına cəlb olunmuş və müvafiq kursları müvəffəqiyyətlə bitirmiş şəxslərə Agentlik tərəfindən müvafiq sənəd təqdim olunur.";

31.2. 2.1.3-cü yarımbənddə "Məşğulluq" altsistemi (bundan sonra - MAS)" sözləri "Əmək və məşğulluq" altsistemi (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

31.3. 2.2-ci bənddə "MAS-da" sözləri "ƏMAS-da" sözləri ilə əvəz edilsin və həmin bəndə "işləmək qabiliyyətini itirdikdə" sözlərindən sonra ", həmin peşə (ixtisas) üzrə iş tapmaq mümkün olmadıqda və ya həmin peşə (ixtisas) üzrə bacarıqların artırılması zərurəti olduqda" sözləri əlavə edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

32.1. 1.1-ci bəndə "Nazirliyinin" sözündən sonra "(bundan sonra - Nazirlik)" sözləri və "qurumlarında" sözündən sonra "(bundan sonra - Agentliyin yerli qurumları)" sözləri əlavə edilsin;

32.2. 2.1-ci bəndə "işaxtaran" sözündən sonra "və ya işsiz" sözləri əlavə edilsin və həmin bənddə "Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin (bundan sonra - MEİS) "Məşğulluq" altsistemində (bundan sonra - MAS)" sözləri "Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

32.3. 2.2-ci, 4.1-ci və 4.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. Şəxs ərizə ilə müraciət etdiyi gün Agentliyin yerli qurumları və ya Mərkəz onun işsiz kimi qeydiyyata alınmasını istisna edən hal (Qanunun 5.12-ci maddəsində nəzərdə tutulmuş hallar) müəyyən etmədikdə işsiz, əks halda işaxtaran (Qanunun 5.8-ci maddəsində nəzərdə tutulmuş hallar, habelə 15 yaşına çatmayanlar istisna olmaqla) kimi qeydiyyata alınması haqqında qərar qəbul edir, bu barədə məlumat ƏMAS tərəfindən işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirilir və mobil nömrəsinə göndərilir.";

"4.1. Agentliyin yerli qurumları və ya Mərkəz vakansiya bankından münasib iş təklifini seçərək, işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirir.";

"4.3. İşaxtaran və işsiz şəxs tərəfindən qəbul edilmiş münasib iş təklifi əsasında Agentliyin yerli qurumlarının və ya Mərkəzin səlahiyyətli şəxsi tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilmiş vakansiyaya göndəriş və fərdi məşğulluq vərəqindən çıxarış ƏMAS tərəfindən elektron qaydada işəgötürənə göndərilir və işaxtaran və işsiz şəxsin elektron kabinetində yerləşdirilir.";

32.4. 2.3-cü və 2.5-ci bəndlər ləğv edilsin;

32.5. 2.4-cü bəndin birinci cümləsində "işaxtaranın" sözü "şəxsin" sözü ilə, "MAS" akronimi "ƏMAS" akronimi ilə və ikinci cümləsində "İşaxtaranın" sözü "Şəxsin" sözü ilə əvəz edilsin;

32.6. 3.1-ci bəndə "işaxtaran" sözündən sonra "və işsiz" sözləri əlavə edilsin və həmin bənddə "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin;

32.7. 3.4-cü, 3.7-ci və 4.4-cü bəndlərdə ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

32.8. 4.2-ci bəndin birinci cümləsinə "İşaxtaran" sözündən sonra "və işsiz şəxs" sözləri əlavə edilsin, həmin cümlədə "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin, ikinci cümləsinə "işaxtaran" sözündən sonra "və işsiz şəxs" sözləri əlavə edilsin, üçüncü cümləsinə "səbəblər" sözündən sonra "Agentliyin yerli qurumları və ya" sözləri əlavə edilsin, həmin cümlədə "işaxtarana" sözü "işaxtaran və işsiz şəxsə" sözləri ilə əvəz edilsin və beşinci cümləsindən "mərkəz tərəfindən" sözləri çıxarılsın;

32.9. 4.5-ci bənddən "Mərkəzin" sözü çıxarılsın, həmin bənddə "təqdim etdiyi göndərişə əsasən işaxtaranın" sözləri "təqdim edilən göndərişə əsasən işaxtaran və işsiz şəxsin" sözləri ilə, "MAS-a" sözləri "ƏMAS-a" sözləri ilə əvəz edilsin və həmin bəndə "gücləndirilmiş" sözündən əvvəl "təkmil sertifikatlı" sözləri əlavə edilsin;

32.10. 4.6-cı bənddə "İşaxtaranın işə qəbulu onunla əmək müqaviləsinin bağlanılmasına dair bildirişin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemində qeydiyyata alınması ilə" sözləri "İşaxtaran və işsiz şəxsin işə qəbulu Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq əmək müqaviləsi ƏMAS-da elektron sənəd formasında" sözləri ilə əvəz edilsin;

32.11. 5.1-ci bəndə "Mərkəz" sözündən əvvəl "Agentliyin yerli qurumları və ya" sözləri əlavə edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 349 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1456 (Cild I) ilə təsdiq edilmiş "İşədüzəlmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin reyestrinin aparılması qaydası və həmin hüquqi şəxslərə dair tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

33.1. 1.3-cü bənddə "Elektron İnformasiya Sisteminin "Məşğulluq" altsistemində (bundan sonra - MAS)" sözləri "elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

33.2. 2.3-cü bənddə "MAS-da" sözləri "ƏMAS-da" sözləri ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 8 avqust tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1457 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Məşğulluq sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.2.7-ci yarımbəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 2.2.8-ci yarımbənd ləğv edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 411 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1565 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Yeni iş yeri və ya boşalan iş yeri barədə məlumatların elektron informasiya sisteminə daxil edilməsi Qaydası və Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

35.1. 1.1-ci bənddə "Elektron İnformasiya Sisteminin (bundan sonra - MEİS) "Məşğulluq" altsisteminə (bundan sonra - MAS)" sözləri "elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Əmək və məşğulluq" altsisteminə (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

35.2. 2-ci hissə üzrə:

35.2.1. adında, 2.1-ci, 2.4-cü və 2.5-ci bəndlərdə ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

35.2.2. 2.2-ci bənddə "MAS" akronimi "ƏMAS" akronimi ilə, "əmək müqaviləsi bildirişi və vakansiya bankının məlumatları" sözləri "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq həmin sistemə daxil etdikləri ştat vahidləri" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 412 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1566 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Əmək birjalarının və əmək yarmarkalarının təşkili və fəaliyyəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

36.1. 1.3.1-ci yarımbəndə "Nazirliyinin" sözündən sonra "(bundan sonra - Nazirlik)" sözləri əlavə edilsin;

36.2. 3.4-cü bənddə "MAS-da" sözləri "Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

36.3. 4.2-ci bəndin ikinci cümləsində və 4.3-cü bəndin birinci və ikinci cümlələrində ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 sentyabr tarixli 413 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1567 (Cild I) ilə təsdiq edilmiş "İş yerində təcrübə müqaviləsinin Nümunəvi Forması"nın 3.3.10-cu yarımbəndində "onunla bağlı qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını" sözləri "əmək müqaviləsini, habelə əmək münasibətlərinə (iş yeri, əməkhaqqı və s.) dair arayışları" sözləri ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 19 sentyabr tarixli 415 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1569 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Məşğul şəxslər barədə məlumatların əldə olunması, reyestrə daxil edilməsi, reyestrin aparılması və ondan istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

38.1. 2.1.1-ci yarımbəndin birinci abzasında "Elektron İnformasiya Sisteminin" sözləri "elektron informasiya sisteminin" sözləri ilə əvəz edilsin;

38.2. 2.1.2-ci yarımbəndə "sahibkarlar," sözündən sonra "sərbəst mediatorlar, vəkillər" sözləri əlavə edilsin;

38.3. 2.1.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.7-ci yarımbənd əlavə edilsin:

"2.1.7. xüsusi notariuslar barədə - notariusun Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Elektron notariat" informasiya sistemindəki şəxsi elektron kabinetində yerləşdirilmiş məlumatlar əsasında.".

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1857 (Cild I) ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"in 1.13-cü bəndinə "müəllif müqaviləsinin" sözlərindən sonra "surəti" sözü əlavə edilsin və həmin bənddə "bağlanılmış əmək müqaviləsinin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində bağlanılmış əmək müqaviləsi, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda isə müəlliflərlə işəgötürən arasında bağlanılmış əmək müqaviləsinin surəti" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 457 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1877 (Cild I); 2024, № 4, maddə 441, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin ixtisas attestatının forması və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi, eləcə də ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

40.1. 3.2.4-cü yarımbənddə "bağlanılmış əmək müqaviləsinin təsdiq edilmiş surəti" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

40.2. 3.2.6-cı yarımbəndə "işçinin" sözündən əvvəl "ƏMAS-dan əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri əlavə edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I); 2024, № 3, maddə 314, № 9, maddə 1104) ilə təsdiq edilmiş "Sosial müəssisələrin Standartları"nın 3.2.1-ci yarımbəndində "yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər," sözləri "1 və ya daha çox uşağını təkbaşına böyüdən, 5 və daha artıq uşağı olan, habelə" sözləri ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 639 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Özünüməşğulluğun təşkili Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

42.1. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. təcrübəsinin, peşəsinin (ixtisasının), məşğulluq tarixçəsinin, maddi rifahının, habelə şəraitinin özünüməşğulluğa cəlb edilməyə uyğunluğunun müəyyən edilməsi məqsədilə ilkin monitorinqin həyata keçirilməsi;";

42.2. 3.1-ci bənddə "Elektron İnformasiya Sisteminin (MEİS) "Məşğulluq" altsistemində (bundan sonra - MAS)" sözləri "elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

42.3. 5.2-ci bənddə və 8.1-ci bəndin ikinci cümləsində ismin müvafiq hallarında "MAS" akronimi ismin müvafiq hallarında "ƏMAS" akronimi ilə əvəz edilsin;

42.4. 8.3-cü bəndə "istifadə etmədiyi" sözlərindən sonra ", özgəninkiləşdirdiyi, digər şəxsin istifadəsinə verdiyi" sözləri əlavə edilsin;

42.5. 8.4-cü bənddə "1 (bir) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli 244 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 974 (Cild I) ilə təsdiq edilmiş "Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maliyyələşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

43.1. 1.3-cü bənddə "2 (iki) ildən" sözləri "6 (altı) aydan" sözləri ilə, "3 (üç) aydan az və" sözləri "əmək müqaviləsinin müddətinin yarısı qədər, lakin" sözləri ilə əvəz edilsin;

43.2. 1.6-cı bənddə "1 (bir)" sözləri "bir" sözü ilə və "10 (on)" sözləri "30 (otuz)" sözləri ilə əvəz edilsin;

43.3. 1.7-ci bənddə "əlilliyi olan şəxslərə, şəhid ailəsinin üzvlərinə, gənclərə, cəzaçəkmə yerlərindən azad edilmiş şəxslərə və 1 (bir) ildən artıq işsiz kimi qeydiyyatda olan" sözləri "sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən" sözləri ilə əvəz edilsin;

43.4. 2.2-ci bənddə "Məşğulluq" altsistemində" sözləri "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS)" sözləri ilə əvəz edilsin;

43.5. 2.6-cı bənddə "onunla əmək müqaviləsinin bağlanılmasına dair bildirişin MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemində qeydiyyata alınması ilə" sözləri "Azərbaycan Respublikası Əmək Məcəlləsinin 49-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq əmək müqaviləsi ƏMAS-da elektron sənəd formasında bağlanıldıqda" sözləri ilə əvəz edilsin;

43.6. 3.2-ci bənddə "MEİS-in "Əmək müqaviləsi bildirişi" altsistemi" sözləri "ƏMAS" akronimi ilə əvəz edilsin;

43.7. həmin Qaydaya 2 nömrəli əlavə - "Sosial iş yerləri üzrə əməkhaqqının maliyyələşdirilməsinə dair müqavilə" üzrə:

43.7.1. 2.1.1.1-ci yarımbənddə "Məşğulluq" sözü "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin;

43.7.2. 2.1.1.2-ci yarımbənddə "Əmək müqaviləsi bildirişi" sözləri "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin;

43.7.3. 2.2.2.1-ci yarımbənddə "2 (iki) il" sözləri "6 (altı) ay" sözləri ilə əvəz edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 268 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 998 (Cild I); 2024, № 3, maddə 331, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş təsnifatının aparılması üzrə ekspertlərə ixtisas attestatının verilməsi, attestatın qüvvədəolma müddətinin dayandırılması və ya ona xitam verilməsi, ekspertlərin və ekspert təşkilatlarının reyestrinin aparılması və onların fəaliyyətinə nəzarət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

44.1. 2.6.4-cü yarımbənddən "bağlanılmış əmək müqaviləsinə dair" sözləri çıxarılsın və həmin yarımbənddə "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

44.2. 2.6.6-cı yarımbənddə "ixtisas üzrə iş stajını təsdiq edən" sözləri "ƏMAS-dan işçinin əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 5 avqust tarixli 279 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1097 (Cild I); 2024, № 3, maddələr 330, 353, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsi və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsi Qaydası"nın 4.4.6-cı yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"4.4.6. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;".

46. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın 5.1.12-ci yarımbəndindən "bildirişi" sözü çıxarılsın.

47. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I); 2024, № 3, maddə 305) ilə təsdiq edilmiş "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

47.1. 2.3.4-cü yarımbənddən "bağlanılmış əmək müqaviləsinə dair" sözləri çıxarılsın və həmin yarımbənddə "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" altsistemindən çıxarış" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) bağlanılmış əmək müqaviləsi" sözləri ilə əvəz edilsin;

47.2. 2.3.7-ci yarımbənddə "müvafiq ixtisas üzrə iş stajını təsdiq edən" sözləri "ƏMAS-dan işçinin əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə" sözləri ilə əvəz edilsin.

48. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 3 may tarixli 243 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 581) ilə təsdiq edilmiş "Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası"nın 2.1.5-ci yarımbəndində "mərkəzləşdirilmiş elektron informasiya sisteminin "əmək müqaviləsi bildirişi" sözləri "Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" sözləri ilə əvəz edilsin.

49. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 iyul tarixli 328 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 889) ilə təsdiq edilmiş "Dəmiryol nəqliyyatı vasitələrini idarə etmək hüququnun verilməsi üçün ixtisas imtahanının təşkili və keçirilməsi Qaydası"nın 2.5.4-cü yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.5.4. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;".

50. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 iyul tarixli 344 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 905) ilə təsdiq edilmiş "Dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu Qaydası"nın 2.9.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.9.2. ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının notariat qaydasında və ya işəgötürən tərəfindən təsdiq edilmiş surəti;".

51. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

51.1. 4.1.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.1.2. MEİS-in "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarış, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasının surəti;";

51.2. 8.2.1.3-cü yarımbənddən "bildirişi" sözü çıxarılsın.

52. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 oktyabr tarixli 446 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 10, maddə 1158) ilə təsdiq edilmiş "Vergi orqanlarının vəzifəli şəxslərinin xidmət illərinin hesablanması Qaydası"nın 3.1-ci bəndində aşağıdakı dəyişikliklər edilsin:

52.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Xidmət illəri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək və məşğulluq" altsistemindən əmək müqavilələrinə dair çıxarışa, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda, eləcə də 2014-cü il iyulun 1-dək xitam verilmiş əmək müqavilələrinə münasibətdə isə əmək kitabçasına əsasən müəyyən edilir.";

52.2. ikinci cümlədə "Əmək kitabçası" sözləri "Qeyd edilən sənədlər" sözləri ilə və "onda" sözü "onlarda" sözü ilə əvəz edilsin.

53. "Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı Qaydalar"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 183 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 738 (Cild I); 2024, № 2, maddə 214) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Beynəlxalq əməkdaşlıqda Azərbaycan təşəbbüskarlığı

# Ölkəmizin qlobal dialoqa növbəti töhfəsi:

## *BMT-nin antikorrupsiya təşəbbüsləri Bakının evsahibliyində*

**Uzun illərdən bəri dünya ölkələri arasında əlaqələr inkişaf etdikcə qəbul edilmiş konvensiya və digər sənədlərlə hüququn universal prinsiplərinin tətbiqi qlobal sabitliyə xidmət etməklə yanaşı, ümumbəşəri humanist dəyərləri əhəmiyyətli dərəcədə qoruma altına almışdır.**

**Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt, Müharibə qurbanlarının müdafiəsi haqqında konvensiyalar və digər bu kimi sazişlər yalnız beynəlxalq əlaqələr sistemini nizama salmamış, müxtəlif ölkələr tərəfindən tətbiq edilən hüquq üçün vahid mümkünlük meyarları formalaşdırmışdır.**



Dünya birliyinin bu mütərəqqi təşəbbüslərinə daim xüsusi etina ilə yanaşan Azərbaycan Respublikası beynəlxalq hüququn etibarlı subyekti kimi üzərinə götürdüyü öhdəliklərin yüksəksəviyyəli icrasını təmin etmiş, milli qanunvericilik çərçivəsini bu standartlarla ahəngdar məzmunda müəyyənləşdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin diqqət yetirdiyi ən ümdə məsələlərdən biri kimi əsası qoyulmuş beynəlxalq aləmə inteqrasiya prosesində təşəbbüskarlıq və intensivlik meyilləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərlik etdiyi hazırkı dövrdə daha da artmışdır.

2011-ci ildə müxtəlif ölkələrin 110-dan artıq ictimai xadiminin üzvü olduğu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təsis edilməsi və həmin təşkilat tərəfindən mütəmadi keçirilən Qlobal Bakı Forumunun səmərəli fəaliyyəti, cari ildə sosial bərabərsizlik və iqlim dəyişmələri kimi problemlərə qarşı 100-dən artıq ölkənin nüfuzlu qeyri-hökumət təşkilatının, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə Qlobal Cənub QHT Platformasının təsis edilməsi və digər bu kimi aparıcı təşəbbüslərlə ölkəmiz bu sahədə mühüm plasdarm kimi tanınmaqdadır.

Çağdaş Azərbaycan tarixi boyunca əldə edilən çoxsaylı nailiyyətlərin davamı olaraq təkcə ötən 2024-cü il ərzində Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasının 3-cü komitəsi tərəfindən 15 noyabr 2024-cü il tarixli "İtkin düşmüş şəxslər" adlı qətnamənin qəbul edilməsi, dənizaşırı ərazilərdə müstəmləkəçilik fəaliyyətinə qarşı mübarizə və fundamental insan haqları sırasına daxil olan qayıdış hüququnun təşviqi üzrə beynəlxalq təsisatlarla işin uğurla davam etdirilməsi kimi təşəbbüskarlıq nümunələri ölkəmizin hamılıqla tanınan ali dəyərlərə sadiqliyi ilə yanaşı, bu prinsiplərin fəal təəssübkeşi olmasının aydın təzahürüdür.

Bu sistemli fəaliyyətin məntiqi nəticəsi kimi 2024-cü ildə daha bir mötəbər tədbir - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası Tərəf Dövlətlərin yekdil qərarı ilə (COP29) məhz ölkəmizdə keçirilmiş, paytaxt Bakı iqlim dəyişmələri üzrə qlobal problemlərin müzakirəsi üçün inklüziv mühit rolunu oynamaqla yanaşı, bəşəriyyətin işıqlı gələcəyi naminə rasional həllərin təqdim edildiyi tarixi anlara şahidlik etmişdir.

Qayəsində tərəqqi yönümlü məqsədlər duran bu beynəlxalq kursun arealı dövlət başçısının xüsusi diqqəti və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ardıcıl təşəbbüslərindən qaynaqlanan müntəzəm fəaliyyət sayəsində yalnız ictimai-siyasi sahəni deyil, sosial, iqtisadi, mədəni və digər mühüm istiqamətləri də əhatə etmişdir.

Beynəlxalq sferada mühüm əməkdaşlıq istiqamətlərindən biri də cinayətkarlığın transmilli təzahürlərinin artmaqda olduğu müasir dövrdə məhz bu sahədə xarici tərəfdaşlarla effektiv və səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasından ibarətdir.

### Transmilli cinayətkarlığa qarşı mübarizədə Azərbaycan Respublikası Prokurorluğunun beynəlxalq təşəbbüsləri

Qeyd edilən mütərəqqi dövlət kursunun məntiqi davamı kimi Azərbaycan Respublikasının Prokurorluğu da cinayətkarlığın ölkə hüdudlarından kənar təhdidlərinə qarşı qanunvericilik çərçivəsində effektiv strategiya formalaşdırmışdır ki, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi onun ən önəmli komponentlərindəndir.

Belə ki, qanunla müəyyən edilmiş hallarda cinayət işinin başlanması və ibtidai istintaqın aparılmasından başlayaraq, ibtidai istintaq prosesual rəhbərlik, əməliyyat-axtarış və təhqiqat fəaliyyətinin qanuniliyinə nəzarət, məhkəmələrdə mülki və kommersiya iddialarının qaldırılması, dövlət ittihamının müdafiəsi, məhkəmə qərarlarından protestlərin verilməsi, eləcə də məhkəmə cəzalarının icrasında iştirak edilməsinədək bir sıra funksiyalar prokurorluğun fəaliyyət istiqamətləri sırasındadır.

Transmilli xarakterə malik cinayətkarlığa qarşı mübarizə, bu funksiyaların işləkliyi məhz beynəlxalq əməkdaşlığın effektivliyindən asılıdır. Təsadüfi deyildir ki, prokurorluq orqanlarının xarici ölkələrin hüquq-mühafizə orqanları və beynəlxalq təşkilatlarla yaratmış olduğu səmərəli əməkdaşlıq əlaqələri qarşılıqlı hüquqi yardım və ekstradisiya



məsələlərinin müsbət həllinə də öz töhfəsini verməkdədir.

Hazırda qurum tərəfindən 30-dan artıq ölkə, habelə bir çox beynəlxalq və regional təşkilatlarla imzalanmış ikitərəfli və çoxtərəfli saziş, əməkdaşlıq proqramı və anlaşma memorandumlarının icrası çərçivəsində cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sorğularının daha operativ həllinə nail olunmuş, eləcə də xarici tərəfdaşlarla birgə keçirilmiş çoxsaylı təlim və seminarlarla müsbət təcrübə mübadiləsi həyata keçirilmişdir.

Formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin məntiqi nəticəsi kimi göstərmək olar ki, təkcə 2024-cü ildə xarici dövlətlərə hüquqi yardım haqqında göndərilmiş 100-dən artıq sorğu, 50-yə yaxın ekstradisiya sorğusu icra edilmişdir.

Ümumilikdə ötən illər ərzində görülmüş işlərin nəticəsi kimi Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə Tədbirlərinin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-korrupsiya Şəbəkəsi də daxil olmaqla, bir sıra beynəlxalq təşkilatların hesabatlarında ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər müsbət dəyərləndirilmişdir.

Aparılan müdrik siyasətin verdiyi töhfələrdən biri kimi, Azərbaycan bir çox siyasi və iqtisadi xarakterli tədbirlərlə yanaşı, cinayətkarlığa qarşı mübarizə sahəsində də qlobal səyləri birləşdirməklə beynəlxalq hüquq ictimaiyyətinin bir araya gəldiyi konsensus məkanı olaraq qalmaqda davam etmişdir.

Bu xüsusda ötən ilin 15 noyabr tarixində Azərbaycan Respublikası Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) həmsədrliyi ilə COP29 sədrliyinin təşəbbüslərindən biri olan "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda 200-dən artıq xarici və ölkədaxili qonaqların iştirakı ilə keçirilmiş yüksəksəviyyəli sessiyada korrupsiya təzahürləri də daxil olmaqla ekoloji cinayətlərə qarşı mübarizənin müxtəlif aspektləri müzakirə edilmişdir.

Bundan başqa, ötən ilin 27 sentyabr - 2 oktyabr tarixlərində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 58-ci iclası, 29-cu İllik Konfransı və Ümumi Yığıncağı Bakıda yüksək peşəkarlıqla keçirilmişdir.

Bu mötəbər tədbirdə 41-i ayrı-ayrı ölkələrin baş prokurorları olmaqla ümumilikdə 500-dən artıq şəxsin iştirakı ilə kibercinayətkarlıq, rəqəmsal dövrdə qanunun aliliyinin təmin edilməsi, cinayət prosesində şahidlərin müdafiəsi və digər məsələlər üzrə ümumi problemlər və yeni yanaşmalar müzakirə edilmişdir.

Müxtəlif plenar sessiyalar, xüsusi maraq sessiyaları, işçi qrup və şəbəkə iclasları, ikitərəfli və çoxtərəfli görüşlər, habelə cinayətkarlığa qarşı mübarizəyə dair əməkdaşlıq sazişlərinin imzalandığı bu konfrans iştirakçılar tərəfindən təşkilatın tarixində ən mötəbər və səmərəli tədbirlərdən biri kimi qiymətləndirilmişdir.

Bundan əlavə, beynəlxalq fəaliyyətimizin əsas istiqamətlərindən olan və ölkəmizin D8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olması ilə daha yüksək müstəviyə qədəm qoymuş ortaq mədəni-mənəvi dəyərləri paylaşdığımız islam ölkələrinin aidiyyəti qurumları ilə də əməkdaşlıq əlaqələri yüksələn templə davam etdirilmişdir.

Belə ki, ötən ilin 26-27 noyabr tarixlərində baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirak etdiyi İƏT-ə üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının ikinci yüksəksəviyyəli görüşündə ölkəmiz İƏT-ə üzv dövlətlərin antikorrupsiya qurum rəhbərlərinin bürosunun sədr müavini seçilmiş, 2026-cı ildə keçiriləcək növbəti sessiya və yüksəksəviyyəli görüşə evsahibliyi Azərbaycana həvalə edilmişdir.

### Korrupsiyaya qarşı mübarizədə yeni qlobal platforma: Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsi (GlobE)

Son onilliklərdə korrupsiyanın transmilli xarakter alması, bu cinayət növünün yalnız bir ölkənin milli hüquq-mühafizə orqanlarının imkanları çərçivəsində effektiv araşdırılmasını getdikcə çətinləşdirmişdir. Məhz bu kontekstdə, dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsi və hüquq-mühafizə orqanları arasında real vaxtda informasiya və təcrübə mübadiləsi zərurəti yaranmışdır.

Bu ehtiyaclara cavab olaraq 3 iyun 2021-ci ildə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi (GlobE Network) yaradılmışdır.

GlobE Şəbəkəsi BMT-nin Korrupsiya Əleyhinə Konvensiyası çərçivəsində üzv dövlətlərin öhdəliklərini icra etmələrinə və effektiv beynəlxalq əməkdaşlıq mexanizmlərinin qurulmasına xidmət edən praktik vasitə rolunu oynamaqdadır. Şəbəkə korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış milli qurumların birbaşa ünsiyyət və əməkdaşlıq mühitində fəaliyyət göstərmələrini təmin edir.

GlobE Şəbəkəsinin əsas məqsədi müxtəlif dövlətlərin müvafiq orqanları arasında əlaqələri sürətləndirmək, informasiya və sübutların mübadiləsini asanlaşdırmaq, çətin keçən hüquqi yardım prosedurlarına alternativlər təqdim etmək və transsərhəd cinayətlərin effektiv istintaqını dəstəkləməkdir.

Qısa müddətdə 126 ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış 235 hüquq-mühafizə qurumunu və müşahidəçi statusa malik 16 beynəlxalq təsisatı bir araya gətirən GlobE öz missiyasını yalnız hüquqi mexanizmlərlə məhdudlaşdırmır. Şəbəkə eyni zamanda müsbət təcrübə mübadiləsi, təlim proqramları və regional əməkdaşlıq təşəbbüslərinin gücləndirilməsi vasitəsilə üzv dövlətlərin institusional dayanıqlılığını da artırır.

Şəbəkənin mənzil-qərargahı BMT-nin Avstriya Respublikasının Vyana şəhərində yerləşən regional ofisində yerləşir.

GlobE-nin ümumi prinsiplərini, hüquq və vəzifələrini müəyyən edən Əsasnaməsi bu təşkilatın 2021-ci ilin 15-17 noyabr tarixlərində Vyana şəhərində keçirilmiş birinci iclasında qəbul edilmişdir.

Şəbəkənin təşkilati strukturu üç qurum və regional bölmələrdən ibarətdir:

a) Plenar; b) İdarəetmə Komitəsi; c) Daimi Katiblik.

Hazırda GlobE Şəbəkəsinin İdarəetmə Komitəsinin üzvləri olan ölkələr sırasına Azərbaycanla yanaşı Səudiyyə Ərəbistanı, Braziliya, Çin, Efiopiya, Qrenada, Hindistan, İtaliya, Nigeriya, Koreya, Rumıniya, Rusiya, Cənubi Afrika, İspaniya və Birləşmiş Ərəb Əmirlikləri daxildir.

Şəbəkəyə üzv dövlətlərin hüquq-mühafizə orqanları 2021-ci ildən bəri hər il plenarlarda toplaşaraq təşkilatın fəaliyyətini istiqamətləndirən qərarlar qəbul edirlər.

Belə ki, şəbəkənin 15-17 noyabr 2021-ci il tarixlərində Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş ilk plenar iclasında GlobE-nin idarəetmə strukturu yaradılmış, nizamnaməsi qəbul edilmişdir.

28-30 iyun 2022-ci il tarixlərində həmin ölkədə keçirilmiş ikinci plenar iclasda təhlükəsiz informasiya mübadiləsi üçün həllər müəyyən edilmiş, şəbəkənin iş planı təsdiqlənmiş, habelə bir sıra beynəlxalq təsisatlar GlobE-yə müşahidəçi qismində qəbul olunmuşdur.

Eyni ildə 15-17 noyabr tarixlərində İspaniya Krallığının Madrid şəhərində təşkil edilmiş üçüncü plenar iclasda antikorrupsiya orqanları arasında məlumat mübadiləsi üzrə qaydalar təsdiqlənmiş, transmilli korrupsiya ilə mübarizədə digər dövlət orqanlarının prosesə cəlb olunması mexanizmi və Qərbi Balkan regionu üzrə GlobE Şəbəkəsinin regional komponentinin yaradılması məsələsi müzakirə olunmaqla qəbul edilmişdir.

Növbəti ilin 11-13 iyul 2023-cü il tarixlərində Avstriya Respublikasının Vyana şəhərində keçirilmiş dördüncü plenar iclasda şəbəkənin institusional inkişafı üçün İdarəetmə Komitəsinə üzvlərin, sədr və sədr müavininin seçimi üzrə qaydalar qəbul edilmiş, yeni beynəlxalq təşkilatların müşahidəçi statusu təsdiq edilmişdir.

Ötən ilin 24-27 sentyabr tarixlərində isə Çin Xalq Respublikasının Pekin şəhərində beşinci plenar iclas keçirilmişdir. Həmin tədbirdə 2025-2027-ci illər üçün Strateji Plan müzakirə olunaraq qəbul edilmiş, İdarəetmə Komitəsinə yeni üzvlər seçilmişdir. Sözügedən plenar iclasda korrupsiyaya qarşı beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə "Pekin Konsensusu" qəbul olunmuşdur ki, həmin sənədin məqsədi korrupsiya cinayətləri törətmiş şəxslərə digər ölkələrdə siyasi sığınacaq verilməsinin qarşısının alınmasına və transmilli cinayətkarlıqla mübarizədə ölkələrarası əməkdaşlığın artırılmasına yönəlmişdir.

Bundan başqa, şəbəkə korrupsiya cinayətlərinin araşdırılmasında effektivliyin təmin edilməsi və qarşılıqlı məlumat mübadiləsinin operativ şəkildə həyata keçirilməsi üçün üzv dövlətlərin hüquq-mühafizə orqanları arasında işi aşağıdakı alət və mexanizmlər vasitəsilə qurur:

*Təhlükəsiz Əlaqə Platforması (SCP)*

Platforma üzvlərə transsərhəd korrupsiya hallarına dair məlumat mübadiləsini təhlükəsiz və sürətli şəkildə həyata keçirməyə imkan verir. Bu mexanizm məlumatların məxfiliyini və bütövlüyünü təmin edən şifrələmə texnologiyası ilə təchiz olunmuşdur.

*Açıq Mənbəli Reyestrlər Kataloqu*

Bu alət müstəntiq və prokurorlara müxtəlif ölkələrin açıq mənbəli qeydiyyat məlumatlarına bir mərkəzdən çıxış imkanı verir. Beləliklə, qarşılıqlı hüquqi yardım tələblərinə ehtiyac olmadan, ictimai məlumatlara əlavə vaxt itirmədən sürətli və effektiv şəkildə çatmaq mümkün olur.

*İşçi Qrupları*

GlobE Şəbəkəsinin fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı tematik işçi qrupları fəaliyyət göstərməkdədir:

- *Əməliyyat İşçi Qrupu: Transsərhəd korrupsiya hallarında əməliyyat əməkdaşlığını gücləndirmək üçün strategiyalar hazırlayır.*
- *"Bir Pəncərə" Mərkəzi İşçi Qrupu: Üzvlərə lazım olan resurslara və dəstəyə asan çıxış təmin etmək üçün vahid platforma üzərində işləyir.*
- *Bilik və Potensialın Artırılması İşçi Qrupu: Üzvlərin bilik və bacarıqlarını artırmaq üçün təlim proqramları və resurslar hazırlayır.*

### Azərbaycan Respublikası ilə GlobE şəbəkəsi arasında əməkdaşlıq

Ölkəmiz təsis edildiyi dövrdən etibarən GlobE Şəbəkəsi ilə sıx əməkdaşlıq etməklə, təşkilatın iclaslarında təmsil olunmuşdur.

Belə ki, şəbəkənin 15-17 noyabr 2021-ci il, 28-30 iyun 2022-ci il, 15-17 noyabr 2022-ci il və 11-13 iyul 2023-cü il tarixlərində baş tutmuş plenar iclaslarında ölkəmiz prokurorluq əməkdaşları tərəfindən fiziki və onlayn formatda təmsil olunmuşdur.

Habelə, prokurorluq əməkdaşları Şəbəkənin İşçi Qruplarına üzv olmaqla sahəvi fəaliyyətlərə töhfə verir, təşkilat tərəfindən təşkil edilən təlim və sessiyalarda yaxından iştirak edirlər.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin beynəlxalq əməkdaşlığın genişləndirilməsinə dair vermiş olduğu tapşırıq və tövsiyələrə uyğun olaraq baş prokuror Kamran Əliyev tərəfindən BMT-nin yüksəkvəzifəli şəxsləri ilə keçirilmiş görüş və digər təmaslarda şəbəkənin 2025-ci ildə keçiriləcək plenar iclasının Bakı şəhərində keçirilməsi təklif edilmiş, bunun üçün ölkəmizin bütün zəruri imkanlara malik olduğu ifadə edilmişdir.

Ötən ilin sentyabr ayında BMT-nin GlobE Şəbəkəsinin Çin Xalq Respublikasının paytaxtı Pekin şəhərində keçirilmiş beşinci plenar iclasında növbəti analoji tədbirin 2025-ci ildə Bakıda keçirilməsi barədə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin təşəbbüsü yekdilliklə dəstəklənərək qəbul edilmiş, habelə ölkəmiz 3 il müddətinə İdarəetmə Komitəsində təmsil olunacaq 15 ölkədən biri olaraq seçilmişdir.

### Şəbəkənin cari ilin 19-23 may 2025-ci il tarixlərində Bakıda keçiriləcək altıncı plenar iclası və İdarəetmə Komitəsinin onuncu görüşü

GlobE Şəbəkəsinin cari ilin 19-23 may 2025-ci il tarixlərində Bakıda keçiriləcək altıncı plenar iclası və İdarəetmə Komitəsinin onuncu görüşünə hazırlıq çərçivəsində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev tərəfindən mənim rəhbərliyimlə prokurorluğun rəhbər vəzifəli şəxslərindən ibarət Yerli Təşkilat Komitəsi yaradılmışdır.

Ötən il Bakıda 200-dən çox xarici nümayəndənin qatıldığı COP29 çərçivəsində "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər edilməsi" mövzusunda olan yüksəksəviyyəli sessiyanın, habelə 500-dən artıq şəxsin iştirakı ilə Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin 58-ci iclasının, 29-cu illik konfransının və ümumi yığıncağının Azərbaycan Respublikası Prokurorluğunun yerli təşkilat komitəsi tərəfindən xüsusi peşəkarlıqla təşkil edilməsi nəzərə alınaraq qeyd edilən müsbət təcrübələr hazırkı tədbirin təşkilində də uğurla tətbiq olunmaqdadır.

Baş prokurorun müəyyən etdiyi istiqamətlər üzrə yerli təşkilat komitəsi tərəfindən görülmüş hazırlıq tədbirləri nəticəsində Bakı tədbiri beynəlxalq arealda geniş şəkildə təbliğ edilmiş, plenar iclasın peşəkar proqramına bir sıra aktual mövzular və çıxışçılar təklif edilməklə töhfələr verilmiş, habelə ikitərəfli və çoxtərəfli görüşlər və paralel tədbirlərin proqramı hazırlanmışdır. Həmçinin xarici qonaqların ölkəmiz haqqında daha çox məlumat əldə edə bilməsi məqsədilə Azərbaycan Respublikasının hüquq sistemi, korrupsiyaya qarşı mübarizə strategiyası, rəqəmsallaşma təşəbbüsləri və digər maraq kəsb edən mövzular üzrə informativ materiallar hazırlanmışdır. Qeyd edilənlərlə yanaşı, görülən hazırlıq işləri sırasına milli tarix və mədəniyyətimizin təbliğinə həsr edilmiş geniş sosial proqram da artıq formalaşdırılmışdır.

Bundan başqa, yerli təşkilat komitəsi tədbir öncəsi Azərbaycana səfər edən GlobE Şəbəkəsinin nümayəndələri ilə hazırlıq prosesinin ayrı-ayrı detallarını müzakirə etmiş, onları plenar iclasın və idarəetmə komitəsinin görüşünün keçiriləcəyi Bakı Konqres Mərkəzi, dövlətimiz adından rəsmi qəbulun keçiriləcəyi Gülüstan sarayı və digər resurslarla yerində tanış etmişlər. Beynəlxalq təşkilatın nümayəndələri səfərlə bağlı yüksək təəssüratlarını bölüşərək qarşıdan gələn tədbirlə bağlı Azərbaycan Prokurorluğu tərəfindən bu vaxtadək görülmüş təşkilati və hazırlıq işlərinə görə minnətdarlığını ifadə etmişlər.

Hazırda təşkilat komitəsi tərəfindən tədbirin müfəssəl iş planına uyğun olaraq GlobE şəbəkəsinin katibliyi və digər aidiyyəti dövlət qurumları ilə səmərəli əməkdaşlıq şəraitində nəqliyyat, kommunikasiya, təhlükəsizlik, qeydiyyat və digər hazırlıq işləri intensiv şəkildə davam etdirilir.

Bakıda keçiriləcək altıncı plenar iclas və idarəetmə komitəsinin onuncu görüşünün rəsmi internet səhifəsi ilə aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür:

https://globenetwork.unodc.org/globenetwork/en/network/sixth-plenary-meeting-of-the-globe-network-may-2025.html

Qeyd edək ki, Bakıda keçiriləcək tədbirdə 92 ölkədən 120-dən artıq dövlət qurumu (21 prokurorluq, 53 müstəqil antikorrupsiya qurumları və digər orqanlar) və 16 beynəlxalq təşkilatdan ümumilikdə 300 nəfərdən artıq nümayəndənin fiziki, 60-dan artıq xarici nümayəndə isə onlayn qaydada iştirak edəcəkdir.

Tədbirdə müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarını təmsil edən 50-yə yaxın rəhbər vəzifəli şəxslər iştirak edəcəklər.

Əsas mövzusu "Korrupsiyaya qarşı mübarizədə yeni texnologiyalar və süni intellektin tətbiqi imkanları" olan plenar iclasda korrupsiya nəticəsində əldə edilmiş vəsaitlərin müsadirəsi, əldə edilmiş aktivlərin birbaşa bərpası, maliyyə əməliyyatlarında şübhəli əməliyyatların dayandırılması, cinayət prosesində bank hesablarının sürətli dondurulması üzrə beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə ictimai maarifləndirmə və digər alt mövzular üzrə panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış nəzərdə tutulur.

Eyni zamanda plenar iclas çərçivəsində Azərbaycan Respublikası Prokurorluğunun təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar, habelə ölkəmizin COP29 sədrliyi ilə bağlı ekoloji hüquqpozmalara qarşı mübarizə ilə bağlı xüsusi sessiya və paralel tədbirlər də keçiriləcəkdir.

Bundan başqa, tədbirdə çoxsaylı ikitərəfli görüşlərin keçirilməsi və qarşılıqlı əməkdaşlığa dair memorandumların imzalanması planlaşdırılır.

Əminliklə qeyd etmək olar ki, hazırkı mötəbər qlobal antikorrupsiya təşəbbüsünə evsahibliyi edən ölkəmiz bu məramı ilə həm cinayətkarlıqla mübarizədə yeni əməkdaşlıq imkanlarına öz dəstəyini çatdırır, həm də beynəlxalq hüquq ailəsinin sadiq üzvü olmasını bir daha təsdiqləyir.

***Heydər MƏMMƏDOV,***
***Azərbaycan Respublikası Baş prokurorunun müavini,***
***II dərəcəli dövlət ədliyyə müşaviri***

# *Ali Attestasiya Komissiyasının sədri:* "Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib"

**Elmi dərəcə və elmi ad verilməsi, kadrların attestasiyası, dissertasiya şuralarının fəaliyyəti, elmi etika və beynəlxalq təcrübə ilə uyğunluq kimi məsələlər Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) əsas fəaliyyət istiqamətlərindəndir. Son dövrlərdə bu sahədə həyata keçirilən islahatlar, yeni qaydalar və rəqəmsallaşma prosesi elmi ictimaiyyətin də diqqətindədir. Bu və digər aktual mövzularla bağlı AZƏRTAC-ın suallarını Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayev cavablandırıb.**



*- Azərbaycanda son illərdə elm sahəsində həyata keçirilən islahatlar və tədqiqat yönümlü ali təhsil modelinə keçid hədəflənir. Bu islahatlar fonunda Ali Attestasiya Komissiyasının fəaliyyətinin elmi sistemin inkişafına verdiyi töhfələr nədən ibarətdir? Sizcə, bu sahədə hansı əsas çağırışlar aktuallığını saxlayır?*

- Son dövrlərdə Ali Attestasiya Komissiyasının fəaliyyəti elmi dərəcə və elmi adların verilməsində həm struktur, həm də məzmun baxımından nəzərəçarpacaq dərəcədə yenilənib. 2019-cu ildən etibarən qəbul edilmiş normativ sənədlər əsasında müdafiə və attestasiya prosedurlarında əsaslı dəyişikliklər aparılıb, elmi seminarların təşkili, müdafiə iclaslarında elektron səsvermə və şəffaflıq prinsipləri tətbiq olunub. Tələb olunan monoqrafiya, dərslik, dərs vəsaitləri və ümumiləşdirici işlərlə bağlı meyarlar təkmilləşdirilib, elmi plagiatla mübarizədə texniki və ekspert əsaslı nəzarət gücləndirilib.

Doğrudur ki, elm sahəsində aparılan islahatlar son illərdə daha sistemli xarakter alıb və bu, çox müsbət haldır. Çünki elmə dair sistemli yenilənmə olmadan ali təhsil sistemində baş verən dəyişikliklər tamamlanmış sayılmaz. Bu baxımdan, komissiyanın rolu əsasən bu islahatların son mərhələsində - yəni elmi dərəcə və elmi adların verilməsi mərhələsində - keyfiyyətin qorunması və təmin edilməsi üzərində qurulub. Məhz bu səbəbdən komissiyanın öz daxilində də struktur və normativ islahatlar həyata keçirilir.

Bununla yanaşı, aydın şəkildə qeyd olunmalıdır ki, elmi fəaliyyətin keyfiyyəti yalnız attestasiya mərhələsində deyil, bütövlükdə elmi kadr hazırlığı prosesində formalaşır. Alim olmaq istəyən şəxslərin tədqiqat vərdişləri və elmi düşüncə tərzi bakalavriat və magistratura səviyyələrindən başlayaraq sistemli şəkildə inkişaf etdirilməlidir. Əgər ali təhsilin ilkin mərhələlərində tələbələrdə tədqiqat bacarıqları, elmi üslubda yazı vərdişləri və elmə maraq aşılanmazsa, daha sonra təqdim olunan dissertasiya işlərində keyfiyyətin təmin edilməsi olduqca çətinləşir. Yəni problemin tam həlli üçün ali təhsilin bütün səviyyələrində elmi mədəniyyətin formalaşdırılması və tədqiqat yönümlü yanaşmanın gücləndirilməsi həlledici rol oynayır.

Öz növbəsində, komissiya fəaliyyətində keyfiyyəti artırmaq və prosedurları sadələşdirmək məqsədilə yaxın gələcəkdə bir sıra islahatlara başlayacaq. Bu islahatların əsas istiqamətlərindən biri sənədlərin qəbulundan ekspertizasına qədər mərhələlərin rəqəmsallaşdırılması və elektron sistem üzərindən idarə olunmasıdır. Eyni zamanda elmi dərəcə və elmi adların verilməsi üzrə prosedurların yüngülləşdirilməsi, o cümlədən dissertasiyaların struktur və həcm baxımından çevikləşdirilməsi, akademik yazı tərzinə dair yeni yanaşmaların tətbiqi nəzərdə tutulur. Komissiya sənəd dövriyyəsinin azaldılması və xarici dil tələblərinin tətbiq mexanizmlərində yeniliklər, eləcə də professor elmi adının verilməsi meyarlarının təkmilləşdirilməsi istiqamətində də dəyişikliklər planlaşdırır. Bu addımlar həm şəffaflığı, həm də funksionallığı artırmaq məqsədi daşıyır.

*- Azərbaycanda doktorantura təhsilinin mövcud vəziyyətini necə qiymətləndirirsiniz? Əsas islahat istiqamətləri hansılar ola bilər?*

- Doktorantura sistemində elmi rəhbərlik, dissertasiya mövzularının təsadüfi və təkrar xarakter daşıması, metodoloji hazırlıqla bağlı müəyyən çatışmazlıqlar mövcuddur.

Doktorantura təhsili elmi kadr hazırlığının əsas mərhələsidir və bu sahədə keyfiyyətin təmin olunması ölkənin intellektual potensialının formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanda bu istiqamətdə mühüm addımlar atılıb, lakin kifayət qədər təkmilləşdirilməli olan məsələlər də mövcuddur.

Əminliklə demək olar ki, doktorantura təhsilində islahatlara ehtiyacın olması bu gün elmi ictimaiyyət tərəfindən də birmənalı şəkildə qəbul olunur. Bunun başlıca səbəbi odur ki, mövcud model əsasən fərdi təşəbbüslər üzərində qurulub, sistemli akademik mühit və dəstəkləyici strukturlar isə məhdud şəkildə fəaliyyət göstərir. Bu da tədqiqat prosesinin keyfiyyətinə, metodoloji hazırlığın səviyyəsinə və nəticələrin tətbiq potensialına birbaşa təsir edir.

Qeyd etmək yerinə düşər ki, beynəlxalq təcrübədə doktorantura təhsili üzrə müxtəlif modellər mövcuddur və onlar arasında ciddi struktur fərqləri var. Məsələn, Avropa ölkələrinin bir çoxunda tətbiq olunan "strukturlu doktorantura modeli" tədqiqat prosesinin əvvəlindən sonunadək sistemli şəkildə təşkil olunmasına yönəlib. Bu modeldə doktorantlar üçün nəzəri-metodoloji hazırlıq kursları, seminarlar, aralıq qiymətləndirmələr və monitorinq mexanizmləri institusional şəkildə qurulur. Tələbənin təkcə elmi işini deyil, ümumi akademik bacarıqlarını da inkişaf etdirməsi nəzərdə tutulur.

Digər tərəfdən, ABŞ modeli daha çox mərhələli yanaşmaya əsaslanır. Bu modeldə doktorantura təhsili magistratura səviyyəsindən sonra 5-7 illik dövrü əhatə edir və ilkin mərhələdə geniş kurs proqramı ilə müşayiət olunur. İmtahan mərhələsini uğurla keçdikdən sonra tələbə dissertasiya mərhələsinə keçir. Burada da təkcə tədqiqat deyil, həm də pedaqoji fəaliyyət, elmi nəşrlər və layihələrdə iştirak vacib komponentlər hesab olunur. Bu yanaşma tədqiqatçının həm akademik, həm də praktiki baxımdan hazırlanmasını təmin edir.

Doktorantura təhsilinin bütün mərhələlərinin məqsədyönlü və ardıcıl şəkildə təşkili vacib olsa da, ən əsas prioritet sayılan nəticə tədqiqatın doktorant tərəfindən elmi üslubda, müvafiq metodoloji çərçivə əsasında və mövcud elmi standartlara uyğun şəkildə hazırlanmasıdır. Bu baxımdan, istənilən struktur modelinin - istər strukturlu Avropa modeli, istərsə də mərhələli Amerika modeli - seçilməsi ikinci dərəcəlidir. Əsas məsələ odur ki, seçilən model həmin elmi keyfiyyəti, akademik dürüstlüyü və tədqiqatın standartlara uyğunluğunu təmin edə bilsin. Komissiyanın funksiyası da məhz bu keyfiyyət meyarlarının qorunmasına nəzarət etməkdir.

*- Elmi dərəcələrin verilməsi prosesində elmi müəssisə və təşkilatlarda, eləcə də ali təhsil müəssisələrində fəaliyyət göstərən dissertasiya şuralarının fəaliyyəti, müdafiə prosedurlarının ləng və çoxpilləli olması, etik standartlar, qeyri-şəffaf yanaşmalar və subyektivlik ilə bağlı iddialar var. Mövcud müdafiə mexanizmlərində hansı sistem problemləri var və bu sahədə nə kimi dəyişikliklər planlaşdırılır?*

- Dissertasiya müdafiə mexanizmləri ilə bağlı müzakirələrin aktuallığı həm Komissiyanın müşahidələri, həm də elmi ictimaiyyətin müzakirələri fonunda başadüşüləndir. Ölkəmizdə hazırda tətbiq olunan müdafiə sistemi tarixi olaraq formalaşmış hibrid bir modeldir - burada həm klassik sovet modelinin elementləri, həm də müasir keyfiyyət meyarları paralel şəkildə mövcuddur.

Vacib bir məsələ ondan ibarətdir ki, dissertasiya şuralarının yaradılması, şura tərkibi və müdafiə iştirakçılarının müəyyən olunması komissiya tərəfindən deyil, elmi müəssisə və ali təhsil müəssisələri tərəfindən təqdim olunan vəsatətlər əsasında həyata keçirilir. Komissiyanın rolu burada prosedur uyğunluğuna və normativ tələblərə riayət olunmasına nəzarətlə məhdudlaşır.

Bununla belə, müdafiə mərhələsində müəyyən sistem problemləri davam etməkdədir. Bura sənədlərin tamlığı ilə bağlı çatışmazlıqlar, elmi seminar və şura iclaslarında texniki və metodoloji tələblərin tam yerinə yetirilməməsi, opponent seçiminin keyfiyyət meyarlarına tam uyğun gəlməməsi və bəzən prosesin formal xarakter daşıması kimi hallar daxildir. Bu səbəbdən bəzi dissertasiyalar ilkin mərhələdə müsbət rəy alsa da, attestasiya zamanı ciddi elmi və etik pozuntulara görə elmi dərəcə verilməsindən imtinaya səbəb olur. Komissiyanın mövqeyi burada aydındır - biz yalnız nəticəyə deyil, həmin nəticəyə gətirən elmi və prosedur yolun keyfiyyətinə də ciddi yanaşırıq.

Son illərdə bu sahədə daha şəffaf və keyfiyyətə əsaslanan mühitin formalaşdırılması məqsədilə bir sıra mühüm addımlar atılıb. Belə ki, müdafiələrin yekun mərhələsində elektron səsvermə tətbiq edilib, "aparıcı təşkilat" ləğv olunaraq rəsmi opponentlərin sayı artırılıb. Həmçinin xarici dil və ixtisas imtahanlarının keçirilməsində daha çevik və beynəlxalq standartlara uyğun mexanizmlər tətbiq olunub, B2 səviyyəsində dil sertifikatlarının tanınması təmin edilib. Elmi seminarların ixtisas üzrə ayrıca təşkili təmin olunub, dissertasiyaların ingilis dilində hazırlanması və müdafiəsi üçün hüquqi və təşkilati imkanlar yaradılıb. Plagiatla mübarizə isə yalnız texniki vasitələrlə deyil, alternativ ekspertiza əsaslı yanaşmalarla gücləndirilib.

Komissiyanın əsas məqsədi müdafiə prosedurlarını sadəcə texniki baxımdan deyil, mahiyyət etibarilə də gücləndirməkdir. Yəni məqsəd təkcə sənədlərin düzgünlüyünə nəzarət deyil, təqdim olunan dissertasiyanın elmi keyfiyyətini, metodoloji əsaslarını və aktuallığını da sistemli şəkildə qiymətləndirməkdir. Bəzən iddiaçılar dissertasiya şuralarından keçmiş işlərinə komissiya səviyyəsində irad bildirilməsini qeyri-obyektivlik kimi qiymətləndirirlər. Əslində, bu yanaşma sistemin keyfiyyət filtri kimi son mərhələdə komissiyanın məsuliyyətli və ciddi şəkildə işləməsinin göstəricisidir.

*- Fəlsəfə doktorluğu elmi dərəcəsinin verilməsində mövcud vəziyyət necədir? Prosedurlarda edilən dəyişikliklərin effektivliyi, elmi keyfiyyətin və ədalətli qiymətləndirmənin təmin olunmasına təsiri nə dərəcədə təmin olunub və gələcəkdə daha hansı addımlar nəzərdə tutulur?*

- Son illərdə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi sahəsində bir sıra sistemli dəyişikliklər həyata keçirilib. Bu dəyişikliklərin əsas məqsədi həm prosedurların sadələşdirilməsi, həm də elmi keyfiyyətin və ədalətli qiymətləndirmənin təmin olunması olub. Mövcud vəziyyəti real və obyektiv şəkildə qiymətləndirmək üçün ilk növbədə nəzərə almalıyıq ki, elmi dərəcə təkcə formallıq deyil, tədqiqatın keyfiyyəti və elmi dürüstlüyün göstəricisidir.

İmtahan sistemində də ciddi dəyişikliklər baş verib. Xarici dil imtahanı artıq Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilir və beynəlxalq sertifikatlara malik olan şəxslər bu mərhələdən azad olunurlar. Bu, obyektivliyin artırılması baxımından önəmlidir.

Elmi nəşrlərə dair tələblər də beynəlxalq standartlara uyğunlaşdırılıb. Artıq fəlsəfə doktoru dərəcəsinə iddia edən şəxslər elmi məqalələrini müəyyən olunmuş xülasələndirmə və indeksləmə bazalarına daxil olan jurnallarda dərc etdirməlidirlər. Bu tələbin tətbiqi nəticəsində Azərbaycan alimlərinin beynəlxalq elmi bazalardakı aktivliyində nəzərəçarpacaq artım müşahidə olunur.

Məsələn, Nazirlər Kabinetinin 2024-cü il üzrə fəaliyyət hesabatında da qeyd olunduğu kimi, 2024-cü ildə "Scopus" bazasında Azərbaycan alimləri tərəfindən dərc olunan elmi nəşrlərin sayı əvvəlki illə müqayisədə təxminən 40 faiz artaraq 4000-ə çatıb (2023-cü ildə bu göstərici 2816 idi). Eyni zamanda "Web of Science" bazasında indekslənmiş nəşrlərin sayı 52,9 faiz artaraq 1885-dən 2882-yə yüksəlib. Bu dinamika göstərir ki, elmi keyfiyyətə yönəlmiş prosedur dəyişiklikləri real nəticələr doğurur və alimlərimizin elmi nəticələrinin qlobal elmi məkana inteqrasiyasını sürətləndirir.

Onu da qeyd edim ki, komissiya fəlsəfə doktorlarının statusunun artması istiqamətində də müəyyən addımlar atıb. Belə ki, yeni qaydalara görə, fəlsəfə doktorları həlledici səslə bütün dissertasiya müdafiələri ilə bağlı iclaslarda (ilkin müzakirə, seminar və bilavasitə müdafiədə), komissiyanın ekspert şuralarının tərkibində ekspert qismində işə cəlb edilirlər. Bundan başqa, fəlsəfə doktorlarına 2 nəfər doktoranta elmi rəhbərlik üçün heç bir icazə tələb olunmur. Əvvəllər bunun üçün komissiyadan xüsusi icazə almaq lazım olurdu.

Lakin etiraf etməliyik ki, tətbiq olunan dəyişikliklər təkcə mükəmməl prosedur deyil, eyni zamanda, məsuliyyətli akademik mədəniyyət tələb edir. Bəzi hallarda müdafiə mərhələsindən uğurla keçmiş dissertasiya işlərində, attestasiya mərhələsində ciddi elmi, etik və metodoloji pozuntular aşkarlanır. Belə ki, 2019-2024-cü illərdə 1985 şəxsə fəlsəfə doktoru elmi dərəcəsi verilib, 791 şəxsə fəlsəfə doktoru elmi dərəcəsi verilməsindən imtina edilib. Bu da onu göstərir ki, islahatlar yalnız qayda dəyişiklikləri ilə məhdudlaşmamalı, elmi mədəniyyətin və etik davranışın da sistemli şəkildə təşviqinə yönəlməlidir.

*- Müasir beynəlxalq təcrübədə doktorantura təhsili, əsasən, PhD dərəcəsi ilə məhdudlaşır. Lakin Azərbaycanda elmlər doktoru mərhələsi ayrıca elmi pillə kimi saxlanılır. Bu modelin davam etdirilməsi elmi keyfiyyətin artırılması baxımından müdafiə olunsa da, bəzi ekspertlər onun funksional səmərəliliyini və beynəlxalq uyğunluğunu sual altına alırlar. Elmlər doktoru dərəcəsinin saxlanması ilə bağlı mövqeyiniz nədir və bu sistemin transformasiyası gündəmdə varmı? Sizcə, elmlər doktoru dərəcəsinin ayrı mərhələ kimi saxlanılması indiki mərhələdə zərurətə uyğundurmu, yoxsa bu sistemin beynəlxalq modellərə uyğun təkpilləli strukturla əvəzlənməsi məqsədəuyğundur?*

- Elmlər doktoru elmi dərəcəsi ölkəmizdə uzun illərdir ki, akademik sistemin tərkib hissəsidir. Bu dərəcə təkcə doktorantura pilləsinin davamı deyil, həm də müstəqil və fundamental elmi tədqiqatların nəticəsi kimi nəzərdə tutulub. Bununla yanaşı, qeyd etməliyik ki, bu model hazırda yalnız Azərbaycanda deyil, bir sıra Avropa və MDB ölkələrində də tətbiq olunmağa davam edir.

Biz bu məsələyə radikal deyil, mərhələli və məsuliyyətli yanaşmanın tərəfdarıyıq. Elmlər doktoru dərəcəsinin ləğvi və ya təkpilləli sistemə keçid yalnız normativ sənəd dəyişikliyi ilə həll edilə biləcək məsələ deyil. Bu həm də institusional mexanizmlərin, elmi tədqiqat infrastrukturunun və akademik mühitin hazır olması ilə bağlıdır.

İlk növbədə onu qeyd etməliyik ki, elmlər doktoru elmi dərəcəsinə yiyələnmək könüllü seçimdir. Bu, hər bir tədqiqatçının öz elmi yolunu necə davam etdirmək istəyinə bağlı qərardır və heç bir məcburiyyət elementi daşımır. Burada, əksinə, bu sistemin olmaması elmlər doktoru olmaq arzusunda olanlar üçün məhdudiyyətlər yarada bilər. Digər tərəfdən, son dövrlərdə vəzifə təyinatları da göstərir ki, hətta ali təhsil və elmi müəssisələrin rəhbər vəzifəliləri üçün də elmlər doktorluğu elmi dərəcəsinin olması şərt deyil. Belə olan halda bu mərhələnin mövcudluğu kimə mane olur?

Lakin bu mərhələ, məzmun baxımından, sırf elmi tutumun sübutuna əsaslanan və yüksək nəticə tələb edən bir elmi pillədir.

Mövcud qaydalara əsasən, elmlər doktoru olmaq istəyən tədqiqatçı müvafiq sahə üzrə ciddi elmi nəticələr ortaya qoymalıdır. Belə ki:

- Humanitar və ictimai elmlər üzrə dissertasiya mövzusuna uyğun azı 15 elmi məqalə, onlardan azı 3-ü beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda dərc olunmalıdır;

- Dəqiq və təbiət elmləri üzrə isə azı 10 elmi məqalə, onlardan azı 5-i beynəlxalq bazalarda yerləşdirilmiş jurnallarda dərc olunmalıdır.

Bu tələblər təsadüfi müəyyən edilməyib. Onların məqsədi - elmlər doktoru dərəcəsini daşıyan şəxsin həqiqətən sistemli, davamlı və əhəmiyyətli tədqiqat nəticələri ortaya qoyduğunu sübut etməkdir.

Statistikaya nəzər salsaq, 2019- 2024-ci illərdə 365 nəfərə elmlər doktoru elmi dərəcəsi verilib. Bu şəxslər ümumilikdə azı 4420 elmi məqalə təqdim ediblər. Onlardan da azı 1521 məqalə beynəlxalq indeksləmə və xülasələndirmə sistemlərinə daxil olan jurnallarda yayımlanıb. Bu rəqəmlər elmlər doktorluğu institutunun ölkə elminə verdiyi konkret və ölçüləbilən töhfəni nümayiş etdirir.

Burada əsas sual budur: bu elmi pillənin ləğvi halında həmin məhsuldarlıq necə qorunacaq və ya əvəzlənəcək? Komissiya olaraq, bu məsələni təkcə formal idarəetmə çərçivəsində deyil, həm də ölkə elminə real təsir və töhfə prizmasından qiymətləndiririk.

*- Dosent elmi adının verilməsi prosedurunun sadələşdirilməsi və müasirləşdirilməsi istiqamətində müzakirələr aparılır. Bu istiqamətdə Komissiyanın planları və yanaşması nədir?*

- Dosent elmi adı elmi-pedaqoji fəaliyyətin mühüm mərhələsi kimi dəyərləndirilir və bu sahədə tətbiq olunan prosedurların həm şəffaf, həm də səmərəli olması Komissiyanın diqqət mərkəzindədir. 2019-2024-cü illərdə 1326 şəxsə dosent elmi adı verilib.

Komissiyanın yanaşması ondan ibarətdir ki, dosent elmi adının verilməsində əsas meyar yalnız formallıq deyil, iddiaçının ixtisası üzrə sistemli elmi fəaliyyəti, elmi rəhbərlik təcrübəsi, metodiki töhfələri və pedaqoji göstəriciləri əsasında qiymətləndirilməlidir. Bu baxımdan, gələcək mərhələdə elmi məqalələrin keyfiyyətinə dair tələblərin sahələr üzrə diferensiallaşdırılması, pedaqoji fəaliyyəti əks etdirən göstəricilərin sənədlə təsdiqi və bəzi texniki mərhələlərin rəqəmsallaşdırılması istiqamətində addımlar nəzərdə tutulur.

Eyni zamanda komissiya nəzərə alır ki, elmi dərəcəsi olmayan, lakin ölkə daxilində ali təhsil, mədəniyyət, memarlıq, hərbi və idman sahələrində uzun müddət qüsursuz fəaliyyət göstərmiş və əhəmiyyətli nəticələr əldə etmiş şəxslər üçün də istisna hallarda elmi ad verilməsi mümkündür. Bu məqsədlə xüsusi qayda və meyarlar müəyyən edilib. Bu yanaşma elmi adların yalnız akademik dərəcə ilə deyil, sahəvi töhfə və tanınmış fəaliyyətlə də əsaslandırıla biləcəyini nəzərə alır.

Əlavə olaraq, beynəlxalq yanaşmalar göstərir ki, bir çox ölkələrdə "dosent" və ya ona ekvivalent statuslara seçim zamanı namizədin elmi nəşrlərinin səviyyəsi, tədris fəaliyyəti, elmi rəhbərlik təcrübəsi və beynəlxalq əməkdaşlıq göstəriciləri əsas meyar kimi götürülür. Bu modelin ölkəmizdə tətbiqi üçün ali təhsil müəssisələrində elmi fəaliyyətin qiymətləndirilməsi üzrə şəffaf və müstəqil daxili mexanizmlərin qurulması, universitetlərin akkreditasiya və keyfiyyət təminatı baxımından bu səlahiyyəti daşıya biləcək səviyyədə institusional potensiala malik olması, elmi rəhbərlik, nəşr keyfiyyəti və pedaqoji fəaliyyətin sənədlərlə əsaslandırıldığı daxili performans sistemlərinin mövcudluğu, plagiat və etik pozuntulara nəzarət üzrə milli mexanizmlərin işləkliyi və normativ-hüquqi bazanın uyğunlaşdırılması vacib şərtlərdir.

*- Professor elmi adının verilməsi üçün mövcud tələblərin elmi fəaliyyətin real göstəricilərini əks etdirmədiyi, formal meyarlarla məhdudlaşdığı barədə elmi ictimaiyyətdə müzakirələr aparılır. Digər tərəfdən, beynəlxalq praktikada bu adda və statusda vəzifələr çox zaman vəzifə təyinatı ilə tənzimlənir, elmi-pedaqoji fəaliyyətin təsdiqlənmiş nəticələrinə əsaslanır. Bu sahədə mövcud vəziyyət və problemlər nədir və daha şəffaf, obyektiv sistem qurmaq üçün hansı islahatlar mümkündür?*

- Professor elmi adının verilməsi mexanizmi Azərbaycanda son illərdə əhəmiyyətli şəkildə təkmilləşdirilib. 2019-2024-cü illərdə 225 nəfərə professor elmi adı verilib. Bu ad yalnız müvafiq elmi dərəcəsi olan və ixtisası üzrə elmi və ya elmi-pedaqoji fəaliyyət göstərən şəxslərə verilir. Tələblər sırasında beynəlxalq indeksli jurnallarda dərc olunmuş məqalələrin sayı, H-indeks göstəricisi, elmi rəhbərlik nəticələri və metodiki fəaliyyətin keyfiyyəti əsas yer tutur.

Bununla belə, elmi ictimaiyyətdə bu sistemin bəzi hallarda fəaliyyətin real elmi-pedaqoji çəkisini tam əks etdirmədiyi, xüsusilə humanitar sahələrdə meyarların uyğunlaşdırılmasının çətinliyi ilə bağlı suallar mövcuddur. Eyni zamanda bəzi iddiaçılar tərəfindən məzmun keyfiyyətindən çox say göstəricilərinə önəm verildiyi müşahidə olunur.

Beynəlxalq təcrübədə professor titulu çox zaman ali təhsil müəssisələrinin daxili qərarları əsasında - yəni vəzifə təyinatı kimi - müəyyən edilir. Bu isə həmin ölkələrdə elmi keyfiyyəti tənzimləyən güclü daxili institutların və akkreditasiya mexanizmlərinin mövcudluğu ilə bağlıdır.

Hazırda Azərbaycanda məqsədimiz sistem daxilində obyektivlik və şəffaflığı daha da gücləndirməkdir. Bu baxımdan, bir sıra əlavə tədbirlər nəzərdən keçirilir. Buraya nəşrlərin keyfiyyətinə dair sahəyə uyğun fərqləndirilmiş yanaşmaların tətbiqi, elmi rəhbərlik və pedaqoji fəaliyyətin sənədlərlə təsdiqlənməsi, universitetlərin daxili qiymətləndirmə nəticələrinin nəzərə alınması və elmi adların verilməsi prosesində izlənə bilən rəqəmsal platformaların istifadəsi daxildir.

Qeyd etmək lazımdır ki, professor elmi adı yalnız elmlər doktoru dərəcəsinə malik şəxslərlə məhdudlaşmır - bu ada fəlsəfə doktoru dərəcəsi ilə də iddia etmək mümkündür. Lakin bu halda meyarlar daha genişdir: iddiaçının dosent elmi adı aldıqdan sonra azı 5 il elmi və ya elmi-pedaqoji fəaliyyətlə qüsursuz məşğul olması, beynəlxalq bazalarda indeksləşən jurnallarda sahəyə uyğun olaraq azı 3 humanitar və ya 7 dəqiq elmlər üzrə məqalə dərc etdirməsi, H-indeks göstəricisinin müvafiq sahə üzrə azı 5 və ya 10 olması, elmi rəhbərliyi ilə azı 2 nəfərin fəlsəfə doktoru dərəcəsi alması və həm dərslik nəşri, həm də beynəlxalq elmi tədbirlərdə iştirakı tələb olunur. Burada siyahısı komissiya tərəfindən müəyyən edilmiş xarici akademik nəşriyyatlarda dərc olunmuş monoqrafiya tələbi də mövcuddur. Bu yanaşma komissiyanın elmi keyfiyyəti əsas meyar kimi qəbul etdiyini və professor adının yalnız dərəcə deyil, nəticə əsasında təqdim edilməsini təmin etdiyini göstərir. Professor elmi adı yalnız şəxsi karyera və nüfuz göstəricisi deyil, eyni zamanda milli elmin keyfiyyətinin simvoludur. Buna görə də bu sahədə tətbiq olunan hər bir qayda həm elmi tutum, həm də ictimai etimad baxımından davamlı və əsaslandırılmış olmalıdır.

*- Dövlət proqramları çərçivəsində və ya fərdi qaydada xaricdə təhsil almış şəxslərin sənədlərinin tanınması məsələsi aktualdır. Xüsusilə də Avropa və MDB ölkələrində doktorantura təhsili almış Azərbaycan vətəndaşlarının elmi dərəcələrinin ölkədə tanınması məsələsi müzakirə olunur. Bəzi hallarda sənədlərin nostrifikasiyası və ya təkrar attestasiyaya yönləndirilməsi elmi ictimaiyyətdə əlavə bürokratik yük və ləngimə kimi qiymətləndirilir. Bu prosedurla bağlı komissiyanın üzləşdiyi hansı çətinliklər var? Hazırda bu sahədə hansı mexanizmlər mövcuddur və onların sadələşdirilməsi üçün hansı dəyişikliklər gözlənilir?*

**Ardı 7-ci səh.**

# Azərbaycandakı tolerantlıq dünyaya örnəkdir

## ABŞ Beynəlxalq Dini Azadlıq Komissiyasının qərəzli fəaliyyəti dini dəyərlərə, beynəlxalq hüquqa hörmətsizlikdir

**Azərbaycanda bu günədək 995 dini qurum dövlət qeydiyyatına alınıb. Konfessional baxımdan onlardan 957-si islam, 38-i isə qeyri-islam (27 - xristian, 8 - yəhudi, 1 - krişna, 2 - bəhai) təmayüllüdür.**

Ölkə ərazisində 2258 məscid mövcuddur. Habelə, respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir.

İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. Ermənistanın işğalı dövründə Qarabağ və Şərqi Zəngəzurdakı 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Bu statistika Azərbaycanda əsrlər boyu formalaşmış tolerantlığın daim var olduğunu, ölkəmizdə bir çox millətlərin və dini konfessiyaların nümayəndələrinin dinc, mehribanlıq və dostluq şəraitində yaşadığını nümayiş etdirir.

Eyni zamanda işğal dövründə Qarabağ və Şərqi Zəngəzurda xüsusilə islam dininə aid abidələrin demək olar ki, hamısının dağıdılmasını əks etdirən rəqəmlər monoetnik Ermənistanın dini dözümsüzlüyünü, islamofobiyasını, azərbaycanofobiyasını, türkofobiyasını açıq şəkildə gözlər önünə sərir.

Elə bu statistikanın fonunda ABŞ Beynəlxalq Dini Azadlıq Komissiyasının (USCIRF) ermənipərəst, riyakar fəaliyyətini də aydın görmək mümkündür.

### Ermənipərəstlik hissi tarixi təhrif etdirir

Yerli və xarici mediada gedən məlumatlara görə, USCIRF iyunun 5-də Azərbaycandakı vəziyyətlə bağlı virtual dinləmələr keçirəcək, həmçinin erməni mədəni irsinin məhv edilməsi (hansı mədəni irs? red.) məsələsini müzakirə edəcək. Bununla bağlı komissiyanın uydurma iddia və ittihamlarla dolu bəyanatında qeyd edilir ki, Azərbaycanda dini etiqad azadlığı ilə bağlı şərait narahatlıq doğurur. Guya ölkəmizdə dini icmaların qanuni şəkildə fəaliyyətlə məşğul olması üçün ciddi qeydiyyat tələbləri qoyub. Komissiyanın absurd iddiasına görə, Azərbaycan hakimiyyəti "erməni mədəni irsi"ni məhv etdiyi üçün "Dağlıq Qarabağ"dakı dini obyektlər təhlükə altında qalmaqda davam edir.

USCIRF 2025-ci il üzrə illik hesabatında ABŞ Dövlət Departamentinə Azərbaycanı dini etiqad azadlığının ciddi şəkildə pozulmasına görə xüsusi müşahidə siyahısına daxil etməyi tövsiyə edib.

Daşıdığı adda əks olunsa da, fəaliyyətində dini azadlıqlara zərbə vurmaqla məşğul olan sözügedən komissiya yaxşı bilir ki, dünyada daha "Dağlıq Qarabağ" adlı hansısa ərazi vahidi yoxdur və bu ifadənin işlədilməsi Azərbaycanın suverenlik hüquqlarının birbaşa pozulması anlamına gəlir. Elə bilərəkdən mövcud olmayan ərazi vahidinin adını işlətməklə USCIRF ölkəmizə qərəzini göstərir.

Digər yandan, ermənilərin Cənubi Qafqaza cəmi iki əsr əvvəl planlı şəkildə yerləşdirilməsi və onlara Azərbaycanın tarixi torpaqlarında qondarma dövlət yaradılması faktdır və bununla bağlı arxivlərdə kifayət qədər sənədlər, materiallar var. USCIRF istəsə, onlarla tanış ola, əsl reallıqları öyrənə bilər. Biz hətta buna da əminik ki, adıçəkilən komissiyanın üzvləri bu həqiqətləri də çoxdan bilirlər. Sadəcə özlərinə sərf etmədiyi üçün tarixi təhrif etməyi daha üstün tuturlar.

### Olmayan erməni mədəni irsini necə dağıdasan?!.

XX əsrin əvvəllərində İrəvan quberniyası ərazisində 300 məscid qeydə alındığı halda, hazırda Ermənistan ərazisində - İrəvan şəhərində yalnız Göy məscid qismən salamat qalıb. Bu məscidin tamamilə dağıdılmaması isə hiyləgər ermənilərin beynəlxalq ictimaiyyət qarşısında gözdən pərdə asmaq niyyətinə görədir.

O da əbəs yerə deyildi ki, erməni vandalları işğal altında saxladıqları zaman Qarabağ və Şərqi Zəngəzurdakı islam dininə aid abidələri tamamilə dağıdıblar və bu ərazilərdə minilliklərdir var olan Qafqaz alban irsinə saxtakarlıqlarla yiyələnmək istəyiblər. Qarabağda və Şərqi Zəngəzurda olan alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar. Bununla hiyləgər ermənilər özlərinə qondarma tarix düzəldərək, bu ərazilərin gəlmə yox, aborigen xalqı olmaları ilə bağlı saxta görüntü yaratmağa çalışıblar.

Həmçinin erməni təcavüzkarlarının işğal altında saxladıqları torpaqlarımızda "kilsə" tikmələri də bu çirkin məqsədləri üçün olub.

Məsələn, 2012-2017-ci illər ərzində onlar Cəbrayılda "kilsə" tikmişdilər. Kilsə sözünü ona görə dırnaqda yazırıq ki, xristian dininə heç bir aidiyyəti olmayan bu tikili dini ayinlər üçün yox, hərbçilər tərəfindən tikilərək cəbbəxana kimi istifadə üçün nəzərdə tutulmuşdu.

Yəni faşist ideologiyalılar kilsə adı altında hərbi obyekt tikiblər, işğal altında saxladıqları torpaqlardan qovulandan sonra isə həmin obyekti dünyaya "dini abidə" kimi təqdim edərək erməni vay-şüvəni qaldırıblar... Bu cür misalların sayını artırmaq da olar, amma elə bu bir faktın özü də iyrənc erməni xislətini, hiyləgərliyini bir daha ortaya qoyur.

Bu mənada nəinki Qarabağ və Şərqi Zəngəzurda, ümumiyyətlə, Cənubi Qafqaz regionunda erməni mədəni irsinin olması ilə bağlı fikirlər səsləndirmək absurd və gülüncdür. Erməni şovinistlərinin uydurduqları "böyük Ermənistan" kimi, Qarabağ və Şərqi Zəngəzurda erməni mədəni irsinin olması iddiaları da cəfəng və boş xülyalardan başqa bir şey deyil.

Ona görə də, ABŞ Beynəlxalq Dini Azadlıq Komissiyasına ritorik bir sual ünvanlamaq istəyirik: reallıqda mövcud olmayan bir şeyi məhv etməyin mümkünsüz olduğunu anlamaq üçün məntiq elmini dərindən bilməyə ehtiyac varmı?!.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# *Ali Attestasiya Komissiyasının sədri:* "Elmi dərəcə və adların verilməsi ilə bağlı meyarlar yenilənib"

*Əvvəli 6-cı səh.*

- Xaricdə təhsil almış vətəndaşların elmi dərəcələrinin ölkədə tanınması Ali Attestasiya Komissiyasının diqqətində olan əsas istiqamətlərdəndir. 2019-2024-cü illərdə komissiya tərəfindən 181 nəfərin fəlsəfə doktoru elmi dərəcəsinin tanınması haqqında şəhadətnamə verilib. Bu şəxslərin əksəriyyəti iqtisadiyyat, tibb, texnika, hüquq və siyasi elmlər sahəsində doktorantura təhsili alıblar və Rusiya, Türkiyə, Almaniya, Fransa, Belçika, İtaliya, Niderland, Macarıstan, Böyük Britaniya, ABŞ, Çin, Cənubi Koreya, Yaponiya, Avstraliya və digər ölkələrin universitetlərində təhsilini tamamlamış mütəxəssislərdir. Dövlət proqramı çərçivəsində nüfuzlu universitetlərdə təhsil alan məzunların sənədləri isə komissiya tərəfindən prioritet və sadələşdirilmiş qaydada nostrifikasiya edilir. Növbəti illərdə bu qəbildən olan müraciətlərin artacağı gözlənilir.

Komissiya bu istiqamətdə daha dayanıqlı inteqrasiyanı təmin etməyi vacib sayır. Dövlət proqramı məzunlarının elmi rəhbər kimi fəaliyyət göstərməsi üçün prosedurlarda maneə yoxdur, əvvəlki icazə mexanizmləri ləğv olunduğu üçün prosedur sadələşdirilib. Həmçinin bu məzunların elmi ekspertiza prosesinə, xüsusilə də ekspert şuralarının fəaliyyətinə cəlb olunması nəzərdə tutulur. Bu yanaşma onların beynəlxalq təcrübəsinin yerli elmi sistemə transferinə və ümumilikdə tədqiqat keyfiyyətinin yüksəldilməsinə yönəlib.

Ümumiyyətlə, xaricdə doktorantura təhsili alan mütəxəssislərin elmə effektiv inteqrasiyası, onların yalnız tədrisə deyil, xüsusilə tədqiqata təşviq edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu məzunların potensialından istifadə etməklə ölkədə tədqiqat nəticələrinin keyfiyyətini artırmaq mümkündür. Bunun üçün isə həmin mütəxəssislərin elmi fəaliyyətlə məşğul olması üçün həm normativ, həm də maddi-texniki baxımdan əlverişli şəraitin yaradılması vacibdir.

*- Elmi fəaliyyətin keyfiyyəti və legitimliyi, ilk növbədə, etik prinsiplərə əməl olunmasından asılıdır. Son illərdə dissertasiya işlərində və elmi nəşrlərdə qeyri-qanuni istinad, mənbəsiz istifadə və müəllif hüquqlarının pozulması kimi hallar geniş ictimai müzakirəyə səbəb olub. Elmi etikanın qorunması və plagiatla mübarizə sahəsində AAK-ın mövcud siyasəti və gələcək addımları nədən ibarətdir?*

- Komissiya elmi fəaliyyətin keyfiyyətinin və legitimliyinin təmin olunmasında elmi etika və plagiatla mübarizəni prioritet istiqamət kimi müəyyən edib. Elmi dürüstlük prinsiplərinin qorunması yalnız elmi nəticələrin etibarlılığını artırmır, həm də ölkənin ümumi elmi nüfuzunu formalaşdırır. 2019-2024-cü illərdə elmi dərəcə və elmi ad verilməsindən imtina hallarının sayı 1094 olub. Bu da əsasən plagiat, elmi keyfiyyətin aşağı səviyyədə olması və sənəd tələblərinə uyğun gəlməmək kimi səbəblərlə bağlıdır. Komissiya tərəfindən elmi dərəcə və ya elmi ad verilməsindən imtina halları ümumi müraciətlərin 30 faizdən çoxunu təşkil edir. Bu göstərici həm ölkə daxilində, həm də xaricdə - xüsusilə Türkiyə, Ukranya, Rusiya və İtaliya kimi ölkələrdə elmi dərəcə almış iddiaçıların sənədləri əsasında verilmiş qərarları əhatə edir. Plagiat bu imtinaların başlıca səbəblərindən biridir və bu gün məhz komissiyanın tətbiq etdiyi çoxpilləli qiymətləndirmə və prinsipial nəzarət mexanizmləri nəticəsində, yalnız ölkə daxilində deyil, həm də xaricdə əldə edilmiş (2019-2024-cü illərdə 42 nəfərin xaricdə əldə edilmiş sənədi tanınmayıb) elmi dərəcələrlə bağlı neqativ halların, o cümlədən plagiatın qarşısının alınması mümkün olur.

Komissiya bu istiqamətdə texnoloji və normativ tədbirlər həyata keçirir. Təqdim olunan bütün dissertasiyalar beynəlxalq lisenziyalı plagiat proqramları (StrikePlagiarism, Antiplagiat.ru, Turnitin) ilə yoxlanılır, həmçinin ekspert şuraları vasitəsilə məzmun analizi və açar ifadələrin kontekstual axtarışı aparılır. Bu yanaşma nəticəsində bəzi hallarda texniki plagiat əmsalı sıfır göstərilən dissertasiyalarda belə, plagiat faktları üzə çıxarılır. Eyni zamanda psevdoelmi nəticələrin təqdim edilməsi, əvvəlki tədqiqatların yeni kimi təqdim olunması, təkrarlanan mövzular və bəzi dissertasiyaların digər şəxslər və ya kommersiya qurumları tərəfindən yazılması halları müəyyən edilir və həmin işlərə ciddi nəzarət tədbirləri tətbiq olunur. Komissiyanın mövcud hüquqi mexanizmləri çərçivəsində, elmi etika pozuntusu müəyyən edilərsə, yalnız iddiaçıya deyil, elmi rəhbər və opponentlərə də üçillik məhdudiyyət tətbiq edilir. Komissiya bu istiqamətdə fəaliyyətini davam etdirərək yalnız texniki yoxlama ilə kifayətlənməyib, kompleks etik nəzarət sistemini gücləndirməyi və elmi mədəniyyətin formalaşmasına töhfə verməyi hədəfləyir.

*- AAK-a təqdim olunan dissertasiyaların və vəsatətlərin obyektiv qiymətləndirilməsi başlıca olaraq ekspert şuralarının rəylərinə əsaslanır. Elmi ekspertizanın keyfiyyəti və müstəqilliyi ekspert şuralarının fəaliyyətindən asılıdır. Ekspert şuralarının tərkibi və fəaliyyət mexanizmləri üzrə, eləcə də fəaliyyətində elmi səviyyənin və obyektivliyin artırılması üçün AAK tərəfindən hansı struktur və normativ islahatlar həyata keçirilir?*

- Ekspert şuralarının fəaliyyəti və onların komissiya sistemində tutduğu rol son illərdə nəzərəçarpacaq dərəcədə təkmilləşdirilib. Hazırda komissiyanın nəzdində 24 elm sahəsi üzrə 15 ekspert şurası fəaliyyət göstərir və bu şuralara ümumilikdə 300-ə yaxın mütəxəssis cəlb olunub. Ekspert şuralarının tərkibi formalaşdırılarkən üzvlərin elmi dərəcələri, sahə üzrə ixtisaslaşmaları və elmi nüfuzu nəzərə alınır.

Ekspert şuralarının vəzifəsi yalnız texniki rəy verməklə məhdudlaşmır - onlar, həmçinin iddiaçılarla müzakirə aparır, onların təqdim etdikləri tədqiqatların elmi səviyyəsini, metodoloji ardıcıllığını və etibarlılığını qiymətləndirir. Ekspert rəylərində dissertasiyanın aktuallığı, tədqiqat üsullarının məqsədəuyğunluğu, nəticələrin dürüstlüyü və təkrarçılıq ehtimalları əsaslı şəkildə təhlil olunur. Eyni zamanda elmi adlar üzrə təqdim olunan sənədlərdə plagiat halları və müəlliflik hüquqları xüsusi diqqətlə araşdırılır.

Struktur baxımından, ekspert şuraları komissiyanın Rəyasət Heyətinin qərarları əsasında yaradılır. Şuraların iclaslarına zəruri hallarda iddiaçılar da dəvət edilir, bu isə qiymətləndirmə prosesinin şəffaflığını artırır. Dəvət olunmuş iddiaçı üzrsüz səbəbdən 2 ay ərzində iştirak etməzsə, ekspertiza dayandırılır və sənədlər geri qaytarılır.

Ekspert şuralarının tərkibi yalnız ixtisas sahəsində aktiv elmi fəaliyyət göstərən və elmi nüfuzu olan mütəxəssislərdən formalaşdırılır. Şura üzvlərinin yazılı razılığı alınmaqla formalaşdırılması, onların fəaliyyətində obyektivlik, peşəkar etik davranış və maraqların toqquşmasının qarşısının alınması ilə bağlı mexanizmlər də ayrıca müəyyən olunub. Qeyd edək ki, komissiya tərəfindən ekspertlərin fəaliyyətinin keyfiyyətinə nəzarət həyata keçirilir və zəruri hallarda onların tərkibi dəyişdirilir.

Hazırda komissiya ekspert fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində rəylərin standartlaşdırılması, fəaliyyətin hesabatlılığı və rəqəmsallaşdırılması kimi islahatlara hazırlaşır. Məqsəd yalnız nəticəyə deyil, nəticəyə gətirən elmi və metodoloji yolun da etibarlı şəkildə qiymətləndirilməsini təmin etməkdir. Bu yanaşma həm milli, həm də beynəlxalq elmi standartlara uyğun, çoxpilləli və məsuliyyətli ekspertiza sisteminin qurulmasına xidmət edəcək.

*- Son dövrlərdə elmi təşkilatların sayının və strukturunun optimallaşdırılması ilə bağlı müxtəlif təşəbbüslər irəli sürülüb. Lakin bu qurumların bir çoxunda hələ də maddi-texniki baza, insan resursları və tədqiqat məhsuldarlığı baxımından ciddi fərqliliklər qalmaqdadır. Məhz bu səbəbdən, AAK tərəfindən həyata keçirilən akkreditasiya mexanizmlərinin bu fərqlilikləri necə nəzərə aldığı və real keyfiyyətin təmininə nə dərəcədə xidmət etdiyi aktual müzakirə mövzusudur. Sizcə, mövcud akkreditasiya mexanizmləri elmi müəssisələrin fəaliyyətini daha səmərəli etmək üçün kifayət qədər təsirlidirmi?*

- Elmi müəssisələrin fəaliyyətinin səmərəliliyini təmin etmək və elmi keyfiyyəti yüksəltmək məqsədilə komissiyaya son illərdə yeni səlahiyyətlər həvalə olunub. Xüsusilə elmi müəssisələrin və təşkilatların akkreditasiyası istiqamətində həyata keçirilən islahatlar bu sahədə mühüm dəyişikliklərin əsasını qoyub. Akkreditasiya prosesi yalnız struktur və sənəd üzərində yoxlama ilə məhdudlaşmır, həm də müəssisənin elmi məhsuldarlığı, tədqiqat potensialı və insan resursları kontekstində real fəaliyyətinə əsaslanır.

Komissiyanın yanaşması beynəlxalq təcrübəyə uyğun olaraq obyektivlik və tərəfsizlik üzərində qurulub. Belə ki, komissiya ilə akkreditasiyadan keçməli olan elmi müəssisələr arasında təşkilati baxımdan heç bir asılılıq olmadığı üçün maraqların toqquşması ehtimalı azdır və bu da elmdə keyfiyyətin təmin olunması baxımından mühüm üstünlükdür.

Eyni zamanda komissiya bu işdə öz fəaliyyətini yalnız kəmiyyət qiymətləndirmələri ilə məhdudlaşdırmır, elmi tədqiqatların keyfiyyət göstəricilərinin yüksəldilməsi, monitorinq və akkreditasiya mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində strategiyalar formalaşdırır. Bu sahədə aparılan işlərin təhlili göstərir ki, burada kifayət qədər çağırışlar mövcuddur. Bəzi elmi təşkilatlarda infrastruktur, kadr potensialı və elmi nəticələrin səviyyəsi arasında ciddi fərqlər müşahidə olunur. Bu fərqliliklərin aradan qaldırılması üçün isə akkreditasiya sisteminin davamlı olaraq təkmilləşdirilməsi və müəssisələrin fəaliyyətinin dərin təhlilə əsaslanan keyfiyyət göstəriciləri ilə qiymətləndirilməsi vacibdir.

Hazırda akkreditasiya yalnız institusional səviyyədə həyata keçirilir, yəni elmi müəssisə və təşkilatlarda keyfiyyət təminatı sisteminin mövcudluğu və fəaliyyəti qiymətləndirilir. Lakin bu sahədə ən vacib istiqamətlərdən biri doktorantura və dissertantura proqramlarının məzmun və proses baxımından ayrıca akkreditasiyasıdır. Belə bir yanaşma təkcə ümumi infrastrukturun deyil, elmi kadrların hazırlanmasının konkret keyfiyyət göstəricilərinin də dəyərləndirilməsinə imkan verərdi. Doktorantura proqramlarının akkreditasiyası, təəssüf ki, hələ sistemli şəkildə həyata keçirilmir və bu, bir çox hallarda keyfiyyətsiz tədqiqatların yaranmasına, metodoloji zəifliklərə və təkrarlanan mövzuların yayılmasına səbəb olur. Komissiya bu istiqamətdə islahatları dəstəkləyir və hesab edir ki, məhz doktorantura proqramlarının ayrı-ayrılıqda akkreditasiyası gələcəkdə mövcud mənfi halların əvvəlcədən qarşısını almağa və elmi fəaliyyətin effektivliyini artırmağa xidmət edəcək.

*- Süni intellekt alətləri elmi tədqiqat metodologiyasını dəyişməkdədir. Bu texnologiyaların istifadəsi, sizcə, elmi fəaliyyətə nə kimi təsirlər göstərir və bu sahədə tənzimləyici yanaşmalara ehtiyac varmı?*

- Süni intellekt alətləri, xüsusilə dil modelləri elmi tədqiqatın strukturuna və epistemoloji əsaslarına ciddi təsir göstərməkdədir. Bu texnologiyalar təkcə texniki əməliyyatları deyil, həm də tədqiqatın məzmununu, metodologiyasını və akademik yazı mədəniyyətini dəyişdirmək potensialına malikdir. Müasir elmi debatlarda süni intellektin bilik istehsalında insan-subyekt anlayışını necə transformasiya etdiyi, müəlliflik və məsuliyyət anlayışlarını necə yenidən şərh etdiyi əsas müzakirə mövzularındandır

Əvvəla, bu texnologiyalar informasiyanın axtarışı, təhlili və ilkin strukturlaşdırılmasında tədqiqatçını dəstəkləyə bilər. Lakin bu, avtomatlaşdırılmış bilik formalarının dominantlaşması riskini də artırır. Belə bir tendensiya tədqiqatın reflektivliyini, metodoloji əsaslandırmanı və nəzəri dərinliyi zəiflədə bilər. İkincisi, akademik yazıda süni intellektdən istifadə edilməsi müəlliflik və etika məsələlərini daha da kəskinləşdirir. Bəzi hallarda tədqiqatçılar bu alətlərdən istifadəni "yardımçı funksiya" kimi təqdim etsələr də, faktiki olaraq, süni intellektin yaratdığı mətnlərin orijinallığı və onların müəllifik hüququ ilə bağlı problemlər qalır.

Bu səbəbdən, bu texnologiyaların elmi fəaliyyətə inteqrasiyası yalnız texniki deyil, həm də normativ və institusional yanaşmalar tələb edir. Məsələn, elmi jurnallar və elmi dərəcə verən qurumlar bu vasitələrin istifadəsinə dair şəffaflıq tələblərini artırmalı, süni intellektlə yaradılmış mətnlərin açıqlanması və etika standartlarına uyğunluğu üçün prosedurlar müəyyənləşdirməlidir. Bununla yanaşı, komissiya səviyyəsində biz dissertasiya və elmi əsərlərin ekspertizasında bu cür texnologiyalardan istifadəyə dair müasir beynəlxalq təcrübəyə əsaslanan meyarlar formalaşdırmağı nəzərdə tuturuq. Əks halda, akademik keyfiyyətin və etibarlılığın saxlanılması çətinləşə bilər.

*- Azərbaycanda dövri elmi jurnalların beynəlxalq indekslərə çıxışı və keyfiyyət standartlarına uyğunluğu aktual məsələdir. AAK bu istiqamətdə nə kimi təşəbbüslər göstərir və gələcəkdə hansı tədbirlər nəzərdə tutulur?*

- Azərbaycanda dövri elmi jurnalların beynəlxalq indekslərə çıxışı və keyfiyyət standartlarına uyğunluğu məsələsi elmi fəaliyyətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Komissiya bu sahədə konkret təşəbbüslər irəli sürüb və bir sıra sistemli tədbirlər həyata keçirib. Normativlərdə edilən dəyişikliklərlə elmi dərəcə və elmi ad almaq istəyən iddiaçılar üçün beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə məqalə dərc etdirmək tələbi təsbit edilib. Bu tələb həm elmi fəaliyyətin keyfiyyətini artırmağa, həm də elmi-tədqiqat institutları və ali təhsil müəssisələrinin elmmetrik göstəricilərini yaxşılaşdırmağa yönəlib.

Komissiya tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" ciddi şəkildə yenilənib və 31 konkret meyar müəyyən edilib. Bu meyarlara dövri nəşrin dövlət qeydiyyatı, ISSN və e-ISSN kodlarının alınması, elektron platformada mövcudluğu, DOI təyinatı, beynəlxalq redaksiya heyətinin formalaşdırılması, plagiat yoxlanışının təmin olunması və məqalələrin elmi, qrammatik redaktəsi kimi bir çox texniki və məzmun baxımından keyfiyyətə yönəlmiş tələblər daxildir. Eyni zamanda dissertasiya nəticələrinin dərc olunacağı nəşrlərdə məqalələrin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və nəticələrinin aydın şəkildə təqdim edilməsi şərt kimi irəli sürülür.

Bu tədbirlər bütövlükdə ölkə elminin beynəlxalq elmi informasiya mühitinə inteqrasiyasını gücləndirmək, yerli elmi nəşrlərin keyfiyyətini artırmaq və Azərbaycanın elmi jurnal sistemi üçün daha güclü beynəlxalq tanınma təmin etmək məqsədi daşıyır. Elmi jurnalların beynəlxalq indekslərə çıxışı üçün ən başlıca şərt tədqiqatların elmi keyfiyyətinin artırılmasıdır. Qlobal elmi bazalar yalnız metodoloji cəhətdən əsaslandırılmış, orijinal elmi nəticələr təqdim edən, aktual problemləri araşdıran və beynəlxalq elmi diskursa töhfə verən məqalələri qəbul edən jurnalları indeksləyir. Bu səbəbdən, redaksiyaların əsas diqqəti məhz keyfiyyətli tədqiqatların cəlbinə, ciddi resenziya prosesinə və elmi etikanın qorunmasına yönəlməlidir.

*- AAK ölkədə elmi dərəcə və adların verilməsi prosesinə cavabdeh olan əsas tənzimləyici qurumdur. Onun qəbul etdiyi qərarlar elmi karyeranın istiqamətini müəyyən edir və milli elmi sistemin keyfiyyətinə birbaşa təsir göstərir. AAK-ın qərarları və funksional rolu elmi ictimaiyyətin və akademik dairələrin diqqət mərkəzindədir. Son illərdə elmi dərəcə və adların verilməsi mexanizmlərinin effektivliyi, şəffaflığı və obyektivliyi ilə bağlı mediada müxtəlif fikirlər səsləndirilir. Sizcə, AAK-ın bir dövlət qurumu olaraq milli elm sistemində oynadığı funksional rol və məqsədi ictimaiyyət tərəfindən kifayət qədər aydın qəbul olunurmu? Bu qurumun əhəmiyyətini və legitimliyini gücləndirmək üçün hansı addımlar atılmalıdır?*

- Komissiyanın institusional gücü onun elmi müəssisə və ali təhsil qurumlarından müstəqil fəaliyyət göstərməsindədir. Bu, qərarların daha obyektiv və maraqlardan kənar verilməsinə imkan yaradır. Komissiya hazırda ölkədə elmi dərəcə və elmi adların verilməsi sahəsində keyfiyyətin təminatını həyata keçirən əsas tənzimləyici qurumdur. Onun fəaliyyəti yalnız inzibati prosedurların icrası ilə məhdudlaşmır, eyni zamanda elmi fəaliyyətin məzmununa əsaslanan çoxsəviyyəli ekspertiza mexanizmi üzərində qurulub. Bu baxımdan, komissiyanın əsas missiyası elmin etibarlılığına, şəffaflığına və akademik dürüstlüyə xidmət edən sistemli yanaşmanı təmin etməkdir. Son illərin statistikasına nəzər saldıqda görürük ki, təqdim olunan dissertasiya və attestasiya sənədlərinin təxminən 30 faizində elmi dərəcə və elmi adın verilməsindən imtina edilib. Bu göstərici bir tərəfdən komissiyanın obyektiv və prinsipial mövqeyini, digər tərəfdən isə bəzi elmi və ali təhsil müəssisələrində keyfiyyətlə bağlı problemlərin hələ də mövcudluğunu göstərir.

Aparılmış qiymətləndirmələr göstərir ki, bəzi hallarda təqdim olunan işlərdə metodoloji zəifliklər, istinad qaydalarına əməl olunmaması, plagiat faktları, əvvəlki tədqiqatların yeni kimi təqdim edilməsi və etik prinsiplərə zidd hallara rast gəlinir. Bütün bu çatışmazlıqlar komissiya tərəfindən aşkara çıxarılır və onların qarşısı alınır. Əks halda, elmi dərəcə və adların keyfiyyətsiz şəkildə verilməsi nəticəsində həm milli elm sistemində devalvasiya yaranar, həm də beynəlxalq miqyasda Azərbaycanın elmi nüfuzu zərər görə bilər.

Nəzərə almaq lazımdır ki, komissiyanın fəaliyyət istiqamətləri, səlahiyyətləri və prioritetləri dövlətin elm siyasətinə uyğun olaraq formalaşır. Yəni komissiyanın mövcudluğu və fəaliyyəti birbaşa ölkə rəhbərliyinin elmi sistemin inkişafı və keyfiyyətin təmininə verdiyi önəmin nəticəsidir. Bu baxımdan, komissiyanın institusional mövqeyi və ictimai legitimliyi həm də ümumi dövlət siyasətinin ayrılmaz bir hissəsi kimi qiymətləndirilməlidir.

*- Elmi tədbirlər alimlərin şəbəkələşməsi və nəticələrin yayılması üçün əsas platformadır. Sizcə, bu sahədə Azərbaycan alimlərinin qarşılaşdığı əsas maneələr hansılardır və onların aradan qaldırılması üçün hansı dəstəyə ehtiyac var?*

- Elmi konfranslar və beynəlxalq tədbirlər akademik cəmiyyətin dinamikliyini təmin edən əsas platformalardan biridir. Məhz bu tədbirlər çərçivəsində elmi yeniliklər paylaşılır, mövcud nəzəri yanaşmalar yenidən dəyərləndirilir və yeni tədqiqat istiqamətləri formalaşır. Elmi fəaliyyətin canlı və qarşılıqlı müzakirəyə əsaslanan mahiyyəti baxımından bu cür tədbirlərin həm ölkə daxilində, həm də beynəlxalq miqyasda təşkili və dəstəklənməsi çox vacibdir.

Təəssüf ki, nəinki ölkəmizdə, eləcə də dünyada keyfiyyətli elmi platformaların əvəzinə formal xarakter daşıyan və ya "beynəlxalq" adı altında təşkil edilən, lakin elmi baxımdan şübhəli tədbirlərdə iştirak son zamanlar geniş vüsət alıb. Belə hallarda təqdim olunan tezis və məqalələr məzmun baxımından ciddi elmi müzakirəyə əsaslanmır və yalnız attestasiya sənədlərinin tələblərini formal olaraq yerinə yetirmək məqsədi daşıyır. Komissiyanın apardığı monitorinq nəticəsində məlum olub ki, bəzi iddiaçılar saxta konfranslarda iştirak edərək, həmin tədbirlərin materiallarını təqdim edirlər. Bu tədbirlər bəzən bir neçə məruzəçi ilə keçirilir, tədbirin "beynəlxalq" statusuna baxmayaraq, yalnız yerli iştirakçılardan ibarət olur və təqdim olunan məqalələr digər dillərdən fərqli olaraq yalnız Azərbaycan dilində yayımlanır.

Komissiya bu halların qarşısını almaq məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində məsələni müzakirəyə çıxarıb, belə tezislərin və məqalələrin elmi fəaliyyətin nəticəsi kimi təqdim edilməsinin yolverilməz olduğunu açıq şəkildə bəyan edib. Eyni zamanda "yırtıcı" (predatory) jurnallarda dərc olunmuş məqalələrin elmi fəaliyyətə aid kimi qəbul olunmaması üçün ciddi nəzarət tədbirləri görülür.

Bu baxımdan, real və ciddi elmi tədbirlərə çıxış imkanlarının genişləndirilməsi, maliyyə və təşkilati dəstəyin artırılması, beynəlxalq elmi platformalarla əməkdaşlığın gücləndirilməsi, gənc tədqiqatçıların və doktorantların xaricdə keçirilən keyfiyyətli tədbirlərə inteqrasiyası üçün xüsusi proqramların hazırlanması zəruridir. Elmi nəticələrin yayılması yalnız formal tələblərin yerinə yetirilməsi deyil, həm də beynəlxalq elmi diskursda iştirak imkanlarının artırılması ilə mümkün olacaq.

*- AAK yalnız milli deyil, beynəlxalq səviyyədə də qarşılıqlı tanınma və təcrübə mübadiləsi proseslərinə cəlb olunur. Komissiyanın beynəlxalq təşkilatlarla əməkdaşlığı hansı istiqamətlərdə inkişaf etdirilir və gələcək planlar nədir?*

- Ali Attestasiya Komissiyasının beynəlxalq əməkdaşlıq fəaliyyəti ölkənin elmi məkanının qlobal elm sisteminə inteqrasiyasına xidmət edən əsas istiqamətlərdən biridir. Bu əməkdaşlıq çərçivəsində həm qarşılıqlı tanınma mexanizmləri formalaşdırılır, həm də təcrübə və tələblərin uyğunlaşdırılması yolu ilə elmi keyfiyyətin yüksəldilməsi məqsədi güdülür.

Bu baxımdan, 2024-cü ildə komissiyanın beynəlxalq tərəfdaşlarla imzaladığı sənədlər və iştirakı ilə keçirilən tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyi ilə komissiya arasında imzalanmış memorandum bu istiqamətdə atılmış mühüm addımlardandır. Memorandumun məqsədi Azərbaycan ilə Qazaxıstanın elmi nəşr siyahılarının uyğunlaşdırılması, dissertasiyaların əsas nəticələrinin dərc olunacağı jurnallara dair tələblərin birgə müəyyənləşdirilməsi və elmi mühitin qarşılıqlı inteqrasiyası üçün institusional platformanın qurulmasıdır. Bu, hər iki ölkənin tədqiqatçılarının bir-birlərinin jurnallarında məqalə dərc etdirməsini və elmi mübadilənin gücləndirilməsini asanlaşdıracaq.

Eyni zamanda komissiyanın MDB ölkələri ilə əməkdaşlığı davam etdirilir. Komissiyanın yaxın perspektivdə planlaşdırdığı addımlar sırasında isə MDB məkanında əməkdaşlığın dərinləşdirilməsi, türk dövlətləri platformasında mümkün inteqrasiya mexanizmlərinin araşdırılması və elmi nəşrlərin qarşılıqlı tanınmasına dair təşəbbüslərin genişləndirilməsi nəzərdə tutulur. Bu cür əməkdaşlıqlar, həm elmi kadrların mobilliyinə, həm də beynəlxalq tələblərə cavab verən elmi keyfiyyət standartlarının formalaşmasına mühüm töhfə verir.

*- Çoxlu sayda yerli tədqiqatçılar impakt faktorlu jurnallarda məqalə çap etdirməkdə dil baryeri, maliyyə tələbləri və elmi rəhbərliklə bağlı çətinliklərlə üzləşirlər. Bu maneələrin aradan qaldırılması və azərbaycanlı tədqiqatçıların beynəlxalq elmi jurnallarda daha fəal iştirakı üçün hansı real dəstək mexanizmləri qurula bilər?*

- Nüfuzlu beynəlxalq jurnallarda dərc olunmaq yalnız fərdi tədqiqatçının nailiyyəti deyil, bütövlükdə ölkənin elmi nüfuzunun və akademik potensialının göstəricisidir. Bu, həmçinin Azərbaycanın beynəlxalq reytinqlərdəki mövqeyinə birbaşa təsir edən amildir.

Komissiyanın xüsusilə, elmi dərəcə və elmi ad almaq istəyən iddiaçılar üçün beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan dövri elmi nəşrlərdə məqalə dərc etdirmək tələbinin tətbiqi bu istiqamətdə mühüm keyfiyyət dönüşünə səbəb olub. Bu, təkcə fərdi tədqiqatçıların deyil, eyni zamanda onların təhkim olunduğu elmi müəssisələrin elmmetrik göstəricilərinə müsbət təsir göstərir.

Bununla yanaşı, komissiya ingilis dili üzrə imtahanların strukturunu beynəlxalq standartlara uyğunlaşdıraraq, yalnız texniki yoxlama deyil, akademik tədqiqat üçün zəruri olan dildən istifadə bacarıqlarını da qiymətləndirməyə başlayıb. Bu isə tədqiqatçıların beynəlxalq elmi mühitə inteqrasiyasını asanlaşdırır.

Lakin qeyd etmək lazımdır ki, bu sahədə real irəliləyiş üçün elmi və ali təhsil müəssisələrində tədqiqat bacarıqlarının inkişafı da zəruridir. Doktorantura və magistratura səviyyələrində metodologiya, akademik yazı və nəşr mədəniyyəti üzrə sistemli tədris və mentorluq təşəbbüsləri olmadan təkcə attestasiya tələbləri ilə bu problemin tam aradan qaldırılması mümkün deyil. Ona görə də bu məsələ təkcə komissiyanın deyil, bütövlükdə ali təhsil sisteminin prioritet sahələrindən biri olmalıdır.

*- Bir çox doktorantlar elmi rəhbərlərinin formal yanaşmasından, vaxt ayırmamasından və istiqamət verməməsindən şikayətlənir. Elmi rəhbərlik institutunun məsuliyyətinin artırılması və keyfiyyətinin təmin olunması üçün AAK hansı mexanizmləri düzgün sayır?*

- Elmi rəhbərlik institutunun funksional rolu elmi dərəcə almaq istəyən iddiaçının tədqiqat bacarıqlarının formalaşmasında, elmi nəticələrinin dərinləşdirilməsində və metodoloji dəqiqliyin təmin olunmasında həlledici əhəmiyyət daşıyır. Komissiyanın hazırkı tələblərində elmi rəhbərin ixtisas uyğunluğu və elmi dərəcəsi önə çəkilsə də, praktikada rəhbərlik funksiyasının keyfiyyəti bəzən formallığa çevrilir. Bu isə həm doktorantların elmi inkişafını məhdudlaşdırır, həm də tədqiqatların elmi səviyyəsinə birbaşa təsir göstərir.

Məsələnin kökündə, elmi rəhbərlərin yalnız inzibati vəzifə daşıyan şəxslər deyil, aktiv tədqiqat fəaliyyəti ilə məşğul olan alimlərdən seçilməsi dayanmalıdır. Xüsusilə, nüfuzlu elmi-tədqiqat institutu və ali təhsil müəssisələrində çalışan, beynəlxalq nəşrlərdə çıxış edən, metodoloji bilikləri və sahə üzrə elmi çevrəsi olan gənc alimlərin elmi rəhbərliyə cəlb olunması təkcə fərdi doktorantın deyil, ümumilikdə ölkə üzrə tədqiqat keyfiyyətinin yüksəldilməsinə gətirib çıxara bilər.

Komissiya bu sahədə məsuliyyət və funksionallığı artırmaq üçün yaxın dövrdə elmi rəhbərlərin fəaliyyətinə dair hesabatlılıq, elmi nəticə əsasında qiymətləndirmə, həmçinin rəhbərliyin normativ çərçivəsinin yenilənməsi kimi addımlar atmağı məqsədəuyğun hesab edir. Beləliklə, elmi rəhbərlik formallıqdan çıxaraq elmi karyera inkişafında real təsirə malik mexanizmə çevrilə bilər.

*- Son illərdə təqdim olunan dissertasiya mövzularının bir qismi ya kifayət qədər elmi yenilik ehtiva etmir, ya da ölkənin sosial-iqtisadi və texnoloji prioritetləri ilə zəif əlaqəlidir. Mövzu seçiminin sistemsiz aparılması, dissertasiya təkliflərinin forma və məzmun baxımından səmərəliliyinə təsir edir. Dissertasiya mövzularının aktuallığını və tətbiq dəyərini artırmaq üçün nə kimi mexanizmlər təklif edilə bilər?*

- Dissertasiya mövzularının elmi və tətbiqi aktuallığı istənilən tədqiqatın cəmiyyətə və dövlətə faydasını müəyyən edən əsas göstəricidir. Təəssüf ki, son illərin təcrübəsi bir sıra təqdim olunan mövzuların ya yetərincə elmi yenilik ehtiva etmədiyini, ya da sosial-iqtisadi və texnoloji inkişafla uzlaşmadığını göstərir. Bu isə elmi nəticələrin real problemlərin həllinə töhfə verməsini çətinləşdirir.

Komissiyanın müşahidələrinə əsasən, mövzu seçimi çox zaman sistemsiz şəkildə və formallıqla aparılır. Elmi rəhbərlərin istiqamətverici rolunun zəifliyi, elmi müəssisələrdə tədqiqat strategiyasının olmaması və prioritet sahələrin müəyyən edilməməsi bu vəziyyətin əsas səbəblərindəndir.

2020-2025-ci illərdə ölkə daxilində müdafiə edilmiş fəlsəfə doktoru dissertasiyalarının monitorinqi göstərir ki, bu mövzuların bir çoxunun adları ümumi və deskriptiv xarakter daşıyır. Mövzular, əsasən, ənənəvi elmi sahələr üzrə seçilir və müasir elmi problemlərə və metodoloji yeniliklərə nadir hallarda toxunulur. İfadələr çox vaxt geniş və məqsəd-məzmun baxımından qeyri-dəqiqdir. Bu da tədqiqatın nəticələrinin praktik tətbiq imkanlarını və elmi yenilik iddiasını zəiflədir. Mövzu seçimi daha çox mövcud akademik maraqlar və ya institutun tədris profili ilə məhdudlaşır.

Digər tərəfdən, xaricdə müdafiə olunmuş və nostrifikasiya üçün təqdim edilmiş dissertasiya işlərində mövzu adları daha dəqiq, məqsədyönlü və konkret metodoloji çərçivəyə malikdir. Mövzular tez-tez qlobal trendlərə (rəqəmsallaşma, insan hüquqları, innovasiya siyasətləri, iqlim dəyişikliyi və s.) uyğunlaşdırılır. Bununla belə, bəzi hallarda bu mövzular Azərbaycan kontekstindən və milli prioritetlərdən uzaq qalır. Bu, onların nostrifikasiya mərhələsində əsas zəif cəhətlərindən biri kimi çıxış edir.

*- Elmi dərəcələrin əldə edilməsi ciddi elmi zəhmət və illərlə davam edən tədqiqat fəaliyyəti tələb etsə də, bir çox hallarda bu dərəcələr əmək bazarında rəqabət üstünlüyü və karyera perspektivləri baxımından real əksini tapmır. Bununla yanaşı, elmi dərəcə sahiblərinin ictimai nüfuzunun və intellektual liderliyinin zəifləməsi də geniş müzakirə olunur. Sizcə, elmi dərəcələrin ölkə daxilində dəyərinin artırılması və alim nüfuzunun bərpası üçün hansı institusional təşviq mexanizmləri vacibdir? Hansı təşviq və normativ dəyişikliklər buna müsbət təsir göstərə bilər?*

- Müasir dövrdə dünya bilik yönümlü iqtisadiyyat modelinə keçid mərhələsindədir və bu şəraitdə elmin rolu təkcə nəzəri bilik istehsalı ilə məhdudlaşmır, praktik nəticələr və innovativ həllər yaradan əsas vasitəyə çevrilir. Bilik iqtisadiyyatı informasiya və tədqiqat yönümlü bir sistemdir və burada məlumatlar dayanıqlı şəkildə yenilənməli və istifadəyə verilməlidir. Bu isə yalnız aktiv və keyfiyyətli elmi fəaliyyətin mövcudluğu ilə mümkündür.

Bu kontekstdə, elmi dərəcələrin dəyərinin artırılması təkcə rəsmi sənəd səviyyəsində deyil, onların bilik, texnologiya və innovasiya istehsalında funksional rolu ilə ölçülməlidir. Əgər elmi fəaliyyət real tədqiqat nəticələri, patentləşdirilmiş icadlar, praktik tətbiq imkanları və kommersiyalaşma potensialı ilə müşayiət olunarsa, bu zaman elmi dərəcə özünün cəmiyyət və iqtisadiyyat üçün faydasını göstərə bilər. Bu baxımdan, tədqiqatların kommersiyalaşdırılması mexanizmləri və innovativ məhsul istehsalına imkan verən mühitin qurulması əsas şərtlərdəndir.

Digər tərəfdən, elmi fəaliyyətin qlobal elmi cəmiyyətlə inteqrasiyası, beynəlxalq əməkdaşlıq və dünya elmi məkanında rəqabətədavamlı olmaq üçün vacibdir. Bu həm də elmi dərəcəyə malik şəxslərin bilik istehsalında və texnoloji tərəqqidə aktiv iştirakını təmin edən əsas yoldur. Beləliklə, elmi fəaliyyət lokal deyil, qlobal standartlarla uzlaşmalı, nəticələr yalnız "formallıq" üçün deyil, ictimai və iqtisadi fayda yaratmaq üçün ortaya qoyulmalıdır.

Nəhayət, ali təhsil sistemi yalnız tədris yönümlü deyil, həm də tədqiqat yönümlü sistem kimi qurularsa, bu, elmi dərəcələrin əhəmiyyətini artıracaq, cəmiyyət tərəfindən tanınmasını gücləndirəcək və innovasiya və icadların təşviqinə real zəmin yaradacaq.

*- Son illərdə Azərbaycan elmi qlobal elmi məkanla inteqrasiya səyləri fonunda yeni mərhələyə qədəm qoyur. Lakin elmi məhsuldarlıq, resursların effektivliyi və beynəlxalq tanınma hələ də arzuolunan səviyyədə deyil. Bu kontekstdə sizcə, hazırda Azərbaycan elminin qarşısında duran əsas problemlər və strateji vəzifələr hansılardır?*

- Əlbəttə, bu gün Azərbaycan elminin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Son illərdə elmi dərəcələrin verilməsi, elmi fəaliyyətin qiymətləndirilməsi və elmi müəssisələrin akkreditasiyası sahəsində sistemli addımlar atılıb. Lakin qarşıda duran əsas problemləri də açıq şəkildə deməliyik.

Birinci məsələ - elmi fəaliyyətin nəticəliliyidir. Hazırda bəzi tədqiqatların praktiki tətbiq potensialının tam reallaşmaması müşahidə olunur ki, bu da elmin iqtisadi və sosial inkişaf proseslərinə daha geniş töhfə vermək imkanlarını bir qədər məhdudlaşdırır. Elmi nəticələrin real sektorla əlaqələndirilməsi istiqamətində daha sistemli yanaşmalara ehtiyac qalır. Komissiya olaraq biz dissertasiya mövzularının aktuallığına və nəticələrinin ictimai faydalılığına xüsusi diqqət verilməsini vacib sayırıq.

İkinci mühüm məsələ - kadr potensialının dayanıqlılığıdır. Elmi sistemdə gənc tədqiqatçıların daha fəal iştirakı və elmi rəhbərlik institutunun praktik funksionallığının gücləndirilməsi istiqamətində əlavə təşviq və dəstək mexanizmlərinə ehtiyac var. Bu, dissertasiya işlərinin keyfiyyətinə təsir göstərir. Biz ekspert şuralarının tərkibində bu balansı saxlamağa çalışırıq və gənc alimlərin cəlb olunmasını təşviq edirik.

Üçüncü məsələ - elmi dərəcə və adların sosial və institusional dəyəridir. Fəlsəfə doktoru və elmlər doktoru dərəcələrinin əmək bazarında rəqabət üstünlüyü kimi daha geniş tanınması və stimullaşdırılması üçün əlavə təşəbbüslərə ehtiyac duyulur. Bu tendensiya gənc nəslin elmi fəaliyyətə marağını təşviq etmək baxımından əlavə dəstək mexanizmlərinin zəruriliyini göstərir. Bu istiqamətdə elmi təşkilatlar, ali təhsil müəssisələri ilə sənaye, iş dünyası və istehsalat sektorları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda bu əməkdaşlıq istiqamətində müəyyən təşəbbüslər olsa da, prosesin daha sistemli və davamlı şəkildə inkişaf etdirilməsinə ehtiyac qalır. Strateji baxışımız ondan ibarətdir ki, elmi dərəcə formal titul deyil, real elmi nəticənin və məsuliyyətin göstəricisi olmalıdır. Bizim bütün fəaliyyətimiz də bu məqsədə xidmət edir.






# Ölkəmizlə hesablaşmayanlara regionda yer yoxdur

**Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında çıxışı zamanı "Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur" deməklə həm də Azərbaycanın regionda hansı mövqeyə sahib olduğunu dəqiq ifadə etdi. Bəli, Azərbaycan regionun aparıcı və söz sahibi olan dövlətidir. Bakı ilə hesablaşmaq istəməyənlərə burada yer yoxdur.**

Nəzər yetirsək görərik ki, Cənubi Qafqazı əhatə etməklə, qitələri birləşdirən bütün aparıcı kommunikasiyaların reallaşmasının mərkəzində dayanan məhz Azərbaycandır. Başqa cür desək, bu kommunikasiyalar respublikamızın təşəbbüsləri və Bakının moderatorluğu ilə həyata vəsiqə alıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng infrastrukturların ərsəyə gətirilməsinin əsas səbəbi Azərbaycan dövlətinin iradəsi və qətiyyətidir.

Bunlardan yararlananlar isə yalnız Azərbaycan deyil, həm də Gürcüstandır, Türkiyədir, Avropa və Orta Asiya dövlətləridir. Respublikamızdan keçən nəqliyyat dəhlizləri Şərqlə Qərbi, Şimalla Cənubu bir-birinə daha yaxın edir, dövlətlərarası iqtisadi əməkdaşlığı dərinləşdirir. Azərbaycanın enerji siyasəti isə dost dövlətlərin, habelə Avropa İttifaqına üzv ölkələrin milli maraqlarını da qoruyur.

Azərbaycanın təşəbbüsləri ilə ərsəyə gələn bu infrastrukturlardan yararlana bilməyən isə Ermənistandır. Çünki həyata keçirdiyi işğal siyasətinə görə Azərbaycan bu dövləti bütün layihələrdən kənarda saxlayıb, regional və transkontinental inteqrasiyalardan təcrid edib. Azərbaycanla hesablaşmaq istəməyən və bunun ağır nəticələrini yaşayan Ermənistan bu gün də dalanda qalıb. Azərbaycanın iradəsi xaricində Ermənistanın bu vəziyyətdən çıxması mümkün deyil.

Yaxud götürək Ermənistanın böyük bacısı Fransanı. Vətən müharibəsi günlərindən özünü tam ifşa edən və maskası yırtılan Parisə də Cənubi Qafqazda yer yoxdur. Fransanın regiondan uzaqlaşdırılması həm də bu ölkənin regionla bağlı qeyri-sağlam və qeyri-səmimi niyyətlərindən irəli gəlir. Tarixi müstəmləkəçilik cinayətləri ilə zəngin olan bu dövlətin regionla bağlı bir sıra maraqları sağlam və sivil prinsiplərə söykənmir. Ən yaxşı halda Fransa öz lövbərini Ermənistana sala bilər ki, bu da geosiyasi və geostrateji baxımdan heç bir əhəmiyyət kəsb etmir. Beləliklə, Afrikadan qovulan Fransanın Cənubi Qafqazla bağlı maraqları da Azərbaycan tərəfindən iflasa uğradılıb. Amma Azərbaycan Fransanı yalnız Cənubi Qafqazda deyil, həm də qlobal səviyyədə sözün bütün mənalarında peşman edir.

Regionda Azərbaycanla hesablaşmayan həqiqətən də peşman olur. Bunu Avropa İttifaqının davranışlarından da görmək mümkündür. Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində müşahidəçi missiyası saxlamaqla həyata keçirdiyi təxribatçı fəaliyyətin münasibətlərə xələl gətirməsi faktdır. Adı mülki olsa da bu, kəşfiyyat missiyasıdır. Çünki bu missiyanın əməkdaşları "binokl diplomatiyası" yolu ilə Azərbaycan hərbçilərinin mövqeləri, bölmələrimizin dislokasiya yerləri haqqında kəşfiyyat məlumatları toplayırlar.

Lakin dəyişən dünya nizamı, siyasi qütblər arasındakı gərginliklər Avropa İttifaqını da yürütdüyü yanlış siyasətdən imtinaya vadar edir. Bu baxımdan indi özünün iqtisadi təhlükəsizliyi ətrafında daha çox düşünməyə məcbur olan Avropa İttifaqı anlayır ki, Azərbaycanla tərəfdaşlıq olduqca mühümdür. Aprel ayında Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın Azərbaycana səfəri də bu məqsədlərdən irəli gəlirdi.

Azərbaycan müstəqil, qətiyyətli və beynəlxalq hüquq prinsiplərinə əsaslanan siyasəti olan dövlətdir. Respublikamıza regionda və dünyada hörmət və nüfuz qazandıran əsas amillərdən biri məhz budur. Azərbaycana ehtiram gətirən digər mühüm amil torpaqlarını döyüş yolu ilə işğaldan azad etməsidir. Belə bir dövlətlə isə, əlbəttə ki, hesablaşmaq vacibdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan bölgədə söz sahibidir

**Mayın 9-10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Şuşa, Xocalı və Ağdam şəhərlərinə növbəti səfəri oldu. Səfər çərçivəsində bir sıra obyektlərin açılışı və yeni yaşayış kompleksinin təməlqoyma mərasimi keçirildi.**

Bu barədə qəzetimizə açıqlama verən Milli Məclisin deputatı Zaur Şükürov qeyd edib ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işlərini daim diqqətdə saxlayaraq, mütəmadi şəkildə bu bölgəyə səfərləri və yeni-yeni infrastruktur layihələrinin açılışında iştirak etməsi öz evlərindən didərgin düşmüş həmvətənlərimizə ata-baba yurdlarına, dilbər Qarabağa qayıtmaq sevinci yaşadır. "Azərbaycanın mədəniyyət beşiyi sayılan, 2020-ci il noyabrın 8-də işğaldan azad edilmiş Şuşada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq prosesi çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin, Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında, həmçinin yeni inşa olunacaq dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Müasir standartlara cavab verən Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin və planlaşdırma, habelə bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunan Daşaltı kənd məscidinin təməlləri 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Daşaltı kənd məscidinin inşası Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun həyata keçirilib. İşğal dövründə dağıdılan məscidlərimizin bərpası, yeni dini ocaqların inşası Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisidir",- deyə siyasətçi əlavə edib.



Deputat xatırladıb ki, tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunan Şuşa şəhərinə indiyədək 376 ailə, ümumilikdə isə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb. Mayın 9-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı baş tutub. 3200 KVA gücündə olan "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirməyə imkan verəcək.

Z.Şükürov vurğulayıb ki, Ermənistanın işğalçılıq və vandalizm siyasəti nəticəsində tamamilə dağıdılaraq "Qafqazın Xirosiması"na çevrilmiş və Azərbaycan Prezidenti İlham Əliyevin misilsiz sərkərdəliyi, ordumuzun şücaəti sayəsində işğaldan azad edilmiş Ağdama həyat yenidən qayıdır: "Quruculuq işlərinin uğurla həyata keçirildiyi ərazilərdən biri də rayonun Kəngərli kəndidir. Dövlət başçısının mayın 10-da Ağdam rayonuna səfəri çərçivəsində Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak etdi. Kəngərli kəndi ümumilikdə bərpa edilmiş sayca 14-cü yaşayış məntəqəsidir. Ağdam rayonunda isə Sarıcalı kəndindən sonra ikinci bərpa olunmuş kənddir. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu kənd 2544 nəfər üçün planlaşdırılıb və layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Kəngərlidə də əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə bir sıra müxtəlif təyinatlı obyektlər tikilib, daxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Ölkə rəhbəri bu səfəri çərçivəsində Kəngərlidə şagirdlərin layiqli təhsil almaları üçün bütün şəraitin nəzərdə tutulduğu 484 şagird yerlik tam orta məktəbin, 20 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib, həmçinin yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub. Birinci mərhələ üzrə bu əraziyə 1279 nəfərin köçürülməsi planlaşdırılır".

Prezident İlham Əliyev əvvəlki səfərlərində olduğu kimi, bu səfəri zamanı da sakinlərlə görüşüb və səmimi söhbət zamanı, uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq kimi xoşbəxt, tarixi anlar münasibətilə onları təbrik edib: "Siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız. Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır".

Z.Şükürov qeyd edib ki, mənfur düşmənin ərazilərimizdə törətdiyi vandalizm siyasəti bir məqsəd daşıyırdı - azərbaycanlılar bir daha bu ərazilərə qayıda bilməsinlər və torpaqlarımızı daim işğal altında saxlasınlar. Prezidentimizin qeyd etdiyi kimi: "Düşmənə mənəvi və maddi dəstək verən bəzi ölkələr də onlarla həmrəy idi. Amma onlar bir şeyi unudurdular ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan vətəndaşları heç vaxt öz doğma torpaqlarını unutmayacaq və Azərbaycan dövləti ayağa qalxacaq, güc toplayacaq və düşməni öz torpağından qovacaq. Bunu onlar hesablaya bilməmişlər".

Prezident İlham Əliyevin Ağdam Dəmir Yolu, Avtovağzal Kompleksi və Ağdam Muğam Mərkəzinin açılışında iştirak etdiyini xatırladan deputat əlavə edib ki, Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək. "Ağdam Muğam Mərkəzinin təməli isə 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. 474 yerlik konsert zalı, 615 tamaşaçı tutumu olan açıq amfiteatrı, 15 dərs otağı olan bu mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

Deputat qeyd edib ki, işğaldan azad edilmiş ərazilərimizə səfəri zamanı Prezident İlham Əliyevi birinci xanım Mehriban Əliyevanın daim müşayiət etməsi, xüsusilə zəngin mədəni irsimizin bərpası məsələsini diqqətdə saxlaması qürurvericidir. Muğam sənətinin təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu mühüm töhfələr verir. Fondun təşkilatçılığı və dəstəyi ilə bu istiqamətdə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr həyata keçirilir. Bu layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınıb. Ölkə rəhbərinin iş qrafikində artıq davamlı xarakter daşıyan bu səfərlər xüsusilə onunla xarakterikdir ki, işğaldan azad olunmuş ərazilərimizdə yeni obyektlərin açılışı və ya bünövrəsinin qoyulması Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü gündə baş tutdu. Bütün həyatını vətənimiz Azərbaycanın inkişafına həsr etmiş, fəaliyyəti dövründə ölkəmizdə saysız-hesabsız infrastruktur layihələrinin, istehsal müəssisələrinin əsasını qoymuş Ümummilli Liderin anadan olduğu gündə Qarabağımızda yeni obyektlərin açılışı həyata keçirildi. Prezident İlham Əliyevin Muğam Mərkəzinin açılışında çıxışı zamanı səsləndirdiyi fikirlər bu baxımdan xüsusilə diqqət çəkir: "Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əseridir. Məhz onun 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Deputat vurğulayıb ki, bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin banisi, Ulu Öndər Heydər Əliyevin xalqımız və vətənimiz qarşısında misilsiz xidmətləri və ölkəmizin gələcək inkişafına hesablanmış uzaqgörən siyasəti, bu siyasi kursun məhz Prezident İlham Əliyev tərəfindən son dərəcə uğurla davam etdirilməsi nəticəsində nəinki erməni faşizminin ərazilərimizdə kökünü kəsmək mümkün oldu, eyni zamanda işğaldan azad olunmuş ərazilərimizin dirçəldilməsi, inkişafı, uzun illər köçkün həyatı yaşamış həmvətənlərimizin, nəhayət, böyük sevinc və minnətdarlıq hissi ilə öz ata-baba yurdlarına qayıtması gerçəkləşdi. Dünyada uzun müddət davam edən çoxsaylı münaqişələri hətta dünya güclərinin belə həll etmək iqtidarında olmadığı bir dönəmdə məhz Prezident İlham Əliyevin müdrik liderliyi sayəsində torpaqlarımızın işğalına son qoyulması və davamlı inkişafa nail olunması əminliklə söyləməyə əsas verir ki, Azərbaycan daha qüdrətli və çiçəklənən bir ölkəyə çevriləcək, xalqımızın rifah halı daim yüksələcək.



***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qərbi azərbaycanlı qadınlar doğma yurda qayıdış hərəkatında fəallıq göstərirlər

**İndi Ermənistan adlandırılan qədim Qərbi Azərbaycandan, o sıradan İrəvan şəhərindən, kənd və qəzalardan ötən əsrin əvvəllərində daşnaksütyun silahlıları və bolşevik birləşmələri tərəfindən zorla qovulan, hətta 1948 və 1953-cü illərdə dövlət səviyyəsində məcburi deportasiyaya məruz qalan insanlar əzəli yurd yerlərinə qayıtmaq arzusu ilə yaşayırlar. Bu israrlı tələbin reallaşması üçün Qərbi Azərbaycan İcması, o cümlədən icmanın Qadınlar Şurası böyük fəallıq göstərir.**

Şuranın təşkilatçılığı ilə bu günlər onlayn formatda "Qaçqınlıq və Qadınlar" mövzusunda keçirilən beynəlxalq konfransda qərbi azərbaycanlı qadınların etnik təmizləməyə məruz qalmaları və öz yurdlarına qayıda bilməmələrindən irəli gələn hüquq pozuntularından, haqqın-ədalətin bərpasında tarixi faktlar və arxiv sənədləri barədə əsaslı məlumat verilmişdir. Sonda konfrans iştirakçıları adından beynəlxalq ictimaiyyətə müraciət qəbul edilmişdir. Müraciət BMT-nin Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılmışdır. Təbii ki, sənədin BMT-nin ali orqanlarının rəsmi sənədi kimi yayılması Qərbi Azərbaycan məsələsi üzrə beynəlxalq məlumatlılığın artmasında mühüm rol oynayacaq.

Şura üzvləri mədəni irsin qorunması, tarixi abidələrin bərpası, habelə öz dədə-baba yurdlarından zorla qovulan ailələrin geri qayıdışı üçün Ermənistan hökumətindən sivil qaydada lazımi şərait yaradılmasını, beynəlxalq səviyyədə təminat verilməsini tələb edirlər və öhdələrinə düşən vəzifələri yerinə yetirmək üçün haqq səslərini bütün dünyaya çatdırırlar. Bu baxımdan mayın əvvəlində Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası, ABŞ-nin Şimali Karolina Universitetinin Sülh və Münaqişə Araşdırmaları Departamenti və Amerika-Türkiyə Assosiasiyası Assambleyasının birgə təşkilatçılığı ilə "Dəyişən dünyada birgə və sülh şəraitində yaşamağın mümkünlüyü" mövzusunda keçirilən növbəti onlayn beynəlxalq konfransının böyük əhəmiyyəti var. 10-dan çox xarici ölkədən 200-ə yaxın iştirakçının qatıldığı konfransda dünyanın tanınmış siyasətçiləri, vətəndaş cəmiyyəti liderləri, ABŞ, Kanada və İspaniya kimi ölkələrin nüfuzlu universitetlərinin alim və mütəxəssisləri çıxış etmişlər. Sonda konfrans iştirakçıları adından qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunması ilə bağlı BMT-yə və digər beynəlxalq təşkilatlara müraciətlər göndərilmişdir.

Qadınlar Şurası ölkəmizin bölgələrində də maarifləndirici tədbirlər keçirir. Bu sıradan növbəti tədbir Ağsaqqallar Şurası, İcbari Tibbi Sığorta Dövlət Agentliyi və TƏBİB nümayəndələrinin iştirakı ilə Tərtər rayonunda baş tutub. Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə tibbi humanitar aksiya çərçivəsində rayonun Bəyimsarov kəndində məskunlaşmış Qərbi Azərbaycanəsilli qaçqınların tibbi müayinəsi aparılıb.

Daha sonra şəhid ailələri ziyarət edilib. Tədbir çərçivəsində həmçinin görkəmli oftalmoloq-alim, tanınmış səhiyyə təşkilatçısı, akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr edilmiş "ZƏRİFƏ ƏLİYEVA: Əbədi İşıq Mücəssəməsi" mövzusunda konfrans keçirilib. Konfransın moderatoru, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədri Məlahət İbrahimqızı, Milli Məclisin deputatı, Səhiyyə komitəsinin sədri, icmanın Ağsaqqallar Şurasının sədri akademik Əhliman Əmiraslanov, icmanın idarə heyətinin üzvü, ADPU-nin prorektoru professor Mahirə Nağıqızı, İcbari Tibbi Sığorta Dövlət Agentliyi idarə heyətinin sədri Zaur Əliyev və başqaları akademik Zərifə xanım Əliyevanın ömür yolundan, yüksək nailiyyətlərindən, peşəsinə sevgisindən danışıblar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

15 May Beynəlxalq Ailə Günüdür

# Azərbaycanda ailə ənənələri hər zaman yaşayacaq

**Bu gün Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Bu əlamətdar gün Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən keçirilir. Ölkəmiz bu ənənəyə 2008-ci ildən qoşulub. Azərbaycanda ailə bayramının qeyd edilməsi dövlət qadın siyasətinin bariz nümunəsidir.**



"Ailə - kiçik bir dövlətdir", - deyirlər. Heç zaman mahiyyətini itirməyən bu müdrik fikir ailənin həm də cəmiyyətin, dövlətin var olmasında, inkişafında rolunun nə qədər əhəmiyyətli olduğunu ifadə edir. Böyük dövlətin məğlubedilməzliyini, təməlinin sarsılmazlığını, sayılıb-seçilməsini, işıqlı gələcəyini müəyyənləşdirənlər, təmin edənlər bu kiçik dövlətin yetişdirdiyi insanlardır.

Azərbaycan xalqı hər zaman ailə dəyərini yüksək tutub. Hər bir ailədə böyüklər kiçiklərə məsləhət, nəsihət verməzdən öncə öz davranışları ilə onlara nümunə olmağa çalışıblar. Azərbaycan ailələrində uşaqlar ağılları kəsməyə başlayandan görüblər ki, böyüklərə ehtiram göstərmək, sözlərinə qulaq asmaq yalnız onlardan tələb olunmur. Bu qaydalara, demək olar ki, yaş ardıcıllığı ilə hər kəs riayət edir.

Azərbaycan ailələrində bineyi-qədimdən ən çox diqqət göstərilən məsələlərdən biri də eyni vaxtda süfrə ətrafında toplaşmaqdır. Adətən, analar ailə başçısı evə gəlməyincə, süfrə açmayıblar. Böyüklərin yeri həmişə süfrənin başında olub. Onlar əl uzatmayınca kiçiklər yeməyə başlamayıblar. Azərbaycan ailələrinin əksəriyyətində bu günədək belədir.

Ailə böyükləri də öz növbələrində kiçiklərə diqqət, qayğı göstərirlər, gecə-gündüz çalışır, ağır zəhmətə qatlaşırlar ki, övladları heç nədən korluq çəkməsinlər, özlərini həyatda arxalı hiss etsinlər, həm maddi, həm də mənəvi baxımdan rahat yaşasınlar. Bu qayğıkeşlik, fədakarlıq uşaqlarda valideynlərinə, nənə-babalarına qarşı bağlılığı, sevgini möhkəmləndirir. Doğmaları yaşa dolub fiziki imkanları məhdudlaşanda da övladlar onlara dayaq olur, qayğısını çəkirlər.

Valideynlər yalnız uşaqlarını boya-başa çatdırmaqla, yaxşı təhsil almalarına, peşə, sənət öyrənmələrinə nail olmaqla vəzifələrini bitmiş hesab etmirlər. Ailə quranda da maddi ehtiyac ucbatından çətinliyə düşməmələri üçün müəyyən hazırlıqlar görürlər. Toy adət-ənənələrimizə çevrilmiş nişanlı qızlara oğlan evi tərəfindən geyim, bəzək əşyaları, yaxud qız tərəfinin ev əşyaları almaları da bu düşüncədən irəli gəlib. Yəni qədimdə oğlan evi də, qız evi də ailə quran gənclərə, adətən, lazımi məişət əşyaları, eləcə də gündəlik həyatlarında, toy-bayramlarda geyinib-kecinmək üçün libaslar, bər-bəzəklər alıblar. İsrafçılıq həmişə yolverilməz hesab edilib. Odur ki, cer-cehizi təmtəraq, nümayiş etdirmək üçün deyil, gənclərə gərək olacağına görə alıblar. Yeni evlənənlər ilk gündən adi məişət problemləri ilə üzləşməyiblər.

Əfsuslar olsun ki, yalnız xeyirxahlıq, qayğıkeşlik, zərurət məqsədi daşıyan bu adət-ənənəni sonralar bir çoxları davam etdirmək adı ilə ifrata varıb, əndazəni aşıblar. Maddi imkanı olanlar da, olmayanlar da bahalı geyimlər, zinət əşyaları, cehiz alırlar. Hətta bunun üçün borca düşən, kredit götürən valideynlər də az deyil. Nəticədə özləri üçün, bəzən hətta yeni evlənən gənclər üçün problemlər yaradırlar. Gənc ailələrin möhkəmlənməsində maneəyə çevrilən yeganə səbəb isə, əlbəttə ki, bu, deyil.

Təəssüflə qeyd edək ki, ölkəmizdə boşanma hallarının sayında azalma müşahidə olunmur. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 2024-cü il ərzində ölkədə 49 min 508 nikaha daxilolma və 21 min 384 boşanma halları qeydə alınıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. O da qeyd olunub ki, 2023-cü illə müqayisədə 2024-cü ildə əhalinin hər min nəfərinə nikahların sayı azalaraq 5,3-dən 4,9-a düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.

Dövlət Statistika Komitəsi 2025-ci ilin yanvar-fevral aylarında qeydə alınan nikah və boşanmaların sayını da açıqlayıb. Bildirilib ki, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 7741 nikah və 3414 boşanma halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,0-dan 4,7-yə qədər artıb, boşanmaların sayı isə eyni səviyyədə (2,1) qalaraq dəyişməyib.

Boşanmaya aparıb çıxaran səbəblər müxtəlifdir. Elmi-texniki tərəqqi əsrində yaşayırıq. Sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Ailələrdə münaqişələrin artmasında sosial şəbəkələrin rolu da danılmazdır. Mütəxəssislər bununla yanaşı, boşanmalarda başqa amillərin - maddi səbəblərin, valideynlərin müdaxiləsinin, uşağın olmamasının, məsuliyyətsizliyin, xəyanətin, yalan danışmağın, həddən artıq qısqanclığın, zərərli vərdişlərə aludəçiliyin mənfi rol oynadığına diqqəti çəkirlər.

Əlbəttə, boşanma halları yalnız gənc ailələrdə baş vermir. Boşananlar arasında hətta uzun müddət evli olanlar da var. Mütəxəssislər belə ailələrin dağılmasının arxasında, əsasən, sosial, iqtisadi və psixoloji faktorların dayandığını nəzərə çatdırırlar.

Hətta oxşar görünən ailələrin də hər birinin öz daxili qayda-qanunları var. Amerika filosofu, esseisti və şairi Ralf Uold Emerson "Ailə kralların belə girə bilmədiyi bir qaladır" deyib. Qədim Azərbaycan xalqının ənənələrinə görə, ailə qalasında baş verənləri çox zaman onun hüdudlarından kənara çıxarmaq məqbul hesab edilmir. Yəni atalarımızın dediyi kimi: "Söz var, ev içində, söz var, el içində". Ancaq təəssüflə vurğulamalıyıq ki, bu məqamı unudanlar az deyil. Ailədə yaranan kiçik narazılıqlardan belə bütün qohum-qonşu xəbərdar olur. Çünki ailə üzvləri öz aralarında müzakirə etməli olduqları narazılıqları, narahatlıqları dərhal başqalarına danışırlar. Məsləhətli don isə həmişə gen olmur. Bəzən kənar müdaxilələr ailədəki vəziyyəti daha da gərginləşdirir, çıxılmaz yola aparır.

Azərbaycan xalqı çox müdrikdir, yüksək dəyərlərə malikdir. Mənəvi zənginliyini heç zaman itirməz, eləcə də aşınmaya məruz qalmasına yol verməz. Ailə bu dəyərlərin başında gəlir. Zaman nə qədər dəyişirsə dəyişsin, ölkəmizdə ailə ənənələri hər vaxt yaşayacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Hər şey ailədən başlayır...

**Milli-mənəvi dəyərlər əsasında formalaşan hər bir cəmiyyətin təməl daşı ailədir. O, insanın yaşamağı və var olmağı öyrəndiyi yerdir. Ailə dəyərlərinin qorunub gələcək nəsillərə ötürülməsi, ailədə mehribanlığın, sağlam həyat tərzinin təbliği məqsədilə BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993-cü il tarixli qətnaməsinə müvafiq olaraq 1994-cü ildən hər il mayın 15-i Beynəlxalq Ailə Günü kimi qeyd edilir. Ölkəmiz bu ənənəyə 2008-ci ildən qoşulub.**

Azərbaycanda ailə dəyərlərinin qorunması və təbliği, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur" deyən Ümummilli Liderin böyük diqqət yetirdiyi dövlət ailə siyasəti uğurla davam etdirilir, ölkəmizdə möhkəm təməlli ailə ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülür.

## Ənənəvi dəyərlərin qorunması

Ölkəmizdə ailə siyasətinin necə həyata keçirilməsi ilə bağlı sualları cavablandıran Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bildirildi ki, ailədaxili münasibətlərin, ailə dəyərlərinin, yaşlı nəslə hörmət və məhəbbətin qorunub saxlanılması istiqamətində ardıcıl olaraq genişmiqyaslı layihələr reallaşdırılır. Komitənin fəaliyyətində prioritet istiqamətlərdən biri həssas qruplardan olan aztəminatlı ailələrlə işin aparılmasıdır. Bu istiqamətdə aztəminatlı ailələrin sosial problemlərinin həlli üçün aidiyyəti orqanlarla birlikdə tədbirlərin görülməsinə, uşaqların sağlam mühitdə böyüməsinə, onların müasir tələblər səviyyəsində təhsil almasına, zorakılıqdan müdafiəsinə, xüsusilə də həssas qrupdan olan uşaqlar üçün bütün imkanların təmin edilməsinə önəm verilir. Buna görə də komitəyə daxil olan müraciətlər əsasında, həssas qrupdan olan ailələrlə mütəmadi olaraq bir sıra işlər aparılır.

Komitənin Ağdam, Goranboy Uşaq və Ailələrə Dəstək mərkəzlərinin birgə təşkilatçılığı ilə 2021-ci ildən etibarən "Uşaq və ailələrə psixososial dəstək" layihəsi həyata keçirilir. Sözügedən layihənin əsas məqsədi müharibədən zərər çəkmiş, böhran vəziyyətində olan uşaq və ailələrin psixososial rifahını yaxşılaşdırmaq, uşaqların emosiya və hisslərini ifadə etməsinə kömək göstərmək, onlarda stressə davamlılığı gücləndirmək, özünüqiymətləndirmə bacarığını və fəaliyyət qabiliyyətini yüksəltməkdir. Uşaqlarla yanaşı, onların valideynləri ilə də psixoloji maarifləndirmə işi aparılır. Sosial pedaqoqlar tərəfindən valideyn bacarıqları, böhran vəziyyətində uşaqlara psixososial yardımın göstərilməsi, valideyn-övlad münasibətləri və sairə mövzularda təlimlər keçirilir.

İşğaldan azad edilmiş ərazilərimizdə də Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq sahəsində problemlərin həlli, habelə hədəf qruplarının müvafiq xidmətlərlə əhatəsinin gücləndirilməsi məqsədilə, "İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan ailələr və uşaqlarla psixososial işin təşkili" layihəsini uğurla həyata keçirir. 2024-2025-ci illərdə layihə çərçivəsində Füzuli, Zəngilan, Laçın, Xocalı və Cəbrayıl rayonlarında uşaq və valideynlərin iştirakı ilə 16 təlim keçirilib. Ünsiyyət bacarıqlarının artırılması məqsədilə keçirilən təlimlərdə ümumilikdə 420 nəfər (210 nəfər uşaq, 210 nəfər valideyn) iştirak edib.

Bu il mayın 15-də komitə tərəfindən Beynəlxalq Ailə Gününə həsr olunmuş "Ənənəvi dəyərlərin və ailə institutunun qorunması təhsil prosesində vacib amil kimi" mövzusunda konfrans baş tutacaq. Konfransın keçirilməsində əsas məqsəd cəmiyyətin əsas özəyi olan və milli-mənəvi dəyərlərə əsaslanan ailənin genofondun qorunmasına cavabdehlik daşıyan, sosial və mənəvi əminliyi təmin edən əsas təsisat olaraq qorunmasının təbliğ edilməsi, eləcə də təhsil prosesində gənclərin ailə institutunun dərk edilməsi, sosial və mədəni dəyərlərin təbliğ və dayanıqlı ailə institutunun qorunub saxlanılmasının təşviq edilməsidir.

## Sağlam təməl

Sağlam ailə dedikdə ilk növbədə qarşılıqlı hörmət, emosional dayaq, güvən və məsuliyyət üzərində qurulmuş bir sistemin nəzərdə tutulduğunu deyən Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmovun sözlərinə görə, ailə təkcə qan bağlılığı ilə yox, ruhən bağlılıq və qarşılıqlı dəstək üzərində formalaşır: "Sağlam ailə cəmiyyətin psixoloji sabitliyinin əsas təminatçısıdır. Ailədə formalaşan dürüstlük, sədaqət, əməksevərlik və qarşılıqlı yardım kimi dəyərlər birbaşa vətəndaş tərbiyəsinə təsir edir. Əgər sağlam ailə modeli cəmiyyətin əksəriyyətində mövcuddursa, bu o deməkdir ki, biz sosial riskləri minimuma endirmişik".

Ailə dəyərlərinin övladlara ötürülməsinin uzunmüddətli psixopedaqoji proses olduğunu söyləyən psixoloq bildirib ki, uşaqların ən güclü öyrənmə mexanizmi müşahidədir. Yəni valideynin davranışı uşaq üçün modeldir. Psixoloji tədqiqatlar göstərir ki, 0-7 yaş dövrü uşağın əsas şəxsiyyət strukturunun formalaşdığı dövrdür. Bu illərdə ailə dəyərləri sağlam şəkildə aşılanarsa, gələcəkdə daha sabit və dəyəryönümlü gənclik formalaşır. Bu baxımdan valideynlərə övladları ilə səmimi və şəffaf ünsiyyət qurmaq, ailə daxilində emosional təhlükəsizlik mühiti yaratmaq, qaydaların məntiqli və yaşa uyğun tətbiqi, həm tənbeh, həm təşviqin balanslı şəkildə tətbiqi tövsiyə olunur.

"Ailə dəyərlərinin qorunması təkcə ailənin vəzifəsi deyil. Bu, bütövlükdə dövlətin, təhsil sisteminin, medianın və vətəndaş cəmiyyətinin birgə fəaliyyətini tələb edən çoxşaxəli məsələdir. Ailədaxili münasibətlərin möhkəmləndirilməsi üçün psixoloji maarifləndirmə, valideyn-övlad münasibətlərində "nəzarət yox, rəhbərlik" prinsipi, eləcə də qadın və kişinin birgə məsuliyyətə sahib olduğu ailə modeli formalaşdırılmalıdır. Eyni zamanda məktəblərdə ailə dəyərlərinə həsr olunmuş kurikulumlar ("Ailə psixologiyası" fənni formasında) məktəb psixoloqları vasitəsilə ailə-şagird əlaqəsinin gücləndirilməsi istiqamətində işlər aparılmalıdır. Eləcə də uşaqlara empatiya, əməkdaşlıq və emosional tənzimləmə bacarıqları aşılanmalıdır. Cəmiyyətdə və dövlət səviyyəsində sosial reklamlar və ailə mövzusunda maarifləndirici verilişlər, ailələr üçün psixoloji və hüquqi məsləhət mərkəzlərinin yaradılması faydalı olardı. Bu cür sistemli yanaşmalar həm ailələrin dağılmasının qarşısını alır, həm də sağlam nəsillərin formalaşmasına şərait yaradır", - deyə mütəxəssis bildirib.

Müasir dövrdə ailə dəyərlərinin qarşısında duran başlıca təhlükələrdən biri sürətlə dəyişən informasiya mühitidir. Elnur Rüstəmov qeyd edib ki, sosial media vasitəsilə qeyri-real və dəyərdən uzaq ailə modellərinin təbliği ailədaxili gözləntiləri pozur. Eləcə də ailədaxili şiddət dəyərlərin və emosional təhlükəsizliyin pozulmasına səbəb olur. Digər tərəfdən, mədəni qloballaşma da milli-mənəvi dəyərlərin zəifləməsinə gətirib çıxarır. Bu təhlükələrin qarşısını almaq üçün atılmalı olan əsas addım ailədaxili kommunikasiya bacarıqlarının təbliğidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycan dünyada daha bir strateji sahə üzrə mərkəzə çevrilir

## Gələn ildən "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri "AgriWeek" brendi altında keçiriləcək



*Əvvəli 1-ci səh.*

Uzaq Cənubi Koreya üç şirkətin təmsil olunduğu stendi ilə buradadır. Kənd təsərrüfatı məhsulları sahəsində tanınmış bu şirkətlər meyvəsoyma və emal avadanlıqları, meyvə-bağçılıq materialları üzrə ixtisaslaşıblar. Biri isə həm də süni intellektə əsaslanan sistemlə "ağıllı heyvandarlıq" monitorinqi və idarəetməsi sahəsində xidmətlərini təklif edir.

Əlbəttə, sərgilərdə ölkəmizin də nailiyyətləri öz geniş əksini tapır. Nəticədə Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin daha da inkişafına, ölkənin ixrac potensialının artırılmasına, xarici investisiyaların cəlb edilməsinə imkan yaranır. Bu sərgilər eyni zamanda qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır.

Qeyd edək ki, Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla da tanış olub.

Önəmli olan həm də odur ki, sözügedən sərgilər çərçivəsində bir sıra digər tədbirlər də keçirilir. Misal olaraq deyək ki, "Caspian Agro" sərgisi çərçivəsində "Təbiət naminə ölkələri səfərbər edən kənd təsərrüfatı" mövzusuna həsr olunmuş II Beynəlxalq Aqrar İnnovasiya Forumu baş tutub.

"Bakı COP29-dan sonra dünya: İqlim dəyişikliyində nailiyyətlər, perspektivlər və imkanlar". Forumun panel sessiyalarından biri belə adlanırdı. Gürcüstanın ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri Davit Sonqulaşvili Azərbaycanın evsahibliyi etdiyi COP29-un iqlim dəyişikliyi ilə mübarizə işinə mühüm töhfə verdiyini, aqrar sahənin dayanıqlı inkişafına, investisiya və ticarətə yeni imkan və fürsətlər yaratdığını deyərək əslində həmin mötəbər tədbirin mühüm əhəmiyyətini bir daha diqqətə çatdırıb.

Sonrakı çıxışlarda da COP29 mövzusu aparıcı olub. İqlim dəyişikliyi fonunda təbii resurslardan səmərəli istifadənin əhəmiyyəti vurğulanıb. Azərbaycanda keçirilən COP29 tədbirinin qlobal iqlim dəyişikliyi ilə effektiv mübarizə sahəsində mühüm başlanğıc olduğu qeyd edilib.

Məlumdur ki, iqlim dəyişikliklərinin kənd təsərrüfatına mənfi təsirləri olduqca böyükdür. Bunun dünyanın hər yerində ərzaq və su təhlükəsizliyinə təhdidlər yaratdığından qlobal əməkdaşlıq vacibdir. Odur ki, COP29-dakı tədbirlər də kompleks xarakter daşıyırdı. Orada iqlim dəyişikliklərinə ən həssas qrup olan fermerlərin maliyyə resurslarına çıxışının artırılması, ağıllı və iqlimə-davamlı kənd təsərrüfatı və ərzaq sistemlərinin yaradılması üçün baza formalaşdırıldı. Ümumiyyətlə, Azərbaycanın ekoloji, ətraf mühit və kənd təsərrüfatı ilə bağlı siyasətinin beynəlxalq konvensiya və protokollara uyğunluğu, COP29 çərçivəsində inkişaf etdirilmiş təşəbbüslərdə aparıcı mövqe sərgiləməsi ölkəmizin aqro-iqlim diplomatiyası üzrə regional və qlobal mərkəzə çevrilməsi üçün unikal imkan yaradıb.

"Ağıllı kəndlərin inkişaf perspektivləri: sistemli və institusional aqro və "yaşıl" yanaşmalar diplomatların gözü ilə", "İqlim dəyişikliyinin təsirinə qarşı kənd təsərrüfatı səylərinin birləşdirilməsi: qlobal çağırışlar, imkanlar və həll yolları" kimi günün tələblərini əks etdirən mövzularının müzakirəsi də keçirilən tədbirlərin sanbalından xəbər verir. Əlavə edək ki, sözügedən forumun sessiyalarında ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar innovasiyaların rolu, məhsuldarlığın artırılmasında innovativ həllərin tətbiqi, torpaq və su resurslarından daha səmərəli istifadə yolları, iqlim dəyişikliyinə qarşı mübarizə tədbirləri və bu sahədə qlobal əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb. Ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, tətbiq edilən innovativ həllər və əldə olunmuş nəticələr barədə informasiya-məsləhət xarakterli məlumatlar iştirakçılarla bölüşülüb.

Bir mühüm yenilik də var. Sərgilərin miqyasını və sərgi çərçivəsində təşkil olunan tədbirlərin zəngin proqramı nəzərə alınaraq, "Caspian Agro" və "InterFood Azerbaijan" 2026-cı ildən etibarən yeni "AgriWeek" brendi altında keçiriləcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Media subyektlərinin nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib





**Bakıda İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA), Medianın İnkişafı Agentliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) və Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON Holdinq) tərkibində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin birgə tərəfdaşlığı ilə media subyektlərinin nümayəndələri üçün kibertəhlükəsizlik mövzusunda təlim keçirilib.**

AZƏRTAC xəbər verir ki, təlimin keçirilməsində məqsəd media nümayəndələrini müasir kibertəhlükələr barədə məlumatlandırmaq, onların bu təhdidlərə qarşı daha dayanıqlı və hazırlıqlı olmasına töhfə verməkdir.

Təlimdə Prezident Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, İRİA-nın İdarə Heyətinin sədri Fərid Osmanov, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, ETX-nin rəisi Samir Rəsulov çıxış ediblər. Çıxışlarda media sahəsində baş vermiş mövcud kiberinsidentlər və kiberdayanıqlıq səviyyəsi məsələlərinə toxunulub, eyni zamanda media subyektlərində İT infrastrukturunun təkmilləşdirilməsi və kibertəhlükəsizlik tədbirlərinin gücləndirilməsinin vacibliyi önə çəkilib.

50-dən çox media subyektinin nümayəndəsinin iştirak etdiyi təlim sessiyalarında müvafiq qurumların aidiyyəti sahə üzrə ekspertləri, həmçinin İsrailin "Technion" Texnologiya İnstitutunun və Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin təlimçisi tərəfindən kiberdayanıqlılıq, kiberinsidentlərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər, fişinq və sosial mühəndislik texnikaları, media qurumlarının sosial media hesablarının qorunması, təhlükəsizlik üçün tövsiyə olunan bulud xidmətləri kimi media üçün mühüm əhəmiyyət kəsb edən məsələlərə toxunulub.

Hər sessiyanın sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# REGİONLAR

## Ağsaqqal şahidlik edir

### Cəlilabadlı Bağış kişi ötən əsrin 70-ci illərindən üzü bəri olub-keçənləri xatırlayır

**"87 yaşın içindəyəm. Yaşıma görə çox görmüşəm. 60-cı illərdə Cəlilabad respublikamızın taxılçılıq sahəsində ən qabaqcıl rayonlarından biri olsa da, burada quruculuq işləri yox səviyyəsində idi. Rayon mərkəzinin özündə belə tək-tək daşdan tikilən ev tapa bilərdin. Əhalinin 90 faizindən çoxu çiy kərpicdən tikilən alçaq, bir-iki otaqdan ibarət evlərdə yaşayırdı. Cəlilabad şəhərinin küçə və yolları bərbad vəziyyətdə idi. Yağışda-qarda bu küçələri keçib getməkdə adamlar da, maşınlar da əziyyət çəkirdilər".**



Bu, cəlilabadlı ağsaqqal Bağış Mustafayevin xatirələridir. Əmək veteranı sözünə davam edir: "Pis günün ömrü az olar", - deyiblər. 1969-cu ildə Ulu Öndər Azərbaycana rəhbər seçiləndən dərhal sonra respublikanın hər yerində olduğu kimi, Cəlilabadda da canlanma əmələ gəldi. Hələ respublikanın Dövlət Təhlükəsizlik Komitəsində işləyərkən Heydər Əliyev sərhəd rayonu olduğundan Cəlilabada tez-tez gəlib-gedərdi. MK-nın birinci katibi işləyərkən bu əlaqə daha da genişləndi. Rayonun inkişafı üçün mühüm qərarlar qəbul edildi. Taxılçılıqla yanaşı, üzümçülük sahəsində böyük işlər görüldü - ucsuz-bucaqsız üzüm bağları salındı, şərab zavodları tikildi. Cəlilabad rayonunda 1981-ci ildə bütövlükdə Ermənistanda istehsal edildiyindən çox üzüm istehsal olundu. Bu, rayon iqtisadiyyatının ümumi inkişafı demək idi. Tikinti-quruculuq, abadlıq işləri heç vaxt olmadığı səviyyəyə çatdırıldı. Cəlilabad şəhərinin, qəsəbə və kəndlərinin siması getdikcə dəyişdi. Yeni müəssisələr, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, ictimai binalar, yaşayış evləri inşa edildi, yollar asfaltlaşdırıldı. Təsərrüfatın ayrı-ayrı sahələrində qazanılan yüksək nəticələrə görə onlarla qabaqcıl əmək adamı Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü, orden və medallarla təltif olundu.

O vaxt Ulu Öndər işlərinin çoxluğuna baxmayaraq, yenə Cəlilabada tez-tez səfərlər edir, əhali ilə görüşlər keçirir, əmək qabaqcılları və ictimaiyyət nümayəndələri ilə fikir mübadiləsi edirdi. Onda mən təsərrüfat rəhbəri işləyirdim. Rayon Partiya Komitəsinin birinci katibi İbrahim Qurbanovun göstərişinə əsasən, biz də təsərrüfat rəhbəri kimi həmin tədbirlərdə iştirak edirdik".

Bağış kişi ara verir. Sonra maraqlı bir hadisə danışır: "Heydər Əliyev həm də mahir insanşünas idi. O, iş üstündə həmişə bizimlə dost kimi görüşər, səmimiyyət göstərərdi. Xatirimdədir, 1981-ci ilin yanvarında Azərbaycan SSR Ali Sovetinin deputatı Zinaida Strelsovanın briqadasının ikimərtəbəli tarla düşərgəsində Privolnoye kəndinin əmək adamları ilə keçirdiyi görüşdə Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı Mürsəl Məmmədovun həyat yoldaşı, "Qəhrəman ana" taxılçı Firuzə Məmmədovanı yanına çağırıb hal-əhval tutdu, uşaqları soruşdu və birdən üzünü Z.Strelsovaya tutdu:

- Neçə uşağınız var?

Zinaida utana-utana:

- Üç uşağım var.

Heydər Əliyev özünəməxsus bir tərzdə gülümsəyib dedi:

- Bax odur, Nüsrət Məmmədovun 16 övladı var. Yarış dostunuzdan nümunə götürün.

Hamımız gülüşdük, ürəyimiz açıldı. Bu söhbətdən bir il sonra Heydər Əliyev Moskvaya getdi. Sonrası məlumdur. Yenidənqurma, aşkarlıq, antialkoqol kampaniyası. Ardınca 20 Yanvar faciəsi, Xocalı soyqırımı, torpaqlarımızın işğalı... Əlbəttə, Heydər Əliyev o zaman Bakıda olsaydı, Azərbaycanın başına bu müsibətlər gəlməzdi. Ermənilərin toruna düşən, onların hiyləsinə uyan M.Qorbaçov çirkin yollara əl ataraq Heydər Əliyevi ölkənin, partiyanın rəhbərliyindən uzaqlaşdırdı.

Gec də olsa, haqq öz yerini tapdı. Azərbaycan xalqının tələbi ilə Heydər Əliyev yenidən hakimiyyətə gəldi. Ulu Öndər möhkəm iradəsi, qətiyyəti, əzmi və mübarizliyi ilə ölkədə baş alıb gedən siyasi qarşıdurmanın, xarici düşmənlərimizdən dəstək alan daxili separatçıların, xaos və hərc-mərcliyin qarşısına sədd çəkib sabitlik yaratdı. Həyata keçirdiyi iqtisadi islahatlar sayəsində xalqın maddi rifah halı yüksəldi. Bu gün qədirbilən xalqımızın bir övladı kimi Heydər Əliyev haqqında keçmiş zamanda danışmaq mənim üçün çox ağırdır. Lakin bir təskinliyim də var ki, Heydər Əliyevin qurub-yaratdığı, uğrunda min bir əzab-əziyyət çəkdiyi, ömrünü-gününü, sağlamlığını qurban verdiyi dövlət etibarlı əllərdədir. Xalqın sevimlisi İlham Əliyevin uzaqgörən siyasəti, möhkəm iradəsi sayəsində 30 il düşmən tapdağı altında qalan torpaqlarımız azaddır. Bu gün həmin torpaqlarda böyük quruculuq işləri aparılır. Qaçqın və köçkünlərimiz öz ata-baba torpaqlarına qayıdırlar".

B.Mustafayevin dedikləri Cəlilabadın hər bir sakininin ürək sözləridir. O sakinlər ki, onlar Azərbaycanın ən ağır günlərində belə, dövlətçiliyimizə, dövlətimizə, onun başçısına sədaqət nümayiş etdirmişlər. Öz ənənələrinə sadiq qalan cəlilabadlılar bu gün də doğma Azərbaycanımızı daha xoşbəxt və firavan günlərə çatdırmaq işində Prezidentin yanındadırlar.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## 5 il əvvəl Qapanlı Tərtərin cəbhə kəndi idi

### İndi isə həmin günlərdən kənd camaatında yalnız acı xatirələr qalıb, hamı təsərrüfat işləri ilə məşğuldur

**Teyyub kişi pambıq sahəsinə çatanda səhər saat 6 olardı. Uzun illərdi ki, o, belə adət etmişdi. Əslində, səhər saatlarında başlanılması elə bir iş də yox idi, hər şey qaydasındaydı. Bitiş yaxşı alınmışdı. Körpə bitkilər sıra ilə düzülərək ürəkaçan qəribə bir mənzərə yaratmışdı. Teyyub kişi başını qaldırıb göyün üzünə baxdı. Qara buludlar yağış yağacağından xəbər verirdi.**

"Təki belə buludlar olsun, bolluq-bərəkət rəmzi olan buludlar", - deyə Teyyub kişi düşündü. "Yaxşı ki üstümüzdən o biri qara buludlar götürüldü", - deyə fikrindən keçirdi. Beş il əvvəl kənd sakinləri beləcə sahəyə gəlib, əkin-biçin işləri ilə məşğul olmağı heç xəyallarına gətirə bilməzdilər. Dərhal düşmən güllləsinə tuş gəlmək ehtimalı vardı. 30 ildən çox bir müddətdə insanlar hər cür əziyyətə, təhlükəyə tab gətirdilər. Yaralandılar, şəhid oldular, ancaq doğma ocaqlarını tərk etmədilər. Baxmayaraq ki, Qapanlı kəndi düşmənlə təmas xəttinə güllə məsafəsi qədər yaxın idi.

Tərtərin Qapanlı kəndinin sakini Teyyub Cəfərov deyir:



- Uşaqlıqdan təsərrüfatla məşğul olmuşam. İxtisasca da aqronomam. Kolxoz dövründə pambıqçılıq briqadiri işləyirdim. Ancaq pay torpaqlarımızı alandan sonra onu ürəkli əkib becərə bilmədik. Qonşuluğumuzda yaşayan ermənilər buna heç cür imkan vermirdilər.

Ordumuz torpaqlarımızı onlardan təmizləyəndən sonra, Qapanlı kəndinin camaatı da rahatlıq tapdı. İndi hər kəs öz torpağını əkib-becərir və zəhmətinin bəhrəsini görür, evinə, ailəsinə qazanc gətirir.

Teyyub kişi cari il 4 hektarda pambıq əkib. Yaxşı bitiş alınıb. Hazırda əllə kətmənləmə işləri başa çatıb. Bundan sonra isə sahələrə kultivasiya çəkilir. O, ilin uğurlu olacağına əmindir:

- Təsərrüfat ili necə başlayırsa, sonda nəticələr də elə olur. Şükür, bu il əvvəldən yaxşı başladı, yağışlar çox oldu. Ötən il çox çətin bir il olmasına baxmayaraq, hər hektardan 46,6 sentner təmiz çəkidə pambıq götürdüm. Çalışıram bu il də məhsuldarlıq yüksək olsun.

Qeyd edək ki, müharibədən əvvəlki illərdən fərqli olaraq, indi Qapanlı kəndinin əkinçiləri suvarmada artezianlarla yanaşı, həm də Suqovuşan Su Anbarından gələn sudan istifadə edirlər.

Bütövlükdə cari il Tərtər rayonunda 2800 hektardan çox sahədə pambıq əkilib. Məhsulun becərilməsi ilə bağlı fermerlər 3 şirkətlə müqavilə bağlayıblar. Bunlar "Prime cotton" MMC, "Azərpambıq" ASK MMC və "Elakoton" MMC-nin Tərtər rayon filiallarıdır. Cari ildə ən çox müqavilə "Prime cotton" MMC-nin rayon filialı ilə bağlanıb. Müqaviləçilərin sayı 310 nəfərdir. 215 fermer "Azərpambıq ASK" MMC-nin Tərtər, 2 istehsalçı isə "Elakoton" MMC-nin filialları ilə bağlanmış müqavilələr əsasında fəaliyyət göstərirlər.

Fermer Nadir Kərimov deyir ki, "Prime cotton" MMC-nin əməkdaşları və pambıqçılıq üzrə mütəxəssisləri yerlərdə torpaq mülkiyyətçilərini lazım olan texnika, çiyid və dərman vasitələrilə təmin edir, eləcə də məsləhətlər verir, aqrotexniki tədbirlərin vaxtında və yüksək səviyyədə həyata keçirilməsinə yardımçı olurlar.

Nadir Kərimov:

- Pambıq bitkisi daimi diqqət və qayğı sevir. Odur ki, torpaq şumlanandan məhsul yığılanadək sahədən ayrılmaq olmaz. Bizimlə bərabər şirkətin mütəxəssisləri də işlərin gedişinə nəzarət edirlər ki, zəhmətimizin əvəzində əlimiz boşda qalmasın. Mövsüm işləri başlayandan hamı bildirir ki, bolluq olacaq. Biz də bu amalla çalışırıq.

Pambıq bitkisindən əlavə, rayonda 7341,23 hektarda payızlıq əkinlər səpilib. Bunun 3679,2 hektarı arpa, 2866,6 hektarı buğda, 103 hektarı xəsil üçün arpa, 645 hektarı təzə yonca, 46,43 hektarı yerkökküdür. Sahələrdə vegetasiya suyu aparılmış, yemləmə gübrəsi verilmiş, siçanabənzər gəmiricilərə, xəstəliklərə və alaq otlarına qarşı mübarizə tədbirləri görülmüşdür.

Rəcəbli kəndinin sakini, taxılçılıq üzrə fermer Vüsal Mirzəyev deyir:

- Ötən təsərrüfat ili buğda istehsalçıları üçün çox çətin oldu. Bunun bir səbəbi qeyri-sabit hava şəraiti, digər səbəbi isə siçanabənzər gəmiricilərin həddindən çox olması idi. Buna baxmayaraq, hər hektardan 35 sentner məhsul götürdüm. Cari ildə isə 5 hektarda taxıl becərmişəm. Şükür, vəziyyət yaxşıdır. Gəmiricilər də, demək olar ki, yoxdur. Artıq sünbüllər dənə dolur. Bu mənzərə insanda xoş əhvali-ruhiyyə yaradır.

Tərtər rayonunun təsərrüfatlarında yazlıq bitkilər, o cümlədən dən üçün sorqo, təzə yonca, günəbaxan, kartof, tərəvəz və digər bitkilər əkilib. İlıq yaz günlərində əkinçilər sahələrə çıxıb böyük ümidlərlə, həvəslə çalışırlar. Onlar mütərəqqi texnologiyaları tətbiq edərək həm məhsuldarlığı artırır, həm də əl əməyini yüngülləşdirirlər. Elmi nailiyyətlər ən ucqar kəndələrə də ayaq açıb həyatımızı dəyişdirir. Bu, yeni dövrün tələbidir və zaman keçdikcə fermerlər mütərəqqi üsulların tətbiqinə daha çox üstünlük verirlər.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Naxçıvan MR-də "Kiber Suverenlik" konfransı keçiriləcək

**Konfransın mayın 21-də Naxçıvan şəhərində keçiriləcəyi nəzərdə tutulur.**




Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, Milli Kibertəhlükəsizlik Mərkəzinin və "Caspel" MMC şirkətinin əsas tərəfdaşlığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr edilən konfransın təşkil edilməsində məqsəd ölkənin kibertəhlükəsizlik ekosisteminin inkişafına töhfə verən müvafiq qurum, təşkilat və şirkətlərin nümayəndələri ilə birgə müzakirələrin həyata keçirilməsidir.

100-dən çox nümayəndənin iştirak edəcəyi konfrans çərçivəsində kibertəhlükəsizlik sahəsində dövlət qurumlarının rəhbər şəxslərinin, tanınmış yerli ekspertlərin və aparıcı İT şirkətlərin rəhbər vəzifəli şəxslərinin çıxışları dinləniləcək, həmçinin "Kiber suverenlik və dövlət təhlükəsizliyi", "Kibertəhlükəsizlik sahəsində kadr potensialı", "Kritik informasiya infrastrukturunun təhlükəsizliyində milli həllər və yerli şirkətlərin rolu" adlı panel müzakirələri həyata keçiriləcək.

## Havaların əlverişsiz keçməsi ağstafalıların əlini işdən soyutmur

**Ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət tərəfindən göstərilən diqqət və verilən dəstək ildən-ilə artır. Ərzağa olan daxili tələbatın, əsasən, yerli istehsal hesabına ödənilməsi üçün fermer və sahibkarlara hər cür şərait yaradılır.**

Kənd təsərrüfatı rayonlarından olan Ağstafada da aqrar sektorun inkişafına xüsusi münasibət, yanaşma var. İlk növbədə kənd təsərrüfatı məhsulları istehsalının artırılması rayonda strateji hədəf kimi diqqətdə saxlanılır ki, bunun da nəticəsində əhəmiyyətli göstəricilərə nail olunur, başqa sözlə, həyata keçirilən tədbirlər sayəsində kənd təsərrüfatı məhsullarının istehsalında dinamik artım müşahidə edilir.

İqtisadiyyatının əsasını aqrar sahə təşkil edən Ağstafada əvvəlki illərdə olduğu kimi, keçən il də uğurlu göstəriciyə nail olunmuşdur. Təsərrüfat sahiblərinin gərgin əməyi nəticəsində rayon üzrə məhsul istehsalının həcmi əvvəlki illərə nisbətən artmışdır. 8512,1 hektarda taxıl yetişdirən əkinçilər hər hektar buğda sahəsindən 34,2, arpa sahəsindən 26,1, qarğıdalı sahəsindən 45,6 sentner məhsul götürmüşlər. Digər sahələrdə də yüksək göstəricilərə nail olunmuşdur: günəbaxan, bostan, tərəvəz və yonca bitkilərinin istehsalı xeyli artmışdır. Kartof istehsalı da nəzərdə tutulduğundan çox olmuş, məhsuldarlıq 266 sentnerə çatmışdır.

Hazırda rayon üzrə 500,9 hektar üzüm bağı var ki, onun da 484 hektarı barverəndir. Keçən il üzüm bağlarının hər hektarından 160 sentner məhsul yığılmışdır. Hətta rayonda elə kəndlər var ki, orada məhsuldarlıq daha yüksəkdir. Poylu kəndindən Səməndər Vəliyev, Qurban Aslanov, Vəli Vəliyev və Mətləb İslamzadə hər il daha yüksək məhsuldarlığa nail olurlar.



Məhsuldarlıqdan söz düşmüşkən, Ağstafanın meyvə bağlarında da yüksək məhsuldarlıq qeydə alınır. Hazırda rayon üzrə 1389,1 hektar meyvə bağı mövcuddur və həmin bağların 1304,7 hektarı meyvə verəndir. Keçən il bağbanlar hər hektardan 117 sentner meyvə götürmüşlər.

Barama istehsalı da artır. Ötən mövsümə 110 qutu baramaqurdu götürən 60 kümçü 3267,30 kiloqram yaş barama təhvil verərək əvvəlki ildəki göstəricini üstələmişlər. Rayonda bu sahədə yüksək göstəricilərə nail olan çox sayda kümçü var. Sakit İsgəndərov, Pərviz Məmmədov, Nəsibi Səmədov belə kümçülərdəndir.

Hazırda yaz tarla işlərinin qızğın çağıdır. Təsərrüfat sahibləri keçən ilki göstəriciləri yeniləmək və daha çox kənd təsərrüfatı məhsulları istehsal etmək üçün var qüvvələrini əsirgəmirlər. Havaların yağmurlu keçməsi işləri bir qədər yubatsa da, təsərrüfat sahibləri bütün imkanlardan maksimum istifadə etməyə çalışırlar. İndiyədək 324 hektarda karof, 179 hektarda qarğıdalı, 1206 hektarda günəbaxan, 30 hektarda soğan, 40 hektarda bostan, 220 hektarda tərəvəz bitkiləri əkilmişdir. Səpin davam edir. Bundan başqa, 267 hektarda yeni meyvə bağı salınmışdır. Fermerlər bu bağları xəstəlik və zərərvericilərdən qorumaq üçün kimyəvi mübarizə işləri həyata keçirirlər. Üzüm bağlarının sahəsi də 8 hektara yaxın genişləndirilmişdir.

Yaz tarla işləri çərçivəsində taxıl sahələrinə də diqqətlə qulluq göstərilir. Bu il əkilmiş 7929 hektar taxılın 5188,5 hektarı buğda, 2740,5 hektarı arpadır. Yağıntının çox olması əkin sahələrində taxılın sürətli inkişafına səbəb olmuşdur. Mütəxəssislərin fikrincə, bu il əvvəlki illərə nisbətən rayonda daha çox taxıl istehsalına nail olunacağı gözlənilir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Özbəkistanlı qonaqlar Naftalanda olmuşlar

**Unikal Naftalan neftinin müalicəvi xüsusiyyətləri və şəhərin turizm potensialı ilə yaxından tanış olmaq üçün bir qrup özbəkistanlı qonaq Naftalanda olmuşdur.**




Bu münasibətlə keçirilən görüşdə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov, Özbəkistan Xarici İşlər Nazirliyinin Turizm şöbəsinin rəis müavini Şahboz Usmanov, Turizm Agentliyinin nümayəndələri Mahmud Akbarov, Adxam Akbarov, bir sıra bloqçular, eləcə də "Azeturizm" şirkətinin rəhbəri Mehbarə Məmmədova iştirak etmişlər. Görüşdə çıxış edən Vüqar Novruzov qonaqlara beynəlxalq turizm mərkəzinə çevrilmiş Naftalanın turizm potensialından söhbət açmışdır. O həmçinin qeyd etmişdir ki, hazırda ortaq tarix və mədəniyyətə malik olan Azərbaycan və özbək xalqları arasındakı ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir.

Görüşdən sonra qonaqlar turizm sağlamlıq məkanlarında Naftalan nefti ilə aparılan müalicə prosedurları ilə yaxından tanış olmuşlar.

Qeyd edək ki, son illər şəhərə gələn xarici turistlər arasında özbəkistanlı qonaqlar ilk üçlükdədir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*





# Ədəbiyyat





● Seyid Əzim Şirvani - 190

# Aşiqanə qəzəlxan, realist satirik, maarifçi ziyalı

**Bu il Azərbaycan ədəbiyyatının görkəmli simalarından Seyid Əzim Şirvaninin anadan olmasından 190 il ötür. Prezident İlham Əliyev aprelin 4-də qüdrətli şair və böyük maarif xadiminin yubileyinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.**

**Sərəncamda deyilir: "Seyid Əzim Şirvani yaradıcılığı boyu həm Şərq poeziyasının çoxəsrlik ənənələrini yüksək sənətkarlıqla davam etdirmiş, həm də mühüm ictimai-siyasi dəyişikliklərin baş verdiyi bir şəraitdə Azərbaycan ədəbiyyatının yeni maarifçilik ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır. Dəyərli poetik nümunələrdən ibarət parlaq lirikasında mənəvi gözəlliyi tərənnüm edən şair eyni zamanda realist satiralarında dövrün aktual məsələlərinə kəskin münasibət bildirmiş, didaktik əsərlərində humanist ideyaların təbliğinə xüsusi diqqət yetirmişdir".**



Seyid Əzim aşiqanə-lirik şeirləri ilə Füzuli ənənələrini davam etdirən şair, satiraları ilə dövrünün qaranlıqlarına işıq salan maarifçidir. O, cəmiyyətin sosial-mədəni tərəqqisi uğrunda qabaqcıl ziyalıların apardığı mübarizənin daim ön sıralarında dayanmışdır. Böyük şairin xalqa xidmət naminə öz maarifçi düşüncələrini gerçəkləşdirmək arzusu ilə ana dilində açdığı yeni üsullu məktəb Azərbaycan təhsili tarixində dərin iz qoymuşdur.

Seyid Əzim Şirvaninin həyat və yaradıcılığı hələ sağlığında müasirlərinin diqqətini cəlb etmiş, dövrün ziyalıları onun əsərlərlərini yüksək dəyərləndirmişlər. Firidun bəy Köçərli onun çox böyük istedada malik olduğunu, məclislərdə şövqlə gəlib bədahətən gözəl şeirlər söyləməsini, şeir sənətinin bilicisi kimi misli-bərabəri olmadığını xüsusilə qeyd etmişdir. "Bu barədə Hacı Seyid Əzim rusların Puşkininə, ingilislərin Bayronuna, polyakların Mişkeviçinə bərabər imiş" demişdir. F.Köçərli şairin müxtəlif janrlarda yazılmış şeirlərini "Füzuli Bağdadinin kəlamına əvəz" ola biləcək əsərlər adlandımışdır: "Seyid Əzimin elə gözəl və səlis qəsidələri, elə xoşməzmun müxəmməsləri və qitələri, elə ruhpərvər qəzəlləri var ki, Füzuli Bağdadinin kəlamına əvəz ola bilərlər",- söyləmişdir. Professor Feyzulla Qasımzadə, Ə.Şirvani yaradıcılığının XIX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tutduğunu yazırdı: "O, məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair, maarifçi şeirləri, təmsil, mənzum hekayə və satiraları ilə görkəmli realist sənətkar kimi tanınmışdır".

Hacı Seyid Əzim Şirvani 1835-ci il iyulun 9-da Şamaxıda ruhani ailəsində anadan olmuşdur. Atası Seyid Məhəmməd Şamaxının mötəbər şəxslərindən idi. Seyid Əzim erkən yaşlarından atasını itirdiyindən ana babası molla Hüseyn onu himayəsinə götürmüşdür. O zaman babası Dağıstanın Yaqsay kəndində ruhanilik edirdi. Burada o, nəvəsinin təhsili ilə özü məşğul olur, ona fars və ərəb dillərini öyrədirdi. Molla Hüseyn Seyid Əzimi də özü kimi din xadimi görmək istəyirdi. Beləcə, gələcəyin böyük şairi Yaqsay kəndində 10 ildən çox yaşayır. Sonra isə Şamaxıya qayıdıb mədrəsədə dini təhsilini tamamlayır. Amma o, ali ruhani təhsili almaq arzusundaydı. Elə bu məqsədlə də 1856-cı ildə İraqa yollanır. Əvvəlcə Nəcəf və Bağdadda, sonra Suriyanın Şam şəhərində ali ruhani mədrəsəsində oxuyur. Təhsilini tamamladıqdan sonra Şamaxıya qayıdır və bir müddət sonra Hacı Ələbbas adlı varlı tacirin maddi köməyi ilə Məkkəyə Həcc ziyarətinə gedir, Ərəbistanın bir çox mərkəzi şəhərlərini gəzib-dolaşır, Məkkədən qayıdanda bir neçə ay da Qahirədə qalıb o zamanların məşhur ərəb şair və alimləri ilə görüşür. Bu səfər onun dünyagörüşünü daha da zənginləşdirir.

## "Ey Şeyx Nizami, nizamı dağılan..."

Gənc şair hələ İraqda oxuyarkən onda dünyəvi elmlərə böyük rəğbət yaranmışdı. Bu elmlər onun dini biliklərə bağlılığını üstələyirdi. O dövr bu səviyyədə ali dini təhsil almış şəxslər, adətən, ruhani məktəblərində çalışar, öz ardıcıllarını yetişdirərdilər. Seyid Əzim Şirvani isə Şamaxıya qayıtdıqdan sonra nəinki dini məktəbdə çalışmış, hətta öz əsərləri ilə dini ehkamlar əleyhinə çıxmağa başlamışdır.

Bu səbəbdən şair o dövrdə Azərbaycanın əsas mədəniyyət mərkəzlərindən olan Şamaxının nüfuz sahibləri arasında özünə xeyli düşmənlər qazanmışdır. Ruhanilər, şəhərin bəzi məqam sahibləri onu xalqın gözündə hörmətdən salmağa çalışmış, buna müəyyən qədər nail olmuşlar. Savadsız, avam adamlar onu kafir kimi tanımışlar. Amma bu münasibət Seyid Əzimi də tutduğu yoldan çəkindirmir. O, ruhanilikdən tamamilə əl çəkib 1869-cu ildə Şamaxıda yeni məktəb açaraq ömrünün sonuna qədər burada müəllimlik edir. Klassik mollaxanalardan fərqli olaraq o bu məktəbdə uşaqlara Azərbaycan və fars dillərini də öyrədir, tarix, coğrafiya, hesab və s. kimi fənlərdən ibtidai səviyyədə də olsa, məlumatlar verirdi.

Seyid Əzim Şirvani rus dilini qismən, ərəb və fars dillərini mükəmməl bilirdi, eyni zamanda müasir dünyəvi elmlərdən az-çox xəbərdar idi. Müəllimin yüksək hazırlıq səviyyəsi onun məktəbindəki uşaqların yeni mühitdə yetişmələrinə imkan yaradırdı. Təsadüfi deyil ki, Mirzə Ələkbər Sabir, Sultan Məcid Qənizadə kimi şəxsiyyətlərimiz məhz onun məktəbində oxuyaraq yetişmişlər. Bəzi mənbələrdən onun məktəbində təxminən 40-a yaxın şagirdin oxuduğunu öyrənirik.

Seyid Əzim Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərindən, "Ziynətül-məcalis"dən və başqa fars mənbələrindən tərbiyə əhəmiyyətli bədii parçaları Azərbaycan dilinə tərcümə edir, özü də kiçikhəcmli maraqlı şeirlər yazıb uşaqlara oxuyurdu. Bir neçə il bu qayda ilə dərs keçdikdən sonra o, tədris prosesində şagirdlərə oxuduğu həmin parçalardan ibarət bir dərslik hazırlayaraq çap olunmaq üçün Qafqaz Maarif İdarəsi rəisinə təqdim etmişdi. Lakin bu dərsliyin nəşrinə nədənsə imkan verilməmişdi.

Seyid Əzimin məktəbi, müasir dildə desək, özəl məktəb idi, şagirdlər burada təhsil almaq üçün həftəlik cüzi ödənişlər edirdilər. Şair öz məktəbindən başqa dövlətin açdığı rəsmi məktəblərdə də dərs keçirdi. 1874-cü ildə Şamaxıda Bakı vilayəti Ruhani məclisinin nəzarəti altında yarı mülki, yarı ruhani bir məktəb açılmışdı. Seyid Əzim Şirvani həmin məktəbə fars və Azərbaycan dilləri müəllimi təyin olunmuşdu. Amma yerli mürtəcelərin fitnəsi nəticəsində çox çəkmədən onu müəllimlikdən azad etmişlər.

1877-ci ildə isə şair Şamaxı şəhər məktəbinə Azərbaycan dili və şəriət dərsləri müəllimi vəzifəsinə təyin olunur. Burada müəllimlik edərkən Seyid Əzim xüsusən Azərbaycan dilinin təliminə böyük əmək sərf edirdi. Şagirdlərə şəriət kitabları əvəzinə, özünün müasir ruhda yazdığı şeirlərindən, eləcə də Şərqin böyük klassikləri Sədidən, Hafizdən və başqalarından etdiyi tərcümələrdən oxudurdu. Bu isə hakim dairələrdən ona qarşı müəyyən şübhələr yaradırdı. Hökumətin nəzərində Seyid Əzim Şirvani etibarsız və sədaqətsiz bir şəxs kimi görünürdü. Elə bu bəhanə ilə də onu yenidən müəllimlikdən azad edirlər. Seyid Əzimsə bu ədalətsizliklə barışmır, Tiflisə şikayətə gedir, orada Qafqaz Maarif İdarəsi rəisinə hökumət qulluğundan haqsız çıxarıldığını sübuta yetirir. Az sonra şairi yenidən işinə bərpa edirlər və o, ömrünün sonuna kimi Şamaxı şəhər məktəbində müəllim kimi çalışır.

Seyid Əzim Tiflisə gedərkən yolüstü Gəncədə böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin qəbrini ziyarət edir. Zaman keçəcək və o, türbənin dağınıq halının yaratdığı təəssüratları "Ey Şeyx Nizami, nizamı dağılan" misrası ilə başlanan şeirinə köçürəcək.

Seyid Əzimin Şamaxıda müəllimlik etdiyi vaxtlarda Qori Seminariyasının şöhrəti yenicə yayılmaqda idi. Şair orada dərs deməyi arzulayırdı. Seminariyada Azərbaycan dili müəllimi vəzifəsinin boş olduğunu eşidərkən o, 1879-cu il iyunun 12-də Qafqaz Maarif İdarəsi rəisinə ərizə ilə müraciət edir. Amma o yerə başqa müəllim nəzərdə tutulduğundan rədd cavabı alır.

Şeirlərindən onun maddi vəziyyətinin o qədər də yaxşı olmadığını, aldığı az məvacibin şairi qane etmədiyini öyrənirik:

Çox etdim, dəhrdə hər karə xidmət,  
Gəhi xanə, gəhi tüccarə xidmət,  
Birindən olmadı rəfi-məlalım,  
Keçindi möhnətü-üsrətlə halım.

## "Səramədi-dövran"

Şamaxıda onun bədxahları ilə yanaşı, xətrini, hörmətini əziz tutan xeyli şəxs də vardı. Onlardan biri şairin yaxın dostu Məhəmməd Səfa idi. Seyid Əzim və Şamaxının başqa şairləri tez-tez onun evində yığışar, yeni şeirlərini oxuyar, müzakirələr aparardılar. Seyid Əzimin təşkil etdiyi "Beytüs-Səfa" ədəbi məclisi belə yaranmışdı.

Onda Azərbaycanın başqa böyük şəhərlərində də belə şeir məclisləri vardı. Seyid Əzimin adı bu məclislərdə hörmətlə çəkilərdi. Qarabağdakı "Məclisi-fəramuşan"ın üzvləri, xüsusən Abdulla bəy Asi, Bakıdakı "Məcməüş-şüəra"nın üzvlərindən Əbdülxalıq Yusifi, Lənkərandan İsmayıl Qasir, Nuxadan İsmayıl bəy Nakam, Dərbənddən Mirzə Məhəmmədtağı Qumri, Gəncədən Mirzə Mehdi Naci və başqa qələm dostları ilə şeirləşər, onlara tövsiyələr verərdi. Müasirləri arasında o, "səramədi-dövran" (dövran başına gələn), ustad şair kimi ad çıxarmışdı. Bakı şairləri arasında xüsusilə çox sevilirdi. Tez-tez Bakıya gələr, burada təşkil olunan ədəbi məclislərdə iştirak edər, şeir yarışlarında özünün hazırcavab çıxışları, mükəmməl şeirləri ilə hər kəsi heyran qoyardı.

Seyid Əzim Şirvaninin milli mətbuatımızın banisi, bu il 150 yaşı tamam olan "Əkinçi" qəzetinin naşiri Həsən bəy Zərdabi ilə də sıx münasibətləri vardı. Onlar tez-tez məktublaşardılar. 1875-ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması Seyid Əzimi çox sevindirmiş, qəzet onunla Həsən bəy Zərdabi arasında münasibətləri daha da möhkəmləndirmişdi. O, bir tərəfdən "Əkinçi"nin xalq arasında yayılmasına, geniş oxucu kütləsi toplamasına çalışır, digər tərəfdən maarifçi məzmunlu şeirlər yazaraq bu qəzetdə çap etdirərdi.

"Əkinçi" bağlandıqdan sonra Seyid Əzim "Ziya" və "Kəşkül" qəzetlərində də fəal iştirak etmişdir. 1879-cu ildə "Ziya" qəzetində onun bir neçə şeiri çıxmışdı.

## Füzulinin kölgəsi

Seyid Əzim Şirvaninin bədii irsi biri Azərbaycan dilində olmaqla iki böyük külliyyatdan ibarətdir. Azərbaycan külliyyatını şairin həmyerlisi, cərrah Mirzə Həbib Məşədi Sadıq oğlu toplayaraq tərtib etmiş və 1892-ci ildə bu külliyyat Təbrizdə daşbasma üsulu ilə nəşr olunmuşdur.

Azərbaycan dilində külliyyat üç böyük hissəyə bölünür. Birinci hissədə qəsidələr, həcvlər, mənzum məktublar, tərci və tərkibbəndlər, müxəmməslər, təxmislər, müsəddəslər, müstəzadlar və s. toplanıb. İkinci hissədəki, əsasən, qəzəllər, rübailər, qitələr, beyt və fərdlərdir. Üçüncü hissədə isə mənzum hekayələr öz əksini tapıb.

Şairin farsca külliyyatını da Mirzə Həbib Məşədi Sadıq oğlu toplayaraq tərtib edib. Farsca külliyyat dördhissəlidir. Birinci hissədə qəsidələr, ikinci hissədə dini təziyədarlıqla bağlı qəzəllər, üçüncü hissədə aşiqanə qəzəllər, dördüncü hissədə tərci və tərkibbəndlər, müxəmməslər, təxmislər, müsəddəslər, məsnəvilər, rübailər və s. lirik əsərlər toplanıb. Külliyyatın təxminən yarısını qəsidələr təşkil edir.

Seyid Əzimin bədii irsinin böyük hissəsi lirik janrda yazılmış orijinal əsərlərdir. Onların çoxu qəzəllərdir. Şairin Azərbaycan və fars dillərində mindən çox qəzəli var. Tədqiqatçılar onun qəzəllərini mövzu etibarilə 5 qismə ayırırlar: məhəbbəti tərənnüm edənlər; şərab haqqında yazılanlar; dini ehkam və ruhanilik əleyhinə qəzəllər; müəllifin öz yaxın müasirləri və dostlarına münasibətini bildirənlər; dini və fəlsəfi məzmun daşıyanlar.

Şairin öz yaxın müasirlərinə və dostlarına münasibətini bildirən qəzəllərinin çoxu aşiqanə ruhda yazılıb. Bunları məhəbbəti tərənnüm edən qəzəllərdən ayırmaq çətindir. Şərabın tərifinə həsr olunan və dini ehkamlar əleyhinə yazılan qəzəllərdə dini ayin və mərasimlər tənqid olunub.

Seyid Əzim Şirvani, təbii ki, ateist deyildi, mükəmməl dini təhsil aldığından islam dininin dərinliklərinə bələd idi. Bununla belə onun təbiətində dini ehkamlara qarşı laqeydlik, həyata ruhən bağlılıq vardı. Onun qəzəllərində həyat sevgisi, dünyəvi nemətlərin tərənnümü, nikbin əhvali-ruhiyyə, dini etiqadlara qarşı etiraz ruhu daha çox duyulur.

Şairin aşiqanə qəzəlləri yaradıcılığında üstünlük təşkil edir. Onun lirik qəhrəmanı olan aşiq öz məhəbbətində fədakar və dönməzdir. Bu lirik qəhrəman özünün bəzi romantik xüsusiyyətləri ilə bərabər həyata real və ayıq gözlə baxır, əfsanəvi gözəli deyil, həyat gözəlini sevir və onu bütün dünya nemətlərinə qarşı qoyur. Məhəbbət yolunda çəkdiyi iztirablar bu insanı ruhdan salmır. Onun simasında kədərlə sevinc bir-biri ilə uyuşur, ikinci birinciyə qalib gəlir. Seyid Əzim məhz bu xüsusiyyətilə özünün böyük sələfi - Füzuli ilə birləşir, aşiqanə qəzəllərində onun ən məharətli davamçısı kimi meydana çıxır. Təsadüfi deyil ki, Seyid Əzim Şirvanini Füzulinin kölgəsi adlandırırlar.

## "Mövti-cismani ilə sanma mənim ölməyimi"

Maarifçi və tənqidi satirik şeirlər şairin yaradıcılığında yeni bir mərhələdir. Bu şeirlərlə onun yaradıcılığında realizm önə keçməyə başlayır. Həmin şeirlərin mühüm bir hissəsini o, "Əkinçi", daha sonra "Kəşkül" qəzetlərində dərc etdirmişdir. Bu əsərlərində böyük maarifçi xalqı cəhalət yuxusundan ayılmağa çağırır, cəmiyyətin aydınlanmasına yönələn təşəbbüsləri alqışlayır. "Qafqaz müsəlmanlarına xitab", "Təlim-tərbiyə haqqında", "Əkinçi" qəzetinə yardım üçün", "Həsən bəy Məlikov Zərdabiyə", "Puşkinə heykəl" və s. şeirləri ilə Seyid Əzim Şirvani bir maarifçi kimi təhkimçi feodal-patriarxal qayda-qanunların əleyhinə çıxır, qabaqcıl ideyaları tərənnüm edir.

Şairin əsərləri içərisində öyüd, təmsil və didaktik mahiyyət daşıyan mənzum hekayələr də çoxdur. Onların müəyyən bir hissəsi öz ideyaları etibarilə onun maarifçi şeirləri ilə birləşir. Bu şeirlərin çoxu Şərq mənbələrindən, əsas etibarilə Sədidən iqtibas olunub. Öyüd və təmsillər müəllifin pedaqoji fəaliyyəti ilə də bağlıdır. Ona görə tərbiyə məsələləri bu əsərlərdə mühüm yer tutur. Şair öz təmsillərini yazarkən Şərq mənbələrinin ən qabaqcıl və müasir həyata uyğun olan cəhətlərindən bacarıqla istifadə etmişdir.

Dürüstlük, mərdlik, dostluq, yoldaşlıqda mətanət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar və s. gözəl, nəcib sifətlərin tərbiyələndirilməsi həmin öyüdlərin əsas məzmununu təşkil edir.

Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları da onun yaradıcılığında müstəsna yer tutur. Onu öz dövrünün realist şairi kimi tanıdan da elə bu satiralarıdır. Qısaca olaraq belə deyə bilərik ki, XIX əsrin birinci yarısında Azərbaycan şeirində yaranan satiranı Mirzə Fətəli Axundzadə dramaturgiya və nəsr sahələrində necə dərinləşdirmişdisə, sonralar Seyid Əzim Şirvani də onu şeir sahəsində ən yüksək şəkildə inkişaf etdirdi. Onun kamil qələmi sayəsində satira XIX əsrin 70-80-ci illərində böyük bir inkişaf səviyyəsinə qalxdı. "Allaha rüşvət", "Yerdəkilərin göyə şikayətə getmələri", "Köpəyə ehsan", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata" şeirləri şairin ən güclü satiralarındandır.

Şair 1888-ci ilin 1 iyununda Şamaxıda vəfat etmiş, şeirlərindən birindəki vəsiyyəti ilə buradakı Şahxəndan qəbiristanlığında dəfn olunmuşdur.

*Mən öləndə Şaxadanda basdırın,*  
*Çünki onun Şahidi Xəndanı var.*

Seyid Əzim Şirvani dünyaya inkişaf, insanlara mənəvi azadlıq, cəmiyyətə maarif işığında tərəqqi arzusu ilə aləmə səs salmış düşüncə adamı idi. Belə şəxsiyyətlər cismən dünyadan köçsələr də, ruhən hər zaman yaşayırlar, sözün əbədi həyat gücü onları daim diri saxlayır. Özünün də yazdığı kimi:

*Mövti-cismani ilə sanma mənim ölməyimi,*  
*Seyyida ölmərəm, aləmdə səsim var mənim...*

Aradan daha neçə 190 illər, əsrlər, min illər keçəcək, aləmdəki səsi onu həmişə xatırladacaq, Seyid Əzim sözünə, şəxsiyyətinə sevgini yaşadacaq.

***İradə ƏLİYEVA,***  
***"Azərbaycan"***

## Q Ə Z Ə L L Ə R

Dolanım başına ey nazlıca yarım, bəri bax,  
İşvəli, qəmzəli, çəm-xəmli nigarım, bəri bax.

İşvə ağaz qılıb səbrimi tarac etmə,  
Getdi dildən dəxi aramü qərarım, bəri bax.

Xəm emiş qamətim ebrulerinin qurbanı,  
Zülfi-pürtabına qurban təni-zarım, bəri bax.

Bu cəfadidə dil, ol kakili-mişkinə fəda,  
Gözlərin sədqəsi bu cismi-fikarım, bəri bax.

Can nisar etməyə amadədi Seyyid, gözəlim,  
Gər desən lütf ilə: ey aşiqi-zarım, bəri bax!

***

O gün olsun ki, səni məclisi-səhbadə görüm,  
Gənə dəstində qədəh, meylüvi minadə görüm.

O gün olsun ki, səri-kuyivə, düşsün güzərim,  
Özümü izzət ilə cənnəti-məvadə görüm.

Gecə baxmaq nə qədər ayinəyə şum isə də,  
Tək üzün ayinəsin zülfi-şəb-asadə görüm.

Bu təmənnadəyəm, ey gül ki, şəhidin mən olum,  
Ölərəm qeyrini gər mən bu təmənnadə görüm.

Səndən ötrü nə qəmim, düşsə başım qovğayə,  
Təki mən sağ olum, öz başımı qovğadə görüm.

Hər kün əğyarə nəsib oldu cəmalın ey mah,  
Olmadı bir gecə kim, mən səni röyadə görüm.

Məqsədim, şəşəəyi-mahi cəmalındı sənin,  
Xah məsciddə onu, xah kəlisadə görüm.

İki zülfün arasından görünə mehri-rüxün,  
Genə ol əxtəri-rəxşəndəni Cövzadə görüm.

Seyidda, doğranı narinc kimi bu dili-zar,  
Əgər ol Yusifi mən bəzmi-Züleyxadə görüm.

***

Olmasaydı qəmi-eşqin dili-viranımda,  
Saxlamazdım onu bu izzət ilə yanımda.

O qara xalı mənə versələr qanın içərəm,  
Nə üçün mənzil edib arizi-cananımda.

Tutanı müshəfi-rüxsarüvi ol kafər xət,  
Görünür gör nə xələllər mənim iymanımda.

Eyləməz aşiqi bir lütf ilə xürrəm, ya rəb,  
Bu nə rəftardır ol sərvi-xuramanımda?

Düşəni xublərin könlümə fikri, Seyyid,  
Əlli Yusif tapılar külbeyi-əhzanımda.

***

Səni əhli-vəfa bilmişdim, ey gül, bivəfasənmiş,  
Bağışla, bilmədim biganələrlə aşinasənmiş.

Səni ayineyi-məqsud sandım rubəru durdum,  
Göründü əksi-surət, annadım kim, kəcnümasənmiş.

Səni Yusif bilib, verdim könül mülkündə sultanlıq,  
Əzizim, nuri-eynim, sən gəda oğlu gədasənmiş.

Səni üşşaq üçün söylərdim əvvəl rəhməti-həqsən,  
Vəli, ey mahru, sən gögdən enmiş bir bəlasənmiş.

Kimin zülfünə bənd oldunsa, Seyyid, bivəfa çıxdı,  
Şikayət etmə bir kəsdən, özün bəxti qərasənmiş.

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

## *2025-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya*

## QƏBUL ELAN EDİR

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | |
|---|---|---|---|---|
| | | Doktorantura | | |
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | |
| | | | o cümlədən | |
| | | | əyani | qiyabi |
| 1 | 2 | 3 | 4 | 5 |
| | | | | |
| 5801.01 | Ədəbiyyatın tədrisi metodikası | 1 | | 1 |
| 5801.01 | Tarixin tədrisi metodikası | 1 | | 1 |
| 5801.01 | Coğrafiyanın tədrisi metodikası | 1 | | 1 |
| 5801.01 | Musiqinin tədrisi metodikası | 1 | | 1 |
| 5801.01 | Texnologiyanın tədrisi metodikası | 1 | 1 | |
| 5801.01 | Riyaziyyatın tədrisi metodikası | 2 | 1 | 1 (GDU üçün məqsədli) |
| 5801.01 | İnformatikanın tədrisi metodikası | 1 | | 1 |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 2 | 1 | 1 |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 3 | 1 | 2 (1 yer GDU üçün məqsədli) |
| 5805.01 | Korreksiya pedaqogikası | 2 | 1 | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | 1 | |
| | | | | |
| | | | | |
| | | | | |
| | Cəmi: | 17 | 6 | 11 |

Doktoranturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TİMS) vasitəsilə elektron qaydada 13 may - 2 iyun 2025-ci il tarixlərdə həyata keçiriləcək. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsili müəssisələrinin tələbə qəbulu və qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun qeydiyyatdan keçməlidirlər. Fəlsəfə fənni üzrə imtahanın 2 - 4 sentyabr, ixtisas imtahanının isə 9 - 11 sentyabr 2025-ci il tarixlərdə keçirilməsi nəzərdə tutulmuşdur. Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *Rektorun adına ərizə;*
- *Kadrların şəxsi qeydiyyat vərəqi;*
- *Tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 ölçüdə);*
- *İş yerindən xasiyyətnamə;*
- *İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *Elmi rəhbərin razılıq məktubu (elmi rəhbərin razılıq rəyi olmadan sənəd qəbulu tamamlanmır);*
- *Çap olunmuş elmi əsərlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisas üzrə referat (referata rəy tələb olunur));*
- *Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun (bakalavriat və magistratura təhsil səviyyələri üzrə diplomların surətləri və diploma əlavə) müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*
- *Şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***QEYD:***

Xarici dildən (ingilis, alman və fransız dillərindən biri) imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Qəbul komissiyası tərəfindən doktoranturaya qəbul olunmaq istəyən şəxslərin sənədləri yoxlanılır və ixtisas uyğunluğu müəyyən edilir. Doktoranturaya qəbul olunmaq istəyən şəxslər tələb olunan sənədləri portala yüklədikdən sonra sənədlərini kağız şəklində ADPU-nun Magistratura və doktorantura şöbəsinə təqdim etməlidirlər.

Əlaqə tel.: (+99412)493-05-85, 465-81-53

**Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 68**
**http://adpu.edu.az/**

***Rektorluq***

# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
## *2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
50-dək ölkə, 3 mindən çox şirkət, 150 mindən artıq ziyarətçi
Prezident İlham Əliyev "InterFood Azerbaijan" və "Caspian Agro"sərgiləri ilə tanış olub
PKK-nın özünü ləğv etməsi bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir
Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib
Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin dərinləşməsi məmnunluq doğurur
Prezident İlham Əliyev Türkiyə Milli Təhlükəsizlik Şurasının Baş katibini qəbul edib
Xalq Cümhuriyyətinin reallaşdıra bilmədiklərini müstəqil Azərbaycan həyata keçirib
Möcüzələr diyarı
Böyük qayıdış təkcə Qarabağ və Şərqi Zəngəzura yox, xalqın özünə qayıdışdır
Azərbaycan regionda yeni reallıqlar yaradıb
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Bu gün bütün gözlər İstanbuldadır

**Ukrayna Prezidenti Volodimir Zelenski bir neçə gün öncə "müharibəyə son qoymaq üçün format tapmaq" məqsədilə bu gün İstanbulda keçiriləcək danışıqlarda Rusiya Prezidenti Vladimir Putinlə şəxsən görüşmək istədiyini açıqlamışdı.**



O, Avropa mediasına müsahibəsində deyib: "Biz onunla hər şeydə dərhal razılaşa bilmərik. Bu, mümkün deyil - bizim həyata fərqli baxışlarımız, müxtəlif dünyagörüşlərimiz var. Amma bu və ya digər şəkildə biz müharibəni bitirmək üçün format tapmalıyıq. Əlbəttə, razılaşmalı olduğumuz şeylər var, texniki detalları isə başqa formatda müzakirə edə bilərik". Müsahibənin sonunda Ukrayna lideri bildirib: "Putinlə görüşsəm, görüş siyasi qələbə ilə başa çatmalıdır - atəşkəs və bütün əsirlərin mübadiləsi. Əgər o Türkiyəyə gəlməsə, deməli, onun heç bir ölkə üçün siyasi qələbəyə ehtiyacı yoxdur".

Məlum olduğu kimi, Rusiya Prezidenti Vladimir Putin bundan əvvəl Moskva və Kiyev arasında birbaşa danışıqların mayın 15-də İstanbulda aparılmasını təklif etmişdi. Danışıqlarda iştirak edəcək Rusiya nümayəndə heyətinin tərkibi isə açıqlanmayıb. Kremlin keçmiş yüksəkrütbəli rəsmisi mayın 13-də "The Washington Post" qəzetinə bildirib ki, Rusiyanı danışıqlarda xarici işlər naziri Sergey Lavrov və prezidentin köməkçisi Yuri Uşakov təmsil edəcəklər.

Danışıqlara hazırlığın gedişi ilə tanış olan mənbənin məlumatına görə, Putinin iştirakı hələlik planlaşdırılmır. İki avropalı diplomatik mənbə də CNN agentliyinə deyib ki, Rusiya liderinin Türkiyəyə danışıqlar üçün gedəcəyinə şübhə ilə yanaşırlar. Bu arada Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Rusiyanın Türkiyədə Ukrayna ilə sülh danışıqlarında maraqlı olduğuna inanmadığını açıqlayıb. Srağagün o Danimarkanın paytaxtında keçirilən Kopenhagen Demokratiya Sammitinin kuluarlarında deyib: "Onlar Ukraynanı bombalamağa davam edirlər. Əgər onlar sülhə maraqlı olsalar, hücumu dərhal dayandıra bilərdilər". O xatırladıb ki, Ukraynanın "şərtsiz atəşkəs"lə razılaşmasından iki aydan çox vaxt keçib. "Rusiya açıq-aydın oyunlar oynayır, vaxt udmağa çalışır, ümid edir ki, vaxt onların tərəfindədir. Biz onların tərəfində heç bir müsbət səy və ya yaxşı əlamət görmürük", - deyə Avropa diplomatiyasının rəhbəri bildirib.

Ukrayna və Rusiya prezidentləri Volodimir Zelenski və Vladimir Putin arasında mümkün görüşdən danışan Kallas onların həqiqətən danışıqlar masasına əyləşməsinin "yaxşı addım" olacağını qeyd edib. "Ancaq buna Putinin cəsarət edəcəyini düşünmürəm", - deyə o əlavə edib. ABŞ-nin NATO-dakı daimi nümayəndəsi Metyu Uitaker isə onlayn mətbuat brifinqində Rusiya ilə Ukrayna arasında İstanbulda keçiriləcək sülh danışıqlarının vacibliyini vurğulayaraq Ukraynada müharibənin sona çatmasının "həmişəkindən daha yaxın" olduğunu deyib: " İnanıram ki, biz müharibəni bitirməyə və döyüşləri dayandırmağa həmişəkindən daha yaxınıq. Ümid edirəm ki, Tanrının köməyi ilə razılığa gələcəyik". O, həmçinin əlavə edib ki, ABŞ Prezidenti Donald Tramp bütün diqqətini "Rusiyanın hücumları səbəbindən Ukraynada baş verən qırğın və qətliamları" dayandırmağa yönəldir.

Eyni zamanda Uitakerin vurğuladığı kimi, heç kəs hər iki tərəfin əldə edə biləcəyi "hər hansı bir razılaşmadan" tamamilə məmnun olmayacaq: "Lakin biz hamımız razılaşırıq ki, sülh müharibədən daha yaxşıdır. Cümə axşamı biz bunun necə bitdiyini görəcəyik və buna addım-addım yanaşmaq lazımdır. Ona görə də bundan sonra nə olacağını proqnozlaşdırmaq çətindir".

Öz növbəsində ABŞ Prezidenti Donald Tramp İstanbul danışıqlarından müsbət nəticənin çıxa biləcəyinə əminliyini ifadə edərək deyib: "Həmin anda harada olacağımı bilmirəm. Yaxın Şərqdə bir yerdə ola bilərəm, amma faydalı olacağını düşünsəm, İstanbula uça bilərəm".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# "Microsoft" minlərlə iş yerini ixtisar edəcək

**"Microsoft" kompaniyası minlərlə əməkdaşının işdən azad ediləcəyini açıqlayıb.** AZƏRTAC **xəbər verir ki, kompaniyadan ixtisarların ümumi işçi sayının üç faizindən azını əhatə edəcəyi bildirilib.**

2024-cü il iyun ayının sonuna olan məlumata əsasən, "Microsoft" kompaniyasında 228 min nəfər çalışırdı. Beləliklə, işdən çıxarılacaq əməkdaşların dəqiq sayı göstərilməsə də, ixtisarların 6 min 800 nəfərə təsir edəcəyi məlum olur. Onlar müxtəlif regionları və vəzifələri əhatə edəcək. Xatırladaq ki, "Microsoft" 2023-cü ilin əvvəlində təxminən 10 min nəfəri işdən çıxarmışdı.

"Microsoft" kompaniyası hazırda süni intellekt sahəsində fəaliyyət göstərən məlumat mərkəzlərinə böyük həcmdə investisiyalar yatırır. Şirkət iyun ayının sonunadək davam edəcək cari maliyyə ili çərçivəsində bu sahəyə təxminən 80 milyard dollar xərcləməyi planlaşdırır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Anar Hacızadəyə atası

**İLHAM HACIZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Fransa-Əlcəzair münasibətləri yenidən gərginləşib

**Fransa və Əlcəzair arasında gərginlik səngimir. Fransa rəsmilərinin Əlcəzairdən qovulmasına cavab olaraq, Paris də əlcəzairli diplomatları geri göndərəcək.**

AZƏRTAC xəbər verir ki, Fransanın xarici işlər naziri Jan-Noel Barro açıqlamasında ölkəsinin bu addımı atacağını bəyan edib. Nazir bildirib ki, Fransa Əlcəzairin bu əsassız və qəbuledilməz qərarını qətiyyətlə pisləyir və bununla bağlı Əlcəzairin müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb. Görüş zamanı ona Parisin əlcəzairli diplomatları ölkədən çıxarmaq qərarı barədə məlumat verilib.

"Bizim cavabımız dərhal, qəti və bu mərhələdə eyni tələblə - hazırda vizası olmayan diplomatik pasport sahiblərinin Əlcəzairə geri göndərilməsi ilə tam mütənasibdir", - deyə Fransanın xarici işlər naziri Jan-Noel Barro televiziyaya müsahibəsində vurğulayıb. O əlavə edib ki, Əlcəzairin müvəqqəti işlər vəkilinə vəziyyətin gedişindən asılı olaraq əlavə tədbirlər görmək hüquqları barədə də məlumat verilib.

Fransa xarici işlər naziri ilk reaksiyasında Əlcəzairin qərarını anlaşılmaz və qəddar adlandırmışdı. Xatırladaq ki, mayın 11-də Əlcəzair hökuməti Xarici İşlər Nazirliyində keçirilən görüşdə Fransanın bu ölkədəki səfirliyinin müvəqqəti işlər vəkilindən səfirliyin qanunsuz sayılan on beş əməkdaşının dərhal ölkədən çıxarılmasını tələb etmişdi.

Əlcəzair mediasının rəsmi mənbələrə istinadla yaydığı məlumata görə, bu qərar Fransa tərəfinin Əlcəzairdəki diplomatik və konsulluq nümayəndəliklərinə təyinat zamanı beynəlxalq konvensiyalarla müəyyən olunmuş prosedurlara açıq-aşkar və təkrarən əməl etməməsi səbəbilə verilib.

Qeyd edək ki, Fransa və Əlcəzair arasında münasibətlər 2024-cü ilin yayında Parisin Mərakeşin Qərbi Sahara üzərində suverenliyini tanıması fonunda pisləşdi. Buna cavab olaraq Əlcəzair Parisdəki səfirini geri çağırdı və Prezident Tebbun ilkin olaraq 2024-cü ilin sentyabrına planlaşdırılan Fransaya səfərini ləğv etdi. Həmin ilin noyabrında Əlcəzair-Fransız yazıçısı Boualem Sansalın həbsi vəziyyəti daha da çətinləşdirdi.

2025-ci ilin mart ayının sonunda Qurban bayramı münasibətilə Makron və Tebbun arasında telefon danışığı, ardınca Fransanın Avropa və xarici işlər nazirinin aprelin 6-da Əlcəzairə səfəri ilə iki ölkə arasında münasibətlərdə yeni mərhələnin başlanmasına ümid yaransa da, aprelin əvvəlində Parisdəki konsulluq məmurunun həbsi Əlcəzairdə qəzəb doğurub və bu, münasibətləri yenidən gərginləşdirib.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3569
Sifariş 974

Qiyməti 60 qəpik